# 525-ci qəzet

04 iyul 2012-ci il, çərşənbə №116 (3671). Qiyməti 20 qəpik

www.525.az


## Ştrasser Bakı metrosunda terror törədənlərin adını siyasi məhbus siyahısına salıb

### *HÜQUQ MÜDAFİƏÇİSİ SƏİDƏ QOCAMANLI:* "SİYAHIDA ELƏ ŞƏXSLƏRİN ADI VAR Kİ, ONLARI HEÇ KİM TANIMIR"



Hüquq-Müdafiə Təşkilatları Monitorinq Qrupunun üzvləri Avropa Şurası Parlament Assambleyasının (AŞPA) siyasi məhbuslar üzrə məruzəçisi Kristof Ştrasserin Azərbaycanla bağlı hazırladığı hesabata dair mətbuat konfransı keçiriblər. APA-nın məlumatına görə, Səidə Qocamanlı bildirib ki, hesabat AŞPA sessiyası çərçivəsində iyunun 26-da qurumun Hüquq məsələləri və insan haqları Komitəsində təqdim olunub, 89 nəfərin adı olan siyahı açıqlanıb. Hüquq müdafiəçisi deyib ki, siyahının hazırlanması prosesində neqativ hallara, pozuntulara yol verilib: "Məsələn, sıra 71-dən 73-ə, 75-dən 78-ə keçib. Bundan başqa, hesabat təqdim olunan zaman siyahıda olan 17 nəfər artıq azadlığa buraxılmışdı. Hətta onların bir neçəsi ötən il və ya ilin əvvəlində azad ediliblər. Bəzi şəxslərin adı isə məhkəmə qərarı olmadan siyasi məhbus kimi siyahıya salınıb. Siyahıda "Texnikabank"ın əməkdaşı Elnur Seyidov və "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı da var. Biz Əvəz Zeynallını potensial siyasi məhbus hesab etsək də, məhkəmə qərarı olmadan bunu rəsmi şəkildə açıqlaya bilmərik".

S. Qocamanlı monitorinq qrupunun son əfv sərəncamından sonra 10 nəfərin adının olduğu siyahı tərtib etdiyini də diqqətə çatdırıb: "Bu siyahıdan əlavə, "Səid Dadaşbəyilinin dəstəsinin" və islamçıların da adının salındığı daha bir siyahı hazırlamışıq. Bundan başqa, səhhətində problemləri olan Əli İnsanov, Fərhad Əliyev, Telman İsmayılov və Vidadi İsgəndərlinin adının yer aldığı 4 nəfərlik siyahımız da var".

O, təəssüflə qeyd edib ki, K. Ştrasserin hazırladığı siyahıda ötən əsrin 90-cı illərinin əvvəllərində Bakı metrosunda törədilən terror aktlarının iştirakçılarının da adı yer alıb: "Bu siyahıda elə şəxslərin adı var ki, onları heç kim tanımır".

Monitorinq qrupunun üzvü Səadət Bənnənyarlı da K. Ştrasserin siyahısının qeyri-obyektiv hazırlandığını diqqətə çatdırıb.

Qrupun üzvü Novella Cəfəroğlu isə onun Hüquq məsələləri və insan haqları Komitəsində Azərbaycan İslam Partiyasının və digər İslam təmayüllü təşkilatların azadlıqdan məhrum edilən üzvlərinin müdafiəsinin qarşısını aldığına dair mətbuatda gedən yazırala münasibətini açıqlayıb: "Mən İslam dininin tələblərinə ciddi riayət olunduğu ailədə böyümüşəm. Naxçıvan şəhərinin mərkəzindəki məscid mənim babam tərəfindən inşa edilib. Kimlərsə öz reklamları ilə məşğul olduqları bəs deyil, digərlərinə şər atmaqla məşğuldurlar.

Buna görə də mən bəyan edirəm ki, yaxın vaxtlarda bizim monitorinq qrupunun üzvləri həbsdə olan axundlar və dindarların hər biri ilə görüşəcək".

N. Cəfəroğlu qeyd edib ki, bu cür qısqanclıqla həmin şəxslər hüquq müdafiəçisi kimi Azərbaycanı təmsil edə bilməyəcəklər: "Biz atdığımız hər addımda Azərbaycan hakimiyyətini yox, dövlətini düşünürük. Çünki bütün bu həqiqətə uyğun olmayan siyahılar və məlumatlar dövləti təhlükə altına salır".

Qeyd edək ki, Hüquq Məsələləri və İnsan Haqları Komitəsində hazırlanan qətnamə layihəsi 26 səs lehinə, 22 səs əleyhinə qəbul edilib və baxılması üçün qurumun payız sessiyasına çıxarılacaq.

## Prezident Dubaya baş konsul təyin etdi, Odessada Baş Konsulluq yaradıldı



Azərbaycan Prezidenti İlham Əliyev Şamil Ələsgərova fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsi verilməsi haqqında sərəncam imzalayıb. APA-nın xəbərinə görə, prezident digər sərəncamı ilə Pərviz İsmayılzadəyə birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbəsi verilib. O, Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində Azərbaycanın baş konsulu təyin edilib.

Prezident Ukraynanın Odessa şəhərində Azərbaycanın Baş Konsulluğunun təsis edilməsi ilə bağlı da sərəncam imzalayıb.

Sərəncamda Nazirlər Kabinetinə baş konsulluğun fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirmə məsələlərini həll etmək tapşırılıb. Xarici İşlər Nazirliyi isə Baş Konsulluğun strukturunu və ştat cədvəlini təsdiq edəcək.

## "ABŞ Azərbaycana heç vaxt silah satmayıb"

### *ƏLİ HƏSƏNOV:* "ABŞ-IN AZƏRBAYCANA SİLAH SATIŞINI DAYANDIRMASI BARƏDƏ XƏBƏRLƏRİN HEÇ BİR ƏSASI YOXDUR"



"ABŞ-ın Azərbaycana silah satışını dayandırması barədə xəbərlərin heç bir əsası yoxdur". Bunu APA-ya eksklüziv açıqlamasında Azərbaycan Prezidenti Administrasiyasının ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənov deyib. "Ümumiyyətlə, ABŞ Azərbaycana heç vaxt silah satmayıb. Azərbaycan da heç vaxt ABŞ-dan silah almaq təşəbbüsündə olmayıb. Ona görə də belə məlumatların heç bir əsası yoxdur", — deyə Ə. Həsənov vurğulayıb.

Ə. Həsənovun sözlərinə görə, bu informasiya anti-Azərbaycan qüvvələri tərəfindən təxribat məqsədi ilə ortaya atılıb: "Məqsəd Azərbaycan ictimaiyyətində ABŞ-a qarşı mənfi rəy formalaşdırmaq, ölkələr arasında münasibətlərə xələl gətirməkdir. Bu cür təxribat xarakterli xəbərlərin yayılmasının arxasında Amerika Erməni Milli Komitəsi və onların himayə etdiyi informasiya strukturları dayanır".

Qeyd edək ki, Amerika Erməni Milli Komitəsinin məlumatına görə, ABŞ Dövlət Departamenti Amerika hərbi texnikasının satılacağı ölkələr siyahısından Azərbaycanın adını çıxararaq rəsmi Bakıya hərbi helikopter istehsalı üçün lazım olan hissələrin satışından imtina edib. Məsələ Demokratlar Partiyasının Xarici Əlaqələr Palatasındakı nümayəndəsi Harvard Bermanın Konqresə göndərdiyi məktubdan sonra gündəmə gəlib.

## Həmsədrlərin Azərbaycana səfərinin vaxtı dəqiqləşdi

ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Azərbaycana səfərinin tarixi dəqiqləşib. Həmsədrlər Robert Bradtke, Jak For, İqor Popov və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik iyulun 10-da Bakıya gələcəklər. Bu barədə APA-nın Moskva müxbirinə rusiyalı həmsədr İqor Popov məlumat verib. Onun sözlərinə görə, bu dəfə səfər Bakıdan başlayacaq: "Daha sonra isə Dağlıq Qarabağ bölgəsinə və İrəvana səfər edəcəyik".

İ. Popov səfər çərçivəsində Azərbaycan və Ermənistan prezidentləri, hər iki ölkənin xarici işlər nazirləri ilə görüşəcəklərini söyləyib. Görüşlərdə xarici işlər nazirlərinin Paris görüşünün nəticələri, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair danışıqların mövcud durumu, konfliktin həlli perspektivləri müzakirə olunacaq.

## İrandan Azərbaycana brusellyoz xəstəliyinin keçmə riski sıfıra bərabərdir

"Azərbaycan İrandan qoyun quyruğu, bir günlük cücə və yun idxal edir. Həmin ölkədən ət və süd məhsulları gətirilmir. Ona görə də İrandan Azərbaycana brusellyoz xəstəliyinin keçmə riski demək olar ki, sıfıra bərabərdir". Bu sözləri APA-ya açıqlamasında Dövlət Baytarlıq Xidmətinin (DBX) mətbuat xidmətinin rəhbəri Yolçu Xanvəli deyib. O bildirib ki, ümumiyyətlə, Azərbaycana idxal edilən məhsullar Respublika Baytarlıq Laboratoriyasında bakterioloji, virusoloji, toksikoloji və digər istiqamətlərdə müayinələrdən keçirilir: "Onların keyfiyyətləri qoyulan standartlara uyğundursa, satışına icazə verilir. Əks halda isə həmin məhsulun ölkəyə buraxılmasına və satışına qadağa qoyulur".

Qeyd edək ki, İran mətbuatının yazdığına əsasən bu ölkədə 12 min nəfər brusellyoz xəstəliyinə yoluxub, lakin qeyri-rəsmi statistikaya görə, onların sayı daha çoxdur.

## Ermənilər Ağdam və Goranboyda atəşkəsi pozublar



Azərbaycan torpaqlarının bir hissəsini işğal latında saxlayan Ermənistan Silahlı Qüvvələri qoşunların təmas xəttində atəşkəs rejimini pozmaqda davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, erməni silahlı bölmələri dünən və bu gecə Ağdam rayonunun Yusifcanlı kəndi yaxınlığında və Goranboy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən atəşkəs rejimini pozublar. Düşmən cavab atəşi ilə susdurulub.

## *Eldar İbrahimov:* "ATƏT PA-nın yay sessiyasının Azərbaycanda keçirilməsi nəzərdə tutulur"



Milli Məclisin üzvləri ATƏT-in Parlament Assambleyasının XXI yay sessiyasında iştirak etmək üçün Monako Knyazlığının Monako-Vill şəhərinə səfər edəcəklər. Bunu Modern.az-a açıqlamasında Aqrar siyasət komitəsinin sədri, deputat Eldar İbrahimov deyib. E.İbrahimovun sözlərinə görə, ATƏT-in Parlament Assambleyasında (PA) Azərbaycan nümayəndə heyətini rəhbər Bahar Muradovanın başçılığı ilə o, Rəbiyyət Aslanova, Fəttah Heydərov, Ağalar Vəliyev və Azay Quliyev təmsil edəcək.

"Sessiya 5-9 iyul Monakoda keçiriləcək. Qrup tam heyətdə altı nəfər ilə iştirak edəcək. Sessiyada bir çox mövzular müzakirə olunacaq. Daimi komitənin iclasında 2014-cü ildə ATƏT-in Parlament Assambleyasının (PA) belə böyük bir yay sessiyasının Azərbaycanda keçirilməsi nəzərdə tutulur. Bu məsələ Daimi komitənin gündəliyində var və çox gümanki təsdiq olunacaq.

Bundan başqa Ukraynanın sabiq baş naziri Yuliya Timaşenko əlaqədar məsələ var. Başqa bir çox məsələlər müzakirə olunacaq. Azərbaycnla əlaqədar elə bir müzakirəlik məsələ gözlənilmir. Siyasi məsələlər və təhlükəsizlik komitəsində Bahar Muradova, İnsan haqqları ilə bağlı Rəbiyyət Aslanova çıxış edəcək. Mövzularla əlaqədar çıxışlar olacaq. Daha dəqiq orada bilinəcək. Görək ki, hansı mövzular olur və onlarla bağlı biz də öz münasibətimizi bildirəcəyik".

## Rusiyada üç azərbaycanlı silahlı qarşıdurmada atışmada yaralandı

### HƏRBÇİ MÜNAQİŞƏ ZƏMİNİNDƏ SOYDAŞLARIMIZA ATƏŞ AÇIB, ONUN SİLAHINI ALMAĞA MÜVƏFFƏQ OLAN AZƏRBAYCANLI İNSİDENTİN SƏBƏBKARINI VƏ DOSTUNU YARALAYIB

Yaroslavl vilayətinin Borisoqlebsk rayonunda azərbaycanlılarla naməlum iki şəxs arasında baş verən atışmada beş nəfər yaralanıb. APA-nın "RİA Novosti"yə istinadən yaydığı məlumata görə, hadisə Ustye çayının sahilində baş verib. Bir qrup azərbaycanlı yüksək səslə musiqiyə qulaq asıblar, bu zaman yaxınlıqda qadınlarla dincələn iki hərbçidən biri onlara yaxınlaşaraq musiqinin səsini azaltmağı xahiş edib. Azərbaycanlı səsi azaltmaqdan imtina edib, buna cavab olaraq hərbçi soydaşımıza travmatik tapançadan atəş açıb. Atəş nəticəsində üç azərbaycanlı yaralanıb, soydaşlarımızdan biri silahı hərbçinin əlindən almağa müvəffəq olub. Bundan sonra o həmin silahdan hərbçiyə və onun dostuna atəş açaraq onları yaralayıb. Soydaşlarımıza atəş açan hərbçinin vəziyyətinin ağır olduğu bildirilir. Başlamış cinayət işinin materialları Rusiya Təhqiqat Komitəsinin Yaroslavl qarnizonu üzrə hərbi-təhqiqat şöbəsinə verilib.

## Türkiyə-Ermənistan sərhədinin açılması məsələsi yenidən gündəmə gəldi

### ERMƏNİSTAN ÜMUMMİLLİ HƏRƏKATININ RƏHBƏRİ BUNUN QARABAĞ PROBLEMİNİN HƏLLİ İLƏ BAĞLI OLDUĞUNU DEYİB

Payızda Türkiyə-Ermənistan sərhədi ilə bağlı məsələdə irəliləyiş ola bilər. ANS PRESS-in Türkiyə mətbuatına istinadla verdiyi məlumata görə, bunu Ermənistanın müxalifətdəki, Erməni Milli Konqresinin (ANC) qrup rəhbəri və Ermənistan Ümummilli Hərəkatının rəhbəri Aram Manukyan deyib. O, Dağlıq Qarabağ problemi ilə türk-erməni sərhəddi məsələsinin bir-biri ilə yaxından bağlantılı olduğunu xatırladıb. Erməni siyasətçi "payızda sərhədlərin açılması ilə bağlı sürətli irəliləyişlər yaşanması ehtimalı var".

Manukyanın sözlərinə görə, bölgədə təyziq yüksəlməkdədir və Ermənistan bundan kənarda qalmayacaq. "Türk-erməni sərhədinin açılması payızda ön planda olacaq. Bu Dağlıq Qarabağ probleminin həlli ilə yaxından bağlıdır".

## *Benyamin Netanyahu:* "İran Azərbaycandan sonra Afrikada da terror etmək istəyir"

Keniyada İsrail vətəndaşlarına terror cəhdi ilə əlaqədar 2 iranlı həbs olunub. APA-nın "Associated Press" agentliyinə istinadən verdiyi məlumata görə, Əhməd Əbülfəti Məhəmməd və Səid Mansur Musəvi ötən ay yaxalanıb. Onların üzərində 15 kq partlayıcı maddə aşkarlanıb. Partlayıcıların gücü iri bir binanı dağıtmaq üçün yetərli imiş.

İsrailin baş naziri Benyamin Netanyahu fakta münasibət bildirib: "İran terroru sərhəd tanımır. İran Amerika torpağında Səudiyyə Ərəbistanı səfirini öldürmək üçün adam göndərdikdən və Azərbaycanda, Tiflisdə, Banqkok və Nyu-Dehlidə hücumlar həyata keçirmək cəhdindən sonra indi də Afrikada terror həyata keçirmək niyyətləri üzə çıxıb. Beynəlxalq ictimaiyyət dünyada terrorun ən böyük ixracatçısı olan bu ölkə ilə mübarizə aparmalıdır".

## Ramin Musayev yenidən PFL-in prezidenti seçildi



Dünən Peşəkar Futbol Liqasının prezidenti vəzifəsinə seçki keçirilib. Bu, PFL prezidentliyinə ikinci seçki olub. AFFA-nın inzibati binasında təşkil olunan seçkidə Azərbaycan klubları qurumun hazırkı prezidenti Ramin Musayevi dəstəkləyiblər. Seçkiyə alternativsiz qatılan Musayev ikinci dəfə 4 il müddətinə PFL-in prezidenti seçilib.

Tədbirdə AFFA prezidenti Rövnəq Abdullayev də iştirak edib. R.Abdullayev PFL-in son dörd ildəki fəaliyyətini yüksək qiymətləndirib. O, bu müddətdə ölkə çempionatının və hakimliyin işini müsbət dəyərləndirib.

Qurum tabeçiliyində olan Mərdəkandakı "Dalğa Arena" stadionunu tendərə çıxarıb. Bu haqda AFFA prezidenti Rövnəq Abdullayev bildirib. O deyib ki, "Dalğa Arena" ilə yanaşı AFFA-nın Bayıl qəsəbəsində inşa etdirdiyi stadion da tendərə çıxarılıb.

AFFA prezidenti maliyyə problemiylə üzləşən Tovuzun "Turan" klubunun növbəti çempionata qatılıb-qatılmayacağı məsələsinə aydınlıq gətirib.

O bildirib ki, "Turan" yeni mövsümdə Unibank Premyer Liqasında iştirak edəcək.

"Artıq "Turan"la bağlı problem yoxdur, komanda çempionatda oynayacaq. Bununla bağlı klub rəhbərliyi ilə də söhbətim olub. Hətta onlara məsləhət gördüm ki, legionersiz komanda qursunlar" — deyə R.Abdullayev vurğulayıb.

*Peşəkar Futbol Liqası prezidenti postuna seçkilərin yekunlarına görə, növbəti 4 il ərzində yenidən bu quruma rəhbərlik edəcək Ramin Musayev jurnalistlərin suallarını cavablandırıb:*

***— Nəyə görə, seçkilərdə Ramin Musayevə rəqib yox idi?***

— Bunu mən deyə bilmərəm. Kim istəyirdi namizədliyini irəli sürə bilərdi. Ancaq sürən olmadı. Mənə də xoş olardı ki, rəqibim olardı.

— Geridə qalan 4 ildəki fəaliyyətinizdən razı qaldınız?

*Ardı 8-ci səh.*



**Zemfira Məhərrəmli**

**Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının Mətbuat Xidmətinin rəhbəri**

# Ombudsman təsisatının yaradılmasının 10 illiyi müzakirə olunub

Ombudsman Aparatında Azərbaycan Respublikasının ilk İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) seçilməsinin və təsisatın yaradılmasının 10 illiyi münasibətilə keçirilmiş yığıncaqda fəaliyyət dövründə əldə olunmuş nailiyyətlər, qarşıda duran vəzifələr və perspektivlər müzakirə olunmuşdur.

İnsan Hüquqları üzrə Müvəkkil Elmira Süleymanova qeyd etmişdir ki, bütövlükdə Ombudsmanın fəaliyyəti nəticəsində "insan hüquqları" anlayışına, məfhumuna münasibət, yanaşma tərzi müsbətliyə doğru dəyişmiş, hüquq düşüncəsi və mədəniyyəti yeni məzmunda formalaşmış, idarəetmə təkmilləşmişdir. O, bu təsisatın daim inkişafda olan dinamik bir qurum olduğunu, 10 il ərzində həyata keçirilmiş fəaliyyətin əsas məqsəd və məramının bütünlüklə insan hüquq və azadlıqlarının həyata keçirilməsinə, pozulmuş insan hüquqlarının bərpasına, pozulmasının qarşısının alınmasına, vətəndaş cəmiyyətinin, demokratiya meyarlarına cavab verən dövlətçiliyin daha da möhkəmlənməsinə yönəldiyini bildirmişdir. Qeyd edilmişdir ki, adı çəkilən fəaliyyət müddəti insan hüquqlarının müdafiəsi və təbliği ilə bağlı Müvəkkilin həyata keçirdiyi tədbirlər baxımından zəngin olmuşdur.

Ombudsman ölkəmizdə insan hüquqları sahəsində üç strateji sənədin qəbul olunduğunu vurğulamış, ümummilli lider Heydər Əliyev tərəfindən mühüm əhəmiyyət kəsb edən ilk proqramın – "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın hələ 18 iyun 1998-ci il tarixli Sərəncamla təsdiq edildiyini bildirmişdir. Azərbaycan qanunvericiliyində ilk dəfə olaraq "Ombudsman" ifadəsinə məhz bu Proqramda rast gəlindiyi diqqətə çatdırılmışdır.

28 dekabr 2001-ci ildə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun qəbul edilməsi və belə bir hüquqi əhəmiyyətə malik təsisatın yaradılması insan hüquqları sahəsində dönüş nöqtəsi oldu, qabaqcıl dövlətlərdə fəaliyyət göstərən səmərəli institutların ölkəmizlə əməkdaşlığına şərait yaratdı. Bu akt dövlətin konstitusiya qanunvericiliyinə onun ayrılmaz hissəsi kimi daxil edilmiş, bununla da insan hüquqlarının müdafiəsinin dövlətin siyasətində prioritet olduğu bir daha təsdiqlənmişdir.

Ulu öndər Heydər Əliyevin təqdimatı ilə irəli sürülmüş üç namizəd arasından 2 iyul 2002-ci il tarixdə Azərbaycan Respublikasının Milli Məclisi böyük səs çoxluğu ilə Azərbaycanın ilk Ombudsmanı vəzifəsinə Elmira Süleymanovanı seçmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) vəzifəsinə irəli sürdüyü üç namizəd arasından E.Süleymanova 5 mart 2010-cu il tarixdə Milli Məclis tərəfindən bu vəzifəyə yenidən seçilmişdir.

Belə bir demokratik institutun yaradılmasında əsas məqsəd Azərbaycan Respublikasının Konstitusiyasında və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş, dövlət və yerli özünüidarə orqanları, vəzifələri şəxsləri tərəfindən pozulan insan hüquqlarının bərpasına nail olmaqdan ibarətdir.

Konstitusiya Qanununa 24 iyun 2011-ci il tarixli əlavə və dəyişikliyə əsasən Ombudsmanın səlahiyyətləri, mandatı genişlənmiş, preventiv funksiyaları da əlavə olunmuş, habelə İnformasiya Ombudsmanı vəzifəsi Müvəkkilə həvalə edilmişdir.

Yığıncaqda qeyd olunmuşdur ki, ölkəmizdə insan hüquqlarının müdafiəsi üzrə yeni mexanizmlərdən biri də Azərbaycanda Ombudsman təsisatının təşəkkülü olmuşdur. Artıq 10 ildir ki, Milli İnsan Hüquqları Təsisatı səlahiyyətinə malikolan bu institut – ölkədə insan hüquq və azadlıqlarının məhkəmədənkənar müdafiəsini həyata keçirən müstəqil bir qurum kimi BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı tərəfindən ilk dəfə 2006-cı ildə, ikinci dəfə isə 2012-ci ildə ən yüksək A statusu ilə akkreditasiya olunaraq fəaliyyət göstərməkdədir. Hazırda Azərbaycan Ombudsman təsisatı bütün potensialından istifadə edərək insan hüquqlarının daha etibarlı təmini, idarəetmənin təkmilləşdirilməsi, ölkədə davamlı sabitlik və inkişafa yönəlmiş, dövlətçiliyin möhkəmlənməsinə, beynəlxalq nüfuzunun artmasına xidmət edən fəaliyyətini davam etdirir.

Azərbaycan Ombudsmanının fəaliyyəti aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət, qərəzsizlik prinsipləri əsasında qurulmuşdur.

Əsas mandatı insan hüquqlarının, o cümlədən vətəndaş, siyasi, iqtisadi, sosial və mədəni hüquqların müdafiəsindən ibarət olan Ombudsmanın ünvanına fəaliyyət dövrü ərzində 80 mindən çox, cari ilin altı ayı ərzində isə 6 mindən çox ərizə və şikayət daxil olmuşdur.

Müvəkkil hər il Milli Məclisdə illik məruzəsi ilə çıxış edir, insan hüquqları ilə bağlı təklif və tövsiyələrini parlamentə təqdim edir. İllik məruzələrdə Azərbaycanda insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilmiş hüquqi islahatlar, Ombudsman təsisatının hüquqi dövlətdəki rolu, Müvəkkilin insan hüquqları sahəsində fəaliyyətinin nəticələri, ölkədə insan hüquqlarına hörmət mühitinin yaradılması, əhalinin müvafiq qruplarının bir sıra sosila problemlərinin həll edilməsi ilə bağlı Ombudsmanın ümumiləşdirilmiş təklifləri öz əksini tapmışdır.

Bu vaxtadək Müvəkkil tərəfindən Konstitusiya Məhkəməsinə ünvanlanmış 24 sorğudan çoxu tam təmin olunmuş, səkkiz iş üzrə şərhləri ehtiva edən qərardadlar qəbul edilmiş, digər sorğular isə icraatdadır.

Fəaliyyət müddətində Ombudsman əfv, vətəndaşlıq, siyasi sığınacaq verilməsi məsələlərinin həlli ilə bağlı Azərbaycan Respublikası Prezidentinə, habelə insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə qanunların qəbul edilməsi və ya yenidən baxılması, eləcə də amnistiya elan edilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər vermişdir. Həyata keçirilmiş humanist siyasətin nəticəsidir ki, respublikamızda heç bir ölkədə görünməyən 9 amnistiya aktı və 52 əfv fərmanı imzalanmışdır. Yeri gəlmişkən, Müvəkkilin qaldırdığı vəsatətlər üzrə bu günə qədər 378 məhkum azadlığa buraxılmış, ailəsinə, cəmiyyətə, sağlam həyat tərzinə qovuşmuşdur.

Azərbaycan Ombudsman institutu ilk dövrdən etibarən dövlət qurumları, vətəndaş cəmiyyəti, beynəlxalq təşkilatlar, o cümlədən BMT və onun ixtisaslaşmış bölmələri, Avropa Şurası və onun müvafiq qurumları, o cümlədən İnsan Hüquqları üzrə Komissarlığı, Avropa Birliyi, ATƏT-lə, həmçinin KİV-lə sıx əməkdaşlıq həyata keçirir, insan hüquqları sahəsində birgə maarifləndirmə tədbirləri təşkil edir. Fəaliyyət dövrü ərzində Ombudsmanın Mətbuat Xidməti 2.700-dək press-reliz hazırlamış, həmin informasiyalar ingilis dilinə tərcümə edilərək Avropa Şurasına göndərilmiş, həmçinin bu günədək təsisatın fəaliyyəti barədə 8.300-dək məqalə və informasiya qəzet və jurnallarda dərc edilmiş, sayı 88-ə çatan aylıq informasiya bülleteni hazırlanmış və iki cildlik kitab şəkilində çap olunmuş, habelə Müvəkkilin 45 bəyanatı nüfuzlu beynəlxalq qurumlara ünvanlanmışdır.

Bakı şəhərində dünya ölkələri Ombudsmanlarının iştirakı ilə 10 mühüm beynəlxalq konfrans təşkil edilmiş, bu konfranslardan yeddisi YUNESKO-nun dəstəyi ilə baş tutmuşdur. Bakı Beynəlxalq konfranslarında 60-dək ölkənin ombudsmanları və əməkdaşları iştirak etmiş, Müvəkkil və onun nümayəndələri isə 337 beynəlxalq tədbirə qatılmışlar.

Qeyd etmək lazımdır ki, Azərbaycan Ombudsman institutu klassik təsisat kimi tanınmış, fəaliyyətinə öz yeniliklərini, təşəbbüslərini də gətirmişdir. Belə ki, cəmiyyətdə "insan hüquqları" anlayışına münasibət tamamilə yeniləşmiş, hüquqi tərbiyə və hüquqi mədəniyyət yeni müstəvidə və məzmunda formalaşmışdır.

**(Ardı 3-cü səh.)**

# Azərbaycan-Argentina biznes forumu keçirilib



Rəsmi şəxslərdən və iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən şirkətlərin təmsilçilərindən ibarət Argentinanın geniş tərkibli ticarət missiyası ölkəmizdə səfərdədir. Səfərin məqsədi Azərbaycan şirkətləri ilə işgüzar görüşlərin keçirilməsi, yerli sahibkarlarla əlaqələrin yaradılması və Azərbaycan bazarının öyrənilməsidir. İqtisadi İnkişaf Nazirliyindən verilən məlumata görə, səfər çərçivəsində dünən Argentinanın Xarici İşlər naziri Hektor Timermanın rəhbərlik etdiyi nümayəndə heyəti iqtisadi inkişaf naziri Şahin Mustafayevlə görüşüb. Görüşdə ölkələrimiz arasında iqtisadi əlaqələrin mövcud vəziyyəti, iqtisadi əməkdaşlığın inkişafı imkanları müzakirə edilib. Nazir ölkəmizin əlverişli coğrafi mövqeyə, böyük tranzit potensialına, zəruri infrastruktura malik olduğunu, Azərbaycanda möhkəm siyasi və makroiqtisadi sabitliyin hökm sürdüyünü vurğulayıb, Azərbaycan iqtisadiyyatı barədə məlumat verib.

Görüşdə müqavilə-hüquq bazasının genişləndirilməsi, prioritet investisiya layihələri barədə məlumat mübadiləsinin aparılması, təhsil, turizm, ixracyönlü kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, emalı və qablaşdırılması sahəsində iki ölkə şirkətləri arasında əməkdaşlıq və s. məsələlərlə bağlı fikir mübadiləsi aparılıb, biznes forum və sərgilərin təşkili, AZPROMO ilə Argentinanın aidiyyəti qurumu arasında əlaqələrin genişləndirilməsinin Azərbaycan-Argentina iqtisadi əməkdaşlığının inkişafında əhəmiyyəti qeyd edilib.

Argentinanın Xarici İşlər naziri Hektor Timerman çıxışında Argentina tisarət missiyasının Azərbaycana səfərindən və ölkəmizin dinamik iqtisadi inkişafından məmnunluğunu ifadə edib, ikitərəfli əlaqələrin inkişafında ölkələrimizin böyük potensiala malik olduğunu vurğulayıb.

Dünən eləcə də İqtisadi İnkişaf Nazirliyinin, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO), Argentinanın Azərbaycandakı Səfirliyinin təşkilatçılığı ilə Azərbaycan-Argentina biznes forumu keçirilib. Tədbirdə Argentina tərəfindən rəsmi şəxslərlə yanaşı, kənd təsərrüfatı, ərzaq, şərabçılıq, aqrokimya, neft, sənaye, İKT, inşaat, əczaçılıq, tekstil, xidmət və s. sahələrdə fəaliyyət göstərən 300-ə yaxın iş adamı iştirak edib. Azərbaycan tərəfi isə biznes forumda rəsmi şəxslər və analoji sahələrdə fəaliyyət göstərən sahibkarlarla təmsil olunub.

Biznes forumda çıxış edən iqtisadi inkişaf naziri Ş.Mustafayev Azərbaycanın qazandığı sosial-iqtisadi nailiyyətlər barədə məlumat verib. O bildirib ki, Azərbaycanda həyata keçirilən uğurlu daxili və xarici siyasət, iqtisadi sahədə reallaşdırılan ardıcıl və məqsədyönlü islahatlar, sahibkarlığın inkişafına dövlət dəstəyi tədbirləri və yaradılmış əlverişli biznes və investisiya mühiti nəticəsində ölkəmiz Cənubi Qafqaz regionunun aparıcı ölkəsi, iqtisadi və mədəni mərkəzidir: "İqtisadiyyatımızın dayanıqlı inkişafı xarici ölkələrin Azərbaycana marağını daha da artırıb. Bu baxımdan, Argentina nümayəndə heyətinin geniş tərkibdə Azərbaycana səfər etməsi təsadüfi deyildir. Bu gün Azərbaycan xarici investisiyalar üçün cəlbedici və əlverişli ölkə olmaqla yanaşı, həm də investisiya ixracatçısıdır".

Ş.Mustafayev biznes forumda müzakirə edilən məsələlərin və iş adamları arasında ikitərəfli görüşlərin ölkələrimiz arasında ticarət-iqtisadi əlaqələrinin daha da genişlənməsində əhəmiyyətini qeyd edərək, iş adamlarını hər iki ölkədə birgə layihələr həyata keçirməyə dəvət edib.

Argentinanın Xarici İşlər naziri Hektor Timerman və Daxili Ticarət üzrə dövlət katibi Giyermo Moreno çıxışlarında geniştərkibli Argentina ticarət missiyasının Azərbaycana səfərinin məqsədi barədə məlumat verib, argentinalı iş adamlarını Azərbaycanda yaradılmış biznes və investisiya mühitindən yararlanmaqla Azərbaycanlı tərəfdaşları ilə əlaqələrin genişləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

AZPROMO-nun vitse-prezidenti Gülşən Rzayeva təqdimatında qurumun fəaliyyəti, eləcə də ölkəmizdə yaradılmış əlverişli biznes mühiti və investisiya imkanlarına dair məlumat verib.

Biznes forum çərçivəsində Argentina tərəfindən ölkə təqdimatı keçirilib.

Tədbir iştirakçıları Argentina şirkətlərinin biznes forumda nümayiş olunan malları ilə tanış olub. Eləcə də biznes forum iş adamları arasında ikitərəfli görüşlərlə davam etdirilib.

**BƏXTİYAR**

# Misir Mərdanov YUNESKO nümayəndəsi ilə görüşüb



Dünən təhsil naziri Misir Mərdanovun YUNESKO-nun İnformasiya- kommunikasiya texnologiyalarının inkişafı üzrə ali müşaviri, İsveçrə İnkişaf və Humanitar Yardım üzrə Əməkdaşlıq Təşkilatının sabiq rəhbəri, səfir Valter Fust və İnsan hüquqları müdafiəçisi, vətəndaş cəmiyyətinə dəstək üzrə Liviya forumunun rəhbəri Farida Allaqhi ilə görüşü olub.

M.Mərdanov qonaqları səmimi salamlayaraq onları Təhsil Nazirliyində görməkdən məmnunluq duyduğunu qeyd edib. Ölkəmizin təhsil sistemi haqqında geniş məlumat verən nazir Azərbaycanda müstəqillik əldə edildikdən sonra bu sahə üzrə həyata keçirilən irimiqyaslı layihələr, aparılan islahatlar barədə danışıb. M. Mərdanov Prezident İlham Əliyevin təhsil sahəsinə göstərdiyi diqqəti xüsusi qeyd edib və dövlət başçısının neft kapitalının ölkədə insan potensialının inkişafına yönəldilməsi strategiyasının yerinə yetirilməsi üzrə atılan addımlardan bəhs edib.

Nazir ölkədə informasiya-kommunikasiya texnologiyalarının təhsildə tətbiqinin prioritet sahə olduğunu vurğulayıb. Son illər Azərbaycanda ümumi təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunması istiqamətində mühüm işlər görüldüyünü nəzərə çatdıran təhsil naziri müəllimlərin müvafiq texnologiyalardan istifadəsi üzrə treninqlərdən keçirildiyindən bəhs edib.

Daha sonra M. Mərdanov Təhsil Nazirliyinin YUNİSEF və YUNESKO ilə sıx əməkdaşlıq etdiyini bildirib və birgə reallaşdırılan tədbirlərdən danışıb. Nazir təhsil sahəsinin inkişafı istiqamətində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın yüksək fəaliyyəti haqqında məlumat verib.

İnsan hüquqları müdafiəçisi, vətəndaş cəmiyyətinin dəstəyi üzrə Liviya forumunun rəhbəri xanım Farida Allaqhi səmimi qəbul üçün təhsil naziri Misir Mərdanova təşəkkürünü bildirib, eləcə də Liviyada və digər ərəb ölkələrində təhsilin vəziyyətindən söz açıb.

YUNESKO-nun İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı üzrə ali müşaviri, İsveçrə İnkişaf və Humanitar Yardım üzrə Əməkdaşlıq Təşkilatının sabiq rəhbəri, səfir Valter Fust İsveçrənin orta məktəblərində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi vəziyyəti, bu sahədə əldə olunan uğurlar barədə nazirə məlumat verib. Qonaq, həmçinin İsveçrənin müvafiq istiqamətdəki təcrübəsindən danışıb, birgə əməkdaşlığın yaradılması üzrə təkliflərlə çıxış edib.

Görüşdə tərəflər qeyd olunan məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

**S.QARAYEVA**

# "Hökumət Ödəniş Portalı" vasitəsilə bir sıra ödənişlərin qəbuluna başlanılıb



Ölkə başçısı tərəfindən imzalanan bir sıra fərmanlarda vergi, rüsum, icarə haqqı və digər büdcə ödənişlərinin yalnız bank vasitəsilə toplanılmasının və eyni zamanda dövlət orqanları tərəfindən göstərilən xidmətlərə görə rüsumların və digər ödənişlərin real vaxt rejimində elektron formada ödənilməsinin təmin edilməsi barədə müvafiq tapşırıqlar verilib. Mərkəzi Bankdan verilən məlumata görə, verilmiş tapşırıqların icrasının təmin edilməsi məqsədilə əlaqədar dövlət qurumları ilə birlikdə Mərkəzi Bankda "Hökumət Ödəniş Portalı"nın yaradılması istiqamətində işlər müvəffəqiyyətlə davam etdirilir.

Ötən dövr ərzində Vergilər və Maliyyə nazirliklərinin, Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin daxili informasiya sistemləri "Hökumət Ödəniş Portalı"nın infrastrukturuna inteqrasiya olunub.

Layihə üzrə işlərin icrasının davamı olaraq Dövlət Sosial Müdafiə Fondunun daxili informasiya sisteminin "Hökumət Ödəniş Portalı"na inteqrasiya olunması uğurla başa çatdırılıb. Bununla da sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, torpaq pay mülkiyyətçiləri və digər sığortaedənlərin ödənişlərinin "Hökumət Ödəniş Portalı"nın infrastruktur imkanlarından istifadə edilməklə qəbul edilməsinə başlanılıb.

Hal-hazırda mərkəzləşdirilmiş xəzinə hesabı ilə iş rejiminə keçmiş Bakı, Sumqayıt, Abşeron, Gəncə, Ağcabədi, Beyləqan, Biləsuvar, Bərdə, Cəlilabad, Göyçay, İsmayıllı, Kürdəmir, Lənkəran, Qəbələ, Şamaxı, Şirvan, Xaçmaz və Yevlax regionları üzrə 125 minə yaxın sığortaedən haqqında məlumat sistemin mərkəzi informasiya bazasına yüklənib. Digər regionlar üzrə ödənişlərin qəbul edilməsi həmin regionlarda Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən mərkəzləşdirilmiş xəzinə hesabının tətbiq edilməsi ilə paralel olaraq davam etdiriləcək.

Yaradılmış imkan nəticəsində yuxarıda qeyd olunan regionlarda qeydiyyatdan keçmiş sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, torpaq pay mülkiyyətçiləri və digər sığortaedənlər ödənişlərini 41 bankın və "Azərpoçt" MMC-nin 1200-ə yaxın ödəniş məntəqəsində, eyni zamanda Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin internet səhifəsində (www.apus.az) ödəniş kartları vasitəsilə apara bilərlər.

Növbəti mərhələlərdə Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Səhiyyə Nazirliyi, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin və digər hökumət qurumlarının da daxili informasiya sistemləri "Hökumət Ödəniş Portalı"na inteqrasiya olunacaq.

**BƏXTİYAR**

# "İrəli"nin rəhbəri Amerikada görüşlər keçirib

"İrəli" İctimai Birliyinin sədri Rauf Mərdiyev ABŞ Dövlət Departamenti tərəfindən həyata keçirilən IVLP proqramının iştirakçısı olaraq ABŞ-da səfərdədir. İctimai Birliyin mətbuat xidmətindən verilən məlumata görə, səfər çərçivəsində bir sıra görüşlər keçirilib. Belə ki, ABŞ-ın cari siyasi, iqtisadi və sosial məsələlərinin daha çox toxunulduğu 3 həftəlik səfər müddətində iştirakçılar Vaşinqton, Filadelfiya, Nyu-York şəhərlərində olub, Birləşmiş Millətlər Təşkilatı, Senat və Konqres, Ali Məhkəmə, Dövlət Departamenti, müstəqil araşdırma mərkəzləri, qeyri-hökumət təşkilatları nümayəndələri ilə müxtəlif səviyyəli görüşlər keçiriblər. Görüşlər zamanı qarşıdan gələn seçkilər, ABŞ-ın daxili və xarici siyasətinin əsas istiqamətləri, Avropa-ABŞ münasibətləri, enerji təhlükəsizliyi və digər mövzular ətrafında fikir mübadiləsi aparılıb. Vaşinqtonda olduğu müddətdə Rauf Mərdiyev eyni zamanda Azərbaycanın ABŞ-da fövqəladə və səlahiyyətli səfiri Elin Süleymanovla və Azərbaycan icmasının nümayəndələri ilə görüşüb. Məlumatda bildirilib ki, IVLP ABŞ Dövlət Departamenti tərəfindən 1940-cı ildən başlayaraq həyata keçirilən peşəkar mübadilə proqramıdır. Proqramın məqsədi digər ölkələrin liderlərinin ABŞ-la tanışlığı və tərəflər arasında qarşılıqlı anlaşmanın əldə olunmasıdır. İyul ayının 8-nə kimi davam edəcək səfərdə Avropanın müxtəlif ölkələrindən millət vəkilləri, dövlət nümayəndələri, jurnalist, hüquqşünas, araşdırmaçı, siyasi və ictimai xadimlər iştirak edirlər.

**S.QARAYEVA**

## MHŞT–nin Azərbaycanda tətbiqi üzrə ilk illik hesabat dərc edilib

Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün (MHŞT) Azərbaycanda tətbiqi üzrə 2011-ci ili əhatə edən ilk hesabat dərc olunub. Dövlət Neft Fondundan verilən məlumata görə, təqdim olunmuş yeni hesabat MHŞT üzrə 2011-ci ildə Parisdə keçirilmiş V Qlobal Konfransda qəbul edilmiş MHŞT üzrə yeni qaydalara əsasən dərc edilib. Azərbaycanda belə bir sənədin ilk dəfə tərtib edildiyi nəzərə alınaraq, 2011-ci ildə görülmüş işlərlə yanaşı hesabatda MHŞT-nin fəlsəfəsi, Azərbaycanda tətbiqi tarixi, Çoxtərəfli Qrupun fəaliyyəti, açıqlanmış 15 MHŞT hesabatının təhlili və əldə edilmiş nailiyyətlər barədə məlumatlar əks olunub. Hesabatda MHŞT iştirakçılarının-Hökumət Komissiyası, Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası və Şirkətlər Qrupunun nümayəndələrinin rəyləri də verilib.

Qeyd edək ki, MHŞT xüsusi çoxtərəfli və şirkətlər, hökumətlər, sərmayəçilər və vətəndaş cəmiyyəti təşkilatları tərəfindən dəstəklənən könüllü təşəbbüsdür. MHŞT neft, qaz və mədən hasilatı sahəsində şəffaflığın təmin edilməsində qlobal standartdır. Azərbaycan MHŞT prosesinə 2003-cü ildə qoşulub. Azərbaycan MHŞT-nin qiymətləndirilməsi prosesindən keçən və MHŞT-nin tamhüquqlu üzvü statusunu alan ilk MHŞT ölkəsidir. MHŞT prinsip və meyarlarına tam cavab verən ölkə olması və MHŞT-nin tətbiqi sahəsində əldə etdiyi nailiyyətlərə görə Azərbaycana "2009-cu il MHŞT mükafatı" təqdim edilib.

**BƏXTİYAR**

# "Bank Standard"ın "İpoteka" filialı yeni ünvana köçüb




Filialın yeni binası Akademik Feyzulla Qasımzadə küç., 9 ünvanında yerləşir.

2008-ci ilin əvvəlində vahid ipoteka mərkəzi kimi fəaliyyətə başlayan "Bank Standard"ın "İpoteka" filialı Azərbaycanda ipoteka üzrə ixtisaslaşdırılmış ilk filialdır. Bu filialda ümumi bank işi və eləcə də ipoteka kreditləşməsi sahəsində geniş bilik və təcrübəyə malik mütəxəssislər və daşınmaz əmlak üzrə məsləhətçilər çalışırlar.

Qeyd edək ki, "İpoteka" filialı ixtisaslaşmış ipoteka xidmətlərilə yanaşı bütün digər bank xidmətlərinin göstərilməsini də təmin edir. Bura fiziki şəxslərə istehlak kreditlərinin verilməsi, əmanətlərin qəbulu, depozit seyflərinin icarəsi, plastik kartların satışı, təcili pul köçürmələri, valyuta mübadiləsi, kommunal xidmətlərin ödənilməsi kimi müxtəlif xidmətlər daxildir.

Filialın yeni inzibati bina ilə təmin edilməsi əhaliyə göstərilən xidmət keyfiyyətinin artırılması və eləcə də bankın müştərilərinə daha geniş şəraitdə xidmət olunması məqdəsi daşıyır.

Hazırda "Bank Standard"ın 15 filal və şöbələri fəaliyyət göstərir. Onlardan Baş ofis, 11 filal və 1 şöbə olmaqla 12-i paytaxtda, qalan 3 filialı isə Gəncə, Quba və Lənkəran şəhərlərində yerləşir.

# İlham Əliyev: "London Olimpiadası idmanımızın növbəti təntənəsi olacaq"

Dünən Heydər Əliyev Mərkəzində Azərbaycan nümayəndə heyətinin 30-cu Yay Olimpiya və Paralimpiya Oyunlarında iştirak etmək üçün Londona yola salınma mərasimi keçirilib.

Tədbirdə Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, idman ictimaiyyətinin nümayəndələri, Londona yollanacaq idmançılar və məşqçilər iştirak ediblər.

Mərasimə təşrif buyuran Azərbaycan Prezidenti İlham Əliyev çıxışında idmançılarımıza uğurlar arzulayıb, onların ölkəmizi layiqincə təmsil edəcəklərinə inandığını bildirib.

Ölkədə idmanın inkişafı istiqamətində konkret addımlar atıldığını bildirən prezident, idmana diqqətin yüksək səviyyədə olduğunu söyləyib. Dövlət başçısı bunun gənc nəslin idmana marağını artırdığını qeyd edib.

İlham Əliyev deyib ki, idman hər bir insan üçün gündəlik həyat tərzi olmalıdır:

"Hər bir vətəndaşa idmanla məşğul olmağı tövsiyə edirəm. İdmanın çox böyük xeyri var — idman insanı fiziki cəhətdən möhkəm edir. İdmançılar, xüsusilə də Azərbaycan idmançıları böyük mənəvi dəyərlərə malikdirlər və təsadüfi deyil ki, cəmiyyətdə idmançılara çox böyük hörmət var. İdmançılarımız bu hörməti həm öz qələbələri ilə, həm də cəmiyyətdə olan fəaliyyətləri ilə qazanıblar. Azərbaycan nisbətən gənc müstəqil dövlətdir, bizim müstəqilliyimizin cəmi 20 yaşı var. Ancaq bütün sahələrdə olduğu kimi, idman sahəsində də böyük uğurlar qazana bilmişik və bu gün dünyada Azərbaycan idman dövləti kimi tanınır, beynəlxalq idman ailəsində layiqli yer tuta bilmişik".

Prezident ölkədə idman siyasətinin çox uğurlu olduğunu, digər ölkələrin bu təcrübədən nümunə götürdüyünü vurğulayıb. Hər il yüzlərlə medalın qazanıldığını bildirən dövlət başçısının sözlərinə görə, ölkədə 34 olimpiya kompleksi tikilib, 8-nin inşası davam etdirilir: "Əminəm ki, hər bir rayonda olimpiya kompleksi tikiləcək. Bu siyasəti 12 il əvvəl başlamışıq. Çox şadam ki, ölkədə idmanın inkişaf dinamikası yüksəkdir".

Daha sonra prezident idmançılardan böyük əksəriyyətinin olimpiadada ilk dəfə iştirak etdiyini nəzərə çatdırıb: "Bu, ardıcıl inkişafdan xəbər verir. Azərbaycan idmançıları hər ölkənin idmançısı üçün ciddi rəqib sayılır. İdman ölkəsi adını qazanmaq heç də asan məsələ deyil. Bəzi ölkələrdə idman qurumları arasında ciddi ziddiyyətlər var, bizdə isə bu qurumlar vahid komanda şəklində fəaliyyət göstərir. İldən-ilə uğurlarımız artır. Bəzi ölkələrdən fərqli olaraq, biz olimpiya və qeyri-olimpiya növləri arasında fərq qoymuruq. Federasiya rəhbərləri öz vəzifələrini uğurla yerinə yetirirlər. Hər bir federasiyanın idmançıları uğurlu nəticə qazanmalıdır və bunun üçün də çalışırlar".

Dövlət başçısı yeni tikililər barədə də danışıb: "Son illər ərzində bir neçə böyük idman-konsert zalları tikilib, onların içərisində ən böyük və möhtəşəmi "Bakı Kristal Zalı"dır. Bu zalda istənilən idman yarışları keçirilə bilər. Tofiq Bəhramov adına Respublika stadionunda aparılan yenidənqurma işlərindən sonra bu stadion dünya standartlarına cavab verəcək. Yaxın günlərdə stadionun təmirdən sonra açılışını qeyd edəcəyik. Keçən il Bakıda yeni olimpiya stadionunun təməli qoyulmuşdu, hazırda texniki-iqtisadi əsaslandırılma işləri aparılır, mühəndislik layihəsi hazırlanır və ümid edirəm ki, bu il olimpiya stadionunun tikintisinə başlanılacaq və bu, bölgənin ən böyük və ən müasir olimpiya stadionu olacaq. Yaxın vaxtlarda üzgüçülük və gimnastika komplekslərinin də tikintisinə başlanacaq".

Prezident budəfəki London Yay Olimpiya oyunlarında 53 idmançının iştirak edəcəyini, öncəki olimpiadalarla müqayisədə idmançıların sayının bu dəfə çox olduğunu diqqətə çatdırıb. O, bu Olimpiadada medal artımının davam edəcəyinə ümidvar olduğunu vurğulayıb.

Prezident idmançıların məişət məsələlərinin həlli istiqamətində addımların atıldığını da söyləyib.

Ölkə başçısı bundan sonra da idmançılara diqqət göstərəcəyini bildirib: "Əminəm ki, London Olimpiadası Azərbaycan idmanının növbəti təntənəsi olacaq".

Sonda London Olimpiadasında ölkəmizi təmsil edəcək idmançılar Azərbaycan bayrağını öpüblər və Prezident İlham Əliyevlə xatirə şəkli çəkdiriblər.

**Anar CƏFƏRSOY**

# Zahid Oruc: "Məni partiyadan çıxarmaq istəyirlərsə, buyursunlar"

## "FƏZAİL AĞAMALININ ƏLEYHİNƏ DANIŞMAQ NİYYƏTİNDƏ DEYİLDİM"

Milli Məclisin üzvü Zahid Oruc bir neçə gün öncə İctimai Televiziyada yayımlanan verilişdə səsləndirdiyi fikirlərlə bağlı Modern.az-a açıqlama verib. Millət vəkili çıxışında Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı ilə telekanalın baş direktoru İsmayıl Ömərov arasında yaşanan məlum hadisələrlə bağlı fikir söyləmədiyini bildirib. Z.Oruc haqqında mətbuatda yazılanları doğru hesab etmədiyini vurğulayıb: "İctimai Televiziyada yayımlanan verilişdə hansı mövqenin olduğu mənə bəlli deyildi. Mən sadəcə öz düşüncələrimi azad olaraq bildirmişdim. Biz həmin verilişdə İctimai Televiziya ilə bağlı fikirlərimizi bildirmişdik. Qeyd edim ki, mənim oradakı çıxışım, söylədiyim fikirlər partiya rəhbərliyinin mövqeyinə münasibət deyildi. Fəzail bəyin əleyhinə fikir söyləmək niyyətində olmamışam. Sadəcə özəl düşüncələrimi bölüşmüşəm, kiminsə fikirlərinə münasibət bildirməmişəm".

Deputat daha sonra onun Ana Vətən Partiyasınnın sıralarından uzaqlaşdırılıacağı haqda yayılan xəbərlərə münasibət bildirib. Z.Oruc məsələdən xəbərsiz olduğunu qeyd edərək, onun partiya ilə bağlı xüsusi planlarının olmadığını bildirib: "Bu haqda mənim heç bir məlumatım yoxdur. Partiyadan çıxarılmağıma heç bir əsas da görümürəm. İTV-də çıxışımdan sonra partiya sədri ilə danışmışdıq. Xüsusi olaraq narazılıq yox idi. Hər hansı fikrimə görə, partiyadan çıxarılmamdan söhbət gedirsə, buyursunlar. Mənim üçün heç bir problem yoxdur. Bu zamana kimi partiya sıralarında fəal iştirak etmişəm. Hesab edirəm ki, özəl partiya üzvlüyündən daha çox önəmli olan məsələ dövlətimizə sədaqətlə xidmət etməkdir. İstənilən insanın yolu açıqdır. Hər kəs öz qərarını fərdi olaraq verə bilər. Mən hər zaman bildirmişəm ki, partiya daxilində mənim xüsusi planlarım olmayıb. Harada olmağımızdan asılı olmayaraq, üzərimizə düşən vəzifələri yerinə yetirməliyik.

Mən səmimi olaraq qeyd edim ki, lider olaraq tanıdığım qüvvə yalnız ölkə prezidenti İlham Əliyevdir. Bu zamana kimi də fəaliyyətim boyu bu ideyaya xidmət etməyə çalışmışam. Bu konteksdə hansısa partiyada olmaq o qədər də önəmli deyil".

Xatırladaq ki, bir neçə gün bundan öncə İctimai Televiziyanın rəhbəri İsmayıl Ömərovla millət vəkili Fəzail Ağamalı arasında qalmaqal yaranıb. Belə ki, deputat Milli Məclisdə çıxışı zamanı İ.Ömərov haqda fikir söyləyərək onu telekanalda diktatorluq qurmaqda ittiham edib. İ.Ömərov isə ona sərt cavab verib.

# Həvəsləndirmə tədbirləri tətbiq edilən vakant müəllim yerləri müəyyənləşdirilib

Təhsil Nazirliyi 2012-2013-cü tədris ilində kənd məktəblərində həvəsləndirmə tədbirləri tətbiq edilən vakant müəllim yerlərinin sayını müəyyənləşdirib. Təhsil Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, bu il 800 nəfərin kənd məktəblərində həvəsləndirmə tədbirləri tətbiq olunan yerlər üzrə işə qəbulu nəzərdə tutulur. Bu il həvəsləndirmə tədbirləri tətbiq olunmaqla 411 nəfər rayon mərkəzindən 20 km-dək məsafədə yerləşən kənd məktəblərinə, 389 nəfər isə 20 km-dən çox məsafədə yerləşən məktəblərə işə qəbul oluna bilərlər. Həvəsləndirmə tədbirlərinin tətbiq olunduğu vakant yerlər üzrə ali və orta ixtisas təhsili müəssisələrini pedaqoji ixtisaslar üzrə bitirmiş yaşı 35-dək olan gənc mütəxəssislər işə qəbul olunmalıdırlar. Nazirlər Kabinetinin qərarına uyğun olaraq, belə yerlərdə işləmək istəyənlərə bır sıra güzəştlər verilir. Rayon mərkəzindən 20 km-dək məsafədə yerləşən kənd məktəbində əmək fəaliyyətinə başlayan və 3 il müddətində bu fəaliyyəti həmin məktəbdə davam etdirən gənc müstəxəssislərə yol xərci, əmlakın daşınması üçün nəqliyyat xərci, ilkin yaşayış şəraitinin yaradılması məqsədilə əməkhaqqının 2 misli həcmində birdəfəlik yardım verilir. Onlara 3 il müddətində kommunal xidmətlərini ödəmək üçün hər ay 40 manat məbləğində kompensasiya verilir, yaşayış sahələrinə ehtiyacları ödənilir, torpaq sahələri ayrılır, ?ipoteka kreditləri verilir. Rayon mərkəzindən 20 km-dən artıq məsafədə yerləşən kənd məktəbində əmək fəaliyyətinə başlayan və 3 il müddətində bu fəaliyyəti həmin məktəbdə davam etdirən gənc mütəxəssislərə isə sadalanan həvəsləndirmə tədbirləri ilə yanaşı, hər ay əməkhaqqına 70 manat əlavə olunur. Müəllimlərin işə qəbulu üçün keçirilən imtahanda test tapşırıqlarının 80 və daha yüksək faizinə, yəni 28 və daha çoxuna düzgün cavab vermiş namizədlər keçid balını toplamış hesab olunurlar. Həvəsləndirmə tədbirləri tətbiq olunan vakant yerlərə namizədlər üçün test tapşırıqlarının 60 faizinə, yəni 21 və daha çoxuna düzgün cavab keçid balı hesab olunur.

**S.QARAYEVA**

# ARDNŞ-də Argentinanın xarici işlər və etiqad naziri ilə görüş keçirilib



Dünən ARDNŞ-nin Baş ofisində Şirkət rəhbərliyi ilə Argentina Respublikasının nümayəndə heyəti arasında görüş keçirilib. Şirkətdən verilən məlumata görə, ARDNŞ-nin Sərmayələr və marketinq üzrə vitse-prezidenti Elşad Nəsirov Azərbaycanın hazırda sürətlə inkişaf edən ölkə olduğunu və bu inkişafda neft-qaz sənayesinin mühüm rol oynadığını deyib.

Öz növbəsində Argentina Respublikasının xarici işlər və etiqad naziri Hektor Timerman güclü iqtisadi potensiala malik Azərbaycanla təmsil etdiyi ölkə arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyini söyləyib, Azərbaycanın qədim neft diyarı olduğunu bildiklərini və neft sənayesinin flaqmanı olan Dövlət Neft Şirkətinə gəlməkdən məmnunluğunu ifadə edib.

Ölkələr arasında münasibətlərin daha da genişlənməsi və dərinləşməsində qarşılıqlı səfərlərin mühüm rol oynadığını qeyd edən ARDNŞ-nin vitse-prezidenti E.Nəsirov müsəlman Şərqində ilk demokratk respublikanın Azərbaycanda qurulduğunu vurğulayaraq, ölkəmizin demokratik ənənələrinin bu gün də davam və inkişaf etdirildiyini qeyd edib. Azərbaycanda neftçıxarma işinin zəngin tarixə malik olduğunu, Bakı neftçilərinin dünya neft sənayesinə çoxsaylı töhfələr verdiklərini, Xəzər dənizinin müxtəlif milli sektorlarında böyük neft-qaz yataqları kəşf etdiklərini diqqətə çatdıran E. Nəsirov ötən əsrin əvvəllərində xarici sərmayədarların buradakı fəaliyyəti haqda da ətraflı söz açıb. Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra həyata keçirilən yeni neft strategiyası üzərində xüsusi dayanan E. Nəsirov bildirib ki, qısa müddətdə ölkəmizin təsdiq olunmuş neft-qaz ehtiyatları yüksək səviyyəyə çatdırılıb, etibarlı və şaxələndirilmiş ixrac neft-qaz kəmərləri sistemi yaradılıb. Bu gün Azərbaycanda həyata keçirilən qlobal və regional əhəmiyyətli neft-qaz layihələri çərçivəsində əldə olunmuş nailliyyətlər, xüsusilə, Avropanın enerji təhlükəsizliyi baxımından Azərbaycanın önəmli rol oynaması qeyd edilib, qonaqları maraqlandıran məsələlərə aydınlıq gətirilib.

Görüşün sonunda qonaqlara Azərbaycanın neft sənayesi tarixindən bəhs edən kitablar təqdim olunub.

**BƏXTİYAR**

# Təhsil Nazirliyində Akkreditasiya Şurasının növbəti iclası olub

Dünən Təhsil Nazirliyində Akkreditasiya Şurasının növbəti iclası keçirilib. İclasda Azərbaycan Dövlət Aqrar Universiteti, Ağdaş Dövlət Humanitar Kolleci, Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci və Bakı Humanitar Kollecinin akkreditasiyasının nəticələri müzakirə olunub. İclasda Azərbaycan Dövlət Aqrar Universitetində aparılmış akkreditasiyanın nəticələri haqqında Təhsil Nazirliyinin Akkreditasiya şöbəsinin müdiri Həbib Zərbəliyev məlumat verib. Şöbə müdiri bu təhsil ocağının ümumi fəaliyyətindən, təhsil proqramları üzrə hazırlığın məzmunundan, kadr təminatından bəhs edib. H.Zərbəliyev qeyd olunan təhsil müəssisəsi üzrə yaradılmış Akkreditasiya Komissiyasının universitetdə tədrisin təşkili vəziyyətini ətraflı təhlil etdiyini bildirib və komissiyanın gəldiyi qənaətlə şura üzvlərini tanış edib.

Ağdaş Dövlət Humanitar Kolleci üzrə Akkreditasiya Komissiyasının sədri, Bakı Texniki Kollecinin tədris işləri üzrə direktor müavini Fərrux Məmmədov təhsil müəssisəsinin fəaliyyətinin statusuna uyğunluğundan söz açaraq son 5 ildə məzunların ümumi göstəriciləri, aparılmış test sorğusunun nəticələri barədə məlumatları təqdim edib. O, kollecin fəaliyyətinin daha səmərəli təşkili üçün Akkreditasiya Komissiyanın təklif və tövsiyələrini nəzərə çatdırıb.

Daha sonra Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci üzrə aparılmış araşdırma barədə çıxış etmək üçün söz Akkreditasiya Komissiyanın sədri, Bakı Sosial İqtisad Kollecinin tədris hissə müdiri İbad Əsədova verilib. İ.Əsədov kollecdə mütəxəssis hazırlığının keyfiyyəti və digər göstəricilər üzrə komissiyanın gəldiyi qənaəti iştirakçıların diqqətinə çatdırıb.

Bakı Humanitar Kolleci üzrə Akkreditasiya Komissiyasının sədri, Bakı Musiqi Akademiyasının Musiqi tarixi kafedrasının dosenti Xatirə Həsənzadə bu təhsil müəssisəsinin fəaliyyət istiqamətlərindən, tədris şəraitindən, maddi-texniki bazasından bəhs edib, həmçinin kollecin pedaqoji heyətinin fəaliyyəti haqqında məlumat verib.

Təhsil naziri Misir Mərdanov təhsil müəssisələrinin akkreditasiyasının keçirilməsinin ölkəmizdə təhsilin keyfiyyətinin daha da artırılmasına xidmət etdiyini vurğulayıb və müvafiq məsələlərlə bağlı fikirlərini bildirib.

Sonra qeyd olunan təhsil müəssisələri üzrə akkreditasiyanın nəticələrinə dair şura üzvlərini maraqlandıran suallar cavablandırılıb, bir sıra rəy və təkliflər səsləndirilib.

Akkreditasiya Şurasının iclasında müəyyənləşdirilmiş meyarlar üzrə tələblərə uyğunluğu nəzərə alınaraq, Azərbaycan Dövlət Aqrar Universitetinin fəaliyyəti "yaxşı", digər üç kollecin fəaliyyəti isə "kafi" qiymətləndirilib və bu təhsil müəssisələrinin müvafiq ixtisaslarının akkreditə olunması barədə qərar qəbul edilib.

**S.QARAYEVA**

# Ombudsman əsisatın yaradılmasının 10 illiyi müzakirə olunub

(Əvvəli 2-ci səh.)

Əhalinin müxtəlif təbəqələri, o cümlədən ahıllar, qadınlar, uşaqlar, gənclər, əlillər, qaçqın və məcburi köçkünlər, hərbi qulluqçular, məhkumlar, milli azlıqlar, miqrantlar və b. əhatə olunmaqla silsilə maarifləndirmə tədbirləri keçirilmiş, nəticədə ölkədə aparılan hüquqi islahatlar, eyni zamanda əsas insan hüquq və azadlıqları barəsində əhali daha geniş məlumatlandırılmışdır.

Vurğulanmışdır ki, dövlət qurumları ilə işgüzar əməkdaşlıq əlaqələri qurulmuş və inkişaf etdirilmişdir. Ombudsman təsisatı vətəndaşla dövlət arasında vasitəçilik missiyasını həyata keçirən bir qurum kimi özünü təsdiq etmiş, bu hər bir fərd, ümumilikdə isə cəmiyyət tərəfindən məhkəmədənkənar səmərəli hüquq müdafiə mexanizmi kimi qəbul olunmuşdur. İstər dövlət qurumlarının və vəzifəli şəxslərin, istərsə də cəmiyyətin ayrı-ayrı fərdlərinin, o cümlədən hüququ pozulmuş şəxslərin insan hüquqları məfhumuna yanaşma tərzi dəyişmişdir. Müvəkkilin tövsiyəsi ilə ilk dəfə olaraq bir çox dövlət qurumlarının strukturunda insan hüquqları bölməsi yaradılmışdır.

İnsan hüquqlarının müdafiəsi baxımından əhəmiyyətli olan müxtəlif Dövlət Proqramlarının, Milli Fəaliyyət Planlarının, Strategiyaların qəbul olunması təklif olunmuş, həmin sənədlərin hazırlanması prosesinə və həyata keçirilməsinə dəstək verilmişdir.

Belə ki, Müvəkkil ölkə Prezidenti cənab İlham Əliyevin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın (MFP) 2006-cı ildən uğurla həyata keçirilən İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planının məntiqi davamı olaraq, yeni prioritetlərə uyğun konkret istiqamətlər, tədbirlər müəyyən etdiyini, hazırda bu proqramın uğurla icra olunduğunu, adı çəkilən sənədin təbliği məqsədilə ətraf şəhər və rayonlar da cəlb olunmaqla Gəncədə, Şəkidə, Bərdədə, Cəlilabadda, Qubada və Bakıda regional ictimai dinləmələr keçirildiyini diqqətə çatdırmışdır.

Ombudsmanın təklifi nəzərə alınmaqla Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə 18 iyun tarixi Azərbaycanda insan hüquqları günü kimi təsdiq olunmuş və buna uyğun olaraq hər il Müvəkkil tərəfindən 18 may — 18 iyun tarixi "İnsan hüquqları aylığı" elan olunur və aylıq çərçivəsində həm dövlət qurumları, həm də vətəndaş cəmiyyəti institutları tərəfindən silsilə tədbirlər həyata keçirilir.

Yığıncaqda çıxış edənlər bildirmişlər ki, Ombudsman fəaliyyəti dövründə münasibətləri yalnız dövlət orqanları ilə deyil, QHT-lər, ictimaiyyətlə, vətəndaş cəmiyyəti ilə səmərəli əməkdaşlıq şəraitində qurmağa xüsusi diqqət yetirmiş və bu əməkdaşlığı daha faydalı və məqsədyönlü etmək, müntəzəm davam etdirmək üçün insan hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşan dövlət orqanları təcrübəsində ilk dəfə olaraq hələ 2003-cü ildə Ombudsmanın yanında müstəqil Ekspertlər Şurası yaradılmışdır.

O cümlədən artıq on ildir ki fəaliyyət göstərən Uşaq və gənclərin sülh şəbəkəsinin və ali təhsil müəssisələrini əhatə edən hüquq klinikaları şəbəkəsinin fəaliyyəti, əhalinin müxtəlif təbəqələrinin hüquqlarının daha etibarlı təmin edilməsi məqsədilə uşaq, qadın, ahıl, əlil, qaçqın və məcburi köçkünlər, məhkumlar, hərbi qulluqçular və digər sahələr üzrə ixtisaslaşmış müşavirlərin fəaliyyəti də qeyd edilməlidir.

Ölkəmizdə ilk dəfə olaraq bu təsisat çərçivəsində insan hüquqlarının müasir tələblər səviyyəsində müdafiəsi sahəsində yeni peşəkar hüquqşünaslar nəsli yetişmiş, insan hüquqlarının müdafiəsi məktəbi formalaşmışdır, eyni zamanda Müvəkkil tərəfindən insan hüquqları sahəsində kadrların hazırlanmasına da diqqət yetirilir.

Qeyd olunmuşdur ki, Müvəkkil təsisatının əməkdaşları bir sıra beynəlxalq qurumlarda, məsələn BMT-də, Avropa Şurasında aidiyyəti bölmələrdə (işgəncələr əleyhinə milli preventiv mexanizmlərin əlaqələndirilməsi üzrə bölmədə, həmçinin milli insan hüquqları təsisatlarının işinin əlaqələndirilməsi üzrə bölmədə) əlaqələndirici nümayəndələr kimi fəaliyyət göstərirlər.

Müvəkkil beynəlxalq əlaqələr sahəsində də səmərəli fəaliyyət göstərir. Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutları, Asiya Ombudsmanlar Assosiasiyasına üzv olan Azərbaycan Ombudsman təsisatı universal və regional beynəlxalq təşkilatlarla əməkdaşlıq, insan hüquqlarının təmin olunması sahəsində ixtisaslaşdırılmış beynəlxalq təşkilatlarla birgə layihələrin həyata keçirilməsi, Azərbaycan Respublikasının universal və regional səviyyədə fəaliyyət göstərən saziş qurumlarına təqdim olunan hesabatların hazırlanmasında iştirak, əlavə və alternativ hesabatların hazırlanması və aidiyyəti üzrə təqdim olunması, bir sıra nüfuzlu təşkilatlara – və s. üzvlüyü aid etmək olar.

Ombudsman Aparatının kollektivi ötən müddət ərzində görülmüş işləri təhlil etmiş, müzakirələr aparmış, insan hüquqları sahəsində gələcək fəaliyyətin əsas istiqamətlərini müəyyənləşdirmişdir.

E.Süleymanova bildirmişdir ki, Azərbaycan Ombudsman təsisatının 10 il müddətində əməli hüquq-müdafiə fəaliyyəti göstərməklə, vətəndaşların real problemləri, çətinlikləri ilə yaxından tanış olmuş, bunların yaranması səbəblərini araşdırmış və həlli istiqamətində müvafiq təkliflər irəli sürmüş və müvafiq tədbirlər həyata keçirmişdir. Qeyd olunmuşdur ki, Azərbaycan Ombudsmanı gələcəkdə də insan hüquqlarının daha səmərəli həyata keçirilməsi baxımından bir sıra mühüm istiqamətlərdə fəaliyyətinin daha da təkmilləşdirəcəkdir. Müvəkkil qarşıya qoyulan məqsədlərə nail olmaq üçün Aparatın kollektivini insan hüquq və azadlıqlarının müdafiəsi və təmini, dövlətçiliyimizin daha da möhkəmlənməsi, hüquqi dövlət və vətəndaş cəmiyyətinin inkişafı və Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da yüksəlməsi üçün birgə səylər göstərməyə çağırmışdır.

Bu günlərdə Azərbaycanın ilk Ombudsmanının seçilməsinin 10 illiyi münasibətilə E.Süleymanovanın ünvanına çoxsaylı təbrik məktubları daxil olmaqdadır. Xarici həmkarlarının, insan hüquqları sahəsində tanınmış alimlərin və mütəxəssislərin, habelə ölkəmizin dövlət qurumlarının, QHT-lərin, vətəndaş cəmiyyəti nümayəndələrinin, beynəlxalq təşkilatların təmsilçilərinin təbriklərində insan hüquqlarının müdafiəsi və təmini sahəsində Ombudsmanın fəaliyyətinə yüksək qiymət verilmiş, insan hüquqlarının bərpası üzrə gördüyü işlər, innovativ yanaşmaları, təşəbbüsləri təqdir olunmuş, dinamik, çevik fəaliyyəti yüksək dəyərləndirilmiş, bu yaxınlarda uğurla başa çatmış ombudsmanların X Bakı Beynəlxalq konfransının yüksək səviyyədə təşkil olunduğu vurğulanmışdır.

# "Azərsu" smart-kart tipli sayğacların quraşdırılmasına başlayıb



"Azərsu" Açıq Səhmdar Cəmiyyəti (ASC) istehklakçılara göstərilən xidmətlərin keyfiyyətinin artırılması, su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə görə ödəniş səviyyəsinin yüksəldilməsi məqsədi ilə tədbirləri davam etdirir. ASC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, satılan suyun uçotunun dəqiq aparılması, ödəniş səviyyəsinin yüksəldilməsi, debitor borc probleminin aradan qaldırılması və su itkilərinin qarşısının alınması məqsədilə ön ödənişli (smart-kart tipli) elektron su sayğaclarının quraşdırılmasına başlanılıb.

Smart-kart tipli sayğacların quraşdırılmasına ilkin olaraq Bakı, Abşeron və Sumqayıt Sukanal İdarələrinin xidmət göstərdiyi ərazilərdə qeyri-əhali qrupu abunəçilərindən başlanılıb. İlkin mərhələdə paytaxtın Nəsimi, Yasamal, Binəqədi, Nərimanov rayonlarında müxtəlif diametrli su xətlərinə 1000-dən çox ön ödənişli sayğac quraşdırılıb. Növbəti mərhələdə, əhali qrupu üzrə su sərfiyyatı böyük olan ərazilərdə, xüsusilə həyət evlərində, smart-kart tipli sayğaclar quraşdırılacaq.

Türkiyə istehsalı olan həmin sayğacların tətbiqi ilə ödəniş səviyyəsini 100 faizə çatdırmaq mümkün olacaq. İndi istismarda olan mexaniki sayğaclardan fərqli olaraq yeni sayğaclara müdaxilə etmək qeyri-mümkündür və belə hallar baş verərsə su təchizatı avtomatik dayanacaq.

Su təchizatı və tullantı sularının axıdılması xidmətlərindən istifadə edən əhali qrupu istehlakçılarına ön ödənişli sayğacların quraşdırılması "Azərsu" ASC-nin müvafiq xidmət sahələri tərəfindən dövlət hesabına həyata keçirilir və bunlara görə istehlakçıdan heç bir ödəniş tələb olunmur. Qeyri-əhali qrupu abunəçiləri üçün sayğacların quraşdırılması isə "Azərsu" ASC-nin müvafiq xidmət sahələri tərəfindən istehlakçının vəsaiti hesabına həyata keçirilir.

Qeyd edək ki, iyunun 20-də Prezident İlham Əliyevin sədrliyi ilə "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda ölkə başçısı kommunal sektorda smart-kart tipli sayğacların quraşdırılmasının uğurlu nəticələr verdiyini xatırladaraq, su təchizatı və kanalizasiya sektorunda smart-kart tipli su sayğaclarının quraşdırılmasının sürətləndirilməsi barədə tapşırıqlar verib.

**BƏXTİYAR**

# *Musa Quliyev:* "Yaxın gələcəkdə çinlilərin və hindistanlıların ölkəmizə axını güclənə bilər"

**Müsahibimiz Milli Məclisin Sosial siyasət komitəsinin sədr müavini Musa Quliyevdir.**

***—Musa müəllim, hazırda Azərbaycanda demoqrafik durum nə yerdədir? Burada təhlükəli məqamlar yoxdur ki?***

— Bu gün Azərbaycanda bu sahədə durum çox yaxşıdır. Həm Avropa ölkələri ilə , həm bizi əhatə edən qonşu ölkələrlə , həm də ümumiyyətlə, MDB məkanı ilə müqayisədə də Azərbaycanın demoqrafik durumu çox normaldır. Birinci növbədə Azərbaycan ildən-ilə gəncləşən bir ölkədir. Azərbaycanda yeni doğulan uşaqların sayı ölənlərin sayını iki dəfə üstələyir və bu onu göstərir ki, Azərbaycanda yaxın 20-30 il ərzində əmək fəaliyyəti , əmək qabiliyyətli əhalinin , pensiyaçı və işləyən əhalinin sayı ilə bağlı heç bir problem olmayacaq. Bu, çox yaxşı bir haldır, yaxşı bir göstəricidir. Amma eyni zamanda, burada bir narahatedici faktor da var...

***—Söhbət nədən,hansı faktordan gedir?***

— Heç şübhəsiz ki, burada süni surətdə oğlan uşaqların sayının artması faktorundan söhbət gedir. Bu da müasir tibb texnologiyasının insan həyatına tətbiqinin mühüm nəticələrindən biridir və məlumdur ki, Azərbaycan Şərq mentalitetini özündə daşıyan, əks etdirən bir millətin yaşadığı müsəlman ölkədir. Bura müsəlman, islam mentalitetini daşıyan millətin yaşadığı bir ölkədir və keçmiş ənənədən qalan bir faktor var, yəni, hamı istəyir ki, ailəsində doğulan uşaqların sayı daha çox olsun.

Baxmayaraq ki, urbanizasiya prosesinin bizim millətə də təsirinin nəticəsində artıq ailələr çoxuşaqlı olmağa o qədər meyl göstərmirlər, amma ailədə bir və ya iki uşaq olarsa, onun da oğlan uşağı doğulmasına meyl göstərənlərin sayı daha çoxdur. Bu mənada biz bir qədər problemlərlə üzləşirik. Xüsusən son bir neçə ildə doğulan uşaqların arasında oğlanların faizinin ildən-ilə artması çox ciddi narahatçılıq doğuran bir məsələdir.

Bununla bağlı mən neçə ildir məsələ qaldırmışam. Milli Məclisdə də zaman-zaman bu yöndə ictimai müzakirələr və Səhiyyə Nazirliyinin də mövqeyi bundan ibarətdir ki, bu yöndə müəyyən ölçülər götürülməlidir. Gərək ən azı bütün Qərb ölkələrində olduğu kimi, o cümlədən elə Şərq ölkələrinin çoxunda bu var , uşağın cinsinin ultrasəslə müayinə olunması məsələsinə rəsmi qadağa qoyulmalıdır. Sadəcə, o halda uşağın cinsinin ultrasəslə müayinəsindən sonra direktiv abort deyilən abortlara, yəni, cinsə görə abortlara icazə verilməlidir ki, o yalnız uşağın, yaxud ananın həyatına təhlükə olduğu və ya uşağın xəstə doğula biləcəyi halda buna gedilsin. Qalan hallarda isə düşünürəm ki, həm uşağın cinsinə görə müayinə aparılması, həm direktiv abortun aparılması istər mənəviyyata , istər tibbin qanunlarına , istərsə də ümumiyyətlə, insan hüquqlarına zidd bir məsələdir.

Çünki 3 aylığında insanın artıq bütün orqanları formalaşır və 3 aylığına qədər də ultrasəs müayinəsində heç bir cinsiyyət müəyyən etmək mümkün deyil. Yalnız 3 aydan sonra bunu təyin etmək mümkündür. Bu da elə birbaşa insan hüququnun pozulmasıdır. Yəni, insanın ən ali hüququ olan yaşamaq hüququnun əlindən alınmasıdır. Bununla da bağlı müzakirələr aparılır. Qeyd edim ki, bu yöndə də qanunun qəbul olunması asandır, amma onun həyata keçirilməsi nə cür tətbiq olunacaq, onun mexanizmləri düşünüb tapılmalıdır. Bir də kifayət qədər insanlarımızda maarifləndirmə işi aparılmalıdır.



Çünki bəzən görürsən ki, heç bir övladı olmayan, yaxud , birinci övladında qız və ya oğlan doğulmasına müəyyən maraq göstərən valideynlər var ki, bu da nə insan mədəniyyətinə , nə tibbi dientologiyaya uyğun məsələdir. Amma bütövlükdə götürəndə bizdə demoqrafik proseslər çox müsbət istiqamətdə gedir. Cənab prezident özünün son çıxışlarının birində buna toxundu və dedi ki, Azərbaycanda ildə artıq 160-170 min körpə doğulur, bu da məni sevindirir.

Azərbaycanın əhalisi artır. Xüsusən gənc və yeniyetmə yaşında olan insanların sayının çox olması bizim gələcəkdə çox böyük — həm intellektual potensialımızın, həm əməkçi potensialımızın, həm hərbi potensialımızın, ümumiyyətlə, insan potensialımızın olacağından xəbər verir.

***— Ümumiyyətlə, demoqrafik duruma yad , yəni, xaricdən gəlmə və heç də arzu olunmayan elementlərin təsiri mümkündürmü?***

— Təbii ki, bu mümkündür. Bu, müxtəlif mənalarda mümkündür. Yadınızdadırsa, mən Milli Məclisin iclaslarının birində çıxışımda dedim ki, əgər biz demoqrafik prosesləri tənzimləməsək, 20 ildən sonra Azərbaycanda hər il evlənən 100 min cütlüyün ən azı 20 min cütlüyü başqa dildə danışanlar olacaq. Bu da ondan ibarətdir ki, qız uşaqlarının sayının azalması nəticəsində gələcəkdə — təxminən 20 ildən sonra — ən azı 20 min yad dildə danışan, yad mədəniyyəti daşıyan və yad düşüncəyə malik gəlinlərin gətirilməsinə məcbur olacağıq. Bu, çox ciddi bir məsələ, çox ciddi bir faktordur.

Yeri gəlmişkən, başqa yad elementlər də bizim həm mədəniyyətimizə , həm dilimizə daxil olur. Bunun da təbii ki, demoqrafik duruma müxtəlif təsirləri var. Amma demoqrafik cəhətdən bir məsələyə də ciddi diqqət olunmalıdır. Azərbaycan ildən-ilə varlanan bir ölkədir. Əhalinin sosial durumu yüksələn, artan bir ölkədir və Şərqdə, xüsusilə , Çindir, Koreyadır, yəni, — Şimali Koreyadan söhbət gedir- Hindistandır, ola bilsin Cənub-Şərq ölkələridir ki, orada işçi qüvvəsinin artıqlığı çoxdur. Bunların vətəndaşları Azərbaycanda ən az maaşa işləməyə razıdırlar. Ayda, məsələn, 100 manata, 120 manata, 150 manata, ən az maaşa gəlib işləyənlər var. Hansı ki, o iş yerlərinə azərbaycanlılar getmirlər, ona ehtiyacı yoxdur.

Bu da gələcəkdə müəyyən demoqrafik proseslərə əngəl törədə bilər. Xüsusilə, çinlilərin və hindistanlıların axınına gətirib çıxara bilər. Bunu da yəqin ki, müvafiq orqanlar düşünürlər və nəzarətdə saxlayırlar.

***— Ümumiyyətlə yaxın 15-20 il üçün proqnozlarınız — demoqrafik durumda artım olacaq, yoxsa?..***

— Düşünürəm ki, demoqrafik duruma Azərbaycanda, belə demək mümkünsə, nəzarət bizim arzuladığımız səviyyədə gedir və təxminən hər 8-10 ildə bizim əhalimizin bir milyon artımı normal, gözləniləndir. Bu isə bizi ancaq sevindirə bilər.

**KAMİL**

# Üçüncü sektor QHT-hökumət dialoqundan məmnundur

## "BU, QHT-lərin ÜZƏRİNƏ BÖYÜK MƏSULİYYƏT VƏ VƏZİFƏLƏR QOYUR"

"Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri hörmətli Əli Həsənovun QHT-lərlə keçirilən görüşü vətəndaş cəmiyyətinin inkişafı ilə bağlı yeni mərhələnin başlanğıcıdır. Bu mərhələ QHT-lərin də üzərinə böyük məsuliyyət və vəzifələr qoyur". Bu fikirləri Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin sədri Rufiz Qonaqov dilə gətirib. Onun sözlərinə görə, bu gün ölkədə vətəndaş cəmiyyətinin inkişafı ötən illərlə müqayisədə çox fərqlidir və dinamika günügündən artır. R.Qonaqovun fikrincə, QHT-hökumət dialoqunun yeni mərhələsinin başlanğıcı isə məhz dünənki görüş sayılmalıdır: "QHT-lər də bu görüşdə bir sıra ciddi təkliflər irəli sürdü və Əli müəllim bütün təkliflərə ciddi yanaşılacağını bildirdi. Bu da onun göstəricisidir ki, hakimiyyət QHT-lərin inkişafında, onların maddi-texniki bazasının möhkəmlənməsində, fəaliyyət dairəsinin genişlənməsində maraqlıdır. Hörmətli Əli Həsənov Vətəndaş Cəmiyyətinə kifayət qədər isti və səmimi münasibətini ortaya qoymaqla, Prezident cənab İlham Əliyevin bu sektora olan diqqət və qayğısını bir daha nümayiş etdirdi. Mən bu tip görüşlərin davamlı olması qənaətindəyəm. Bunu cənab Əli Həsənov özü də bildirdi. Biz inanırıq ki, bu görüşün nəticəsi yaxın zamanda hiss ediləcək və QHT-lərin inkişafında yeni bir mərhələ başlanacaq".




Bu arada ölkənin bir sıra nüfuzlu vətəndaş cəmiyyəti qurumlarını özündə birləşdirən QHT Əməkdaşlıq Alyansı da QHT-Hökumət dialoqu ilə bağlı bəyanat yayıb. Qurumun İcra Katibliyindən verilən məlumata görə, Alyans Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun iştirakı və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının təşkilatçılığı ilə "Vətəndaş cəmiyyətinin möhkəmləndirilməsində QHT-hökumət dialoqu" mövzusunda keçirilən tədbiri yüksək qiymətləndirir və bu dialoqun QHT-lərin gələcək fəaliyyətində geniş imkanlar yaradacağına ümid edir.

Alyans hesab edir ki, bu gün dövlətin milli QHT-lərlə əməkdaşlığı, QHT-ləri özünün tərəfdaşı hesab etməsi ölkədə vətəndaş cəmiyyətinin inkişafında, QHT sektorunun fəaliyyətində və vətəndaş cəmiyyəti quruculuğunda yeni mərhələnin başlanmasına təkan ola bilər: "Hesab etmək olar ki, bu müzakirə dialoqun başlanğıcıdır və davamlı olacaqdır. Münasibətlərin yeni müstəviyə keçməsi, hökumətlə tam olaraq anlaşma QHT sektorunun əhatə dairəsinin genişlənməsinə, maddi-texniki bazasının möhkəmlənməsinə xidmət edən əsas faktorlardan birinə çevrilə bilər. İnanırıq ki, çox ciddi məsələlərin müzakirə olunduğu bu dialoqda səsləndirilən təkliflərə diqqət göstəriləcək, bu təkliflərin reallaşması istiqamətində müzakirələr davamlı olacaq. Bununla da ölkədə vətəndaş cəmiyyətinin inkişafı ilə bağlı yeni bir dönəm başlayacaq. Dövlət bu ictimai müzakirə ilə ilk addımı atıb və bu addımlar davamlı olarsa, dövlətin QHT-ləri özünə tərəfdaş sayması fikri reallığa çevrilməklə, ictimai sektorun gələcək inkişafına stimul verə bilər. Hörmətli Əli Həsənovun başlanılan müzakirələrin formal xarakter daşımayacağı barədəki fikirləri QHT-lərdə inam yaradıb. Buna görə də hesab edirik ki, ölkədə vətəndaş cəmiyyəti quruculuğu istiqamətində mühüm irəliləyişlərin olacağına böyük ümid bəsləmək mümkündür".

QHT Əməkdaşlıq Alyansı ümid edir ki, bu dialoqun nəticəsi olaraq, bundan sonra dövlət QHT-lərə indikindən də çox diqqət ayıracaq: "Bu diqqət isə çox vacib amil olmaqla yanaşı, qeyri-hökumət təşkilatları ilə dövlət arasındakı münasibətlərinin yeni müstəviyə keçməsində xüsusi əhəmiyyət daşıyacaq".

**Aqil LƏTİFOV**

Elnura CAVADZADƏ
Filologiya elmləri üzrə fəlsəfə doktoru



# Bizə nə olub?...

Son vaxtlar hara gedirəm, kiminlə söhbətləşirəmsə, hamını bir sual narahat edir, hər kəsi bir məsələ düşündürür. Biz axı niyə beləyik?! İnsanlar dəyişib, bir-birimizi sevmirik, adam öldürmək meşədə çaqqal öldürmək qədər adiləşib, böyük-kiçik qalmayıb. Nə başınızı ağrıdım, o gün də yaşlı nəslin nümayəndələrindən biri yazıq-yazıq üzümə baxıb soruşdu ay bala ,biz niyə bu günə qalmışıq? Ya biz qocalmışıq, ya da millət əldən gedir. Mən də qızara-qızara deim ki, ay ağsaqqal, bu suala yazıq Mirzə Cəlil ömrünün sonunadək cavab tapmadı. Nə qədər öz-özünə sual etdi ki, biz nəyik, cavabında 5 hecalı bir birləşmə yarandı ki, onu da dilimə gətirəndə tüküm ürpənir. Böyük mütəfəkkir qələminin dili ilə izah edirdi ki, qəribə burasıdır ki, özgələri bizi bir şey hesab edirlər ,başlayırlar qorxmağa. Söz yox ki, belə lazımdır və bizim də məsləhətimizdir.Amma Biz Öz Əlimizlə Öz İşimizi Xarab Edirik. Bizim bəlamız da buradan başlayır. Məsələn, mən ölkəmin tarixi və mədəniyyəti ilə öyündüyüm kimi, onun milli mentalitet adlanan, qırılmaz tellərlə keçmişə bağlı olan abır-həya kodeksi ilə qürrələnirəm. Kim istəyir bunu pafoslu nitq, kim istəyr şablon ifadə kimi qəbul etsin — bu ürəyimin səsidir. Mən Azərbaycan və azərbaycanlıların vurğunuyam. Ən böyük vurğu altında səsləndiyim həmvətənlərim isə əcaib-qarayib davranışları ilə vurğun ürəyimə yara vururlar. Bax,bu məni incidir! Keçmişə bağlı bağlarımız avropasayağı irəli dartılmaqdan boşalmağa başlayıb. Uzağa getməyin. Yorğunluğu hələ indi-indi paytaxtın canından çıxan "Euroviziyon 2012"ni yadınıza salın. Müsabiqənin adımıza layiq təşkili Avropaya de fakto sübut etdi ki, hörmət, ülfət, ən nəhayət bu dünyada cənnəti görmək istəyən Azərbaycana gəlməlidir. Bakıda məşəlini alovlandıran avropalılarn ürəyi isinə-isinə buna yenicə inanmaq istəyirdilər ki, bəzilərimiz çıxdıq ortaya, başladıq astarımızı göstərməyə ki, baxın, görün, bizim qiymətimiz on dörd şahı,üç qəpikdir. Biz nəinki, keşməkeşli tariximiz, zəngin mədəniyyətmiz və ədəbiyyatımızın təbliğini bekara iş sayırıq, onunla məşğul olanların da əməyini zay edirik.

Müsabiqə ərəfəsində mən də istədim ki, ara-sıra toplaşan həmvətənlərimə qoşulub, soruşam ki, ay camaat, indi ki zəhmət çəkib, gün başınıza döyə-döyə yığılmısınız bir araya ,onda niyə sinənizə döyə-döyə demirsiniz ki, ay əhli Avropa xoş gəlib, səfa gətirmisiniz, suyumuzdan için,çörəyimizdən kəsin , evinizə qayıdanda da şövkətüzəelüzə bizdən salam söyləyin. Qarabağımızın bağlı qalan qapılarından danışın. Gözü ağlar Göyçənin çənindən, dərd hıçqıran Dərbəndin, Arazın, Şah dağın dağ boyda tarixindən nəql edin. Amma nə qədər çalışdımsa, səsim çıxmadı, xəcalət çəkdim.Sonra düşündüm ki, namərdləri mərdlərə satan da xəcalətdir, haqqın ayaqlananda yatan da xəcalətdir, bizi yoldan çıxaran şeytan da xəcalətdir. Nəhlət şeytana, bu dəfə qeyri-ixtiyari özüm-özümdən soruşdum ki, biz axı niyə beləyik?! Biz əvvəldən beləydik, yoxsa üzüqara zəmanə bizi bu günə qoyub. Ölkəmin böyük inkişafından gözləri böyüyən, Bakının gözəlliyindən bayılan turistlərə ciddi-cəhdlə göstəririk ki, Allah bizə hər şey verib — Birlikdən başqa. Biz də Allahdan hər şey diləyirik ki, Birlikdən başqa. Birliyə zidd gedən həmvətənlərim, hərdən düşünün. Niyə bir-birimizə qənim doğulmuşuq, biz?! Yalvarıram Sizə! Bu məqamda saz lazım idi ki,bu da mümkün olmadı deyən, ürəyimin mizrabı ilə birliksevər şairimiz Əli Tudənin misralarını dinləndirirəm.

**Biz müsəlmanlarıq, düşmən gözündə,**
**Gah qatillərik, gah qəsbkarlarıq.**
**Yox, biz ovla dolu dünya üzündə,**
**Qəfəsə salınmış canavarlarıq.**

Niyə axı biz özümüzü adam kimi yox, canavar kimi aparaq? Harda? Adi futbol meydançasında. Avropa stadionlarında fanatlar birlikdə sevimli komandalarını dəstəkləyir, birlikdə alqışlayırlar,hətta çəpiyi də birlikdə çalırlar.Elə bil aylarla məşq ediblər. Gəl ki, biz ölkə daxilində iki doğma komandanın oyununda nəinki fanat, fani dünyadan bezmiş at kimi kükrəyir,əlbəyaxa oluruq ki, sənin səsin mənimkindən bərk çıxdı. İş o yerə çatır ki, yazıq oyunçular bunun yalnız oyun olduğunu göstərmək üçün topu öz qapısına vururlar. Vallah,öz qapımızdan keçən toplar dağıdacaq bu ölkəni,sonra deməyin ki, eşitmədiniz. Türk ,Avropa müğənnilərinin fonoqramla güclə sezilən səslərini eşidib bayılırıq, zənguləsi ürək titrdən xanəndələrimizin səsi tükümüzuü ürpətmir.İsmayıl bəy Qaspıralının təbirincə biz Dildə, Düşüncədə, Davranışda Bir ola bilmirik. Bəlkə ona görədir biz vəhdətimizlə düşmən çəpərini yıxa bilmirik. Bəlkə bu səbəbdəndir dünya meydanına böyük anlamda BİZLƏ çıxa bilmirik. Heç vaxt varlı ölkələrin cəlalına uymasam da , inciməyin, amma millətini sevən özgələrə həsəd aparıram. Nə olar ki, hərdən pıçıldayaq şair demişkən — Vətən mərd baxışlı övladlarının möhkəm birliyiylə vətəndir ancaq! Çünki ağac tək yox,budaqlarıyla daha əzəmətli, yaylaq bulaqlarıyla daha təravətli görünür. Oxuyub bəlkə də nə olsun, günəşdə də min ləkə var düşünənlər olacaq. Qoy olsun! Ancaq Şərqin günəşi Ölkəm və Xalqımda bir ləkə olmasın gərək!

# Kolumbiyalı parlamentarilər işğal faktını pisləyiblər

Milli Məclisdə Kolumbiya ilə parlamentlərarası əlaqələr üzrə İşçi Qrupunun üzvləri Kolumbiya Senatının nümayəndələri ilə görüşüb. Sözügedən qrupun rəhbəri Xanlar Fətiyev qonaqlara Milli Məclisin tərkibi, qanunvericilik fəaliyyəti barədə qonaqlara ətraflı məlumat verib, Azərbaycanla Kolumbiya arasında gələcəkdə əlaqələrin daha sıx inkişaf edəcəyinə ümidvar olduğunu bildirib.

O, Kolumbiya Senatında Xocalı faciəsinin tanınması ilə bağlı qəbul olunan sənədi yüksək qiymətləndirərək, kolumbiyalı həmkarlarına Azərbaycan parlamentarilərinin təşəkkürlərini çatdırıb. Kolumbiya Senatı nümayəndə heyətinin rəhbəri, senator Aleksandra Moreno Piraquive də öz növbəsində Azərbaycanla əlaqələrin ölkəsi üçün çox əhəmiyyətli olduğunu vurğulayıb.O, iki ölkə arasında münasibətlərin bundan sonra daha da inkişaf edəcəyinə əminliyini ifadə edib. Kolumbiyanın daxilində qaçqın probleminin olduğunu bildirən qonaq ölkəmizin işğal faktını pisləyərək tezliklə ədalətin bərqərar olacağına ümid etdiyini deyib. Görüşdə çıxış edən deputatlar ölkəmizin tarixi barədə qonaqlara ətraflı məlumat verərək, Azərbaycanın haqlı mövqeyini dəstəklədiyinə görə Kolumbiya dövlətinə minnətdarlıqlarını bildiriblər.

**KAMİL**

# BMT-nin Azərbaycandakı Nümayəndəliyi Yaponiya şirkəti ilə bərabər humanitar missiya həyata keçirəcək

BMT-nin İctimai İnformasiya Departamentinin Azərbaycandakı ofisindən qəzetimizə verilən məlumata görə "Fuci Optical" görmə qabiliyyətinin müayinəsi ilə bağlı Azərbaycanda 8-ci humanitar missiyasını həyata keçirir.

Yaponiya şirkəti "Fuji Optical" Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının əsas özəl donorlarından biridir. Bu əməkdaşlığın tarixi 1983-cü ilə təsadüf edir. Həmin ildə şirkət Tailanddakı hind-çin qaçqınları üçün göz müayinəsi və eynək paylanışı həyata keçirməyə başlayıb. 2005-ci ildən etibarən eyni humanitar layihələr Azərbaycanda olan məcburi köçkünlər və qaçqınlar arasında da keçirilib. Missiyaya "Nansen qaçqın mükafatı"na 2006-cı ildə layiq görülmüş dünya şöhrətli optometrist Doktor Akio Kanai başçılıq edir. Bu il, məcburi köçkünlər, qaçqınlar və digər aztəminatlı insanlar üçün ödənişsiz göz müayinəsi və eynək paylanışının 3-9 iyul tarixlərdə Tərtər, Goranboy rayonlarında və Bakı şəhərində keçirilməsi planlaşdırılıb. Yardım proqramı BMT QAK-ın Azərbaycandakı Nümayəndəliyi və yerli hakimiyyət orqanları ilə sıx əməkdaşlıq şəraitində həyata keçiriləcək.

"Fuji Optical" Azərbaycandakı fəaliyyətinə indiyədək bir milyon ABŞ dollarından artıq vəsait xərcləyib. 30 minədək yüksək keyfiyyətli optik eynək və digər vasitələr BMTQAK-ın Azərbaycandakı fəaliyyətinə dəstək kimi ölkəyə gətirilib. Ümumilikdə, 12 mindən artıq qaçqın, məcburi köçkün və digər aztəminatlı şəxs şirkətin ödənişsiz gözmüayinəsi xidmətindən faydalanıb. Bu il, "Fuji Optical" Azərbaycana 4500 eynək və digər vasitələr gətirib və qeyd olunan ərazilərdə 2000 məcburi köçkün, qaçqın və digər aztəminatlı şəxslər üçün göz müayinəsi həyata keçirmək niyyətindədir.

BMT-nin ixtisaslaşmış qurumlarından biri olan BMT QAK dünyada olan qaçqınların himayəsi sahəsində beynəlxalq müdaxilələrin idarə olunması, əlaqələndirilməsi, həmçinin, qaçqınların problemləri üçün davamlı həll yollarının axtarılması vəzifəsini daşıyır. Təşkilat Dağlıq Qarabağ münaqişəsi nəticəsində didərgin salınmış yüz minlərlə məcburi köçkünə və digər ölkələrdən olan minlərlə qaçqına yardım göstərmək üçün 1992-ci ilin dekabrından Azərbaycanda fəaliyyət göstərir.

**S.MÜRVƏTQIZI**

# Gənc Təbiblərin II Almaniya Forumu keçiriləcək

14-15 İyul tarixlərində Almaniyanın Mannheim və Heidelberg şəhərlərində "Biliyə Əsaslanan Səhiyyə Naminə" Gənc Təbiblərin II Almaniya Forumu keçiriləcək. Bu barədə Gənc Təbiblərin Almaniya Forumu AzerMDS və ASAİF-in nümayəndəsi Fəridə Məmmədzadə məlumat verib.

Gənc Təbiblərin Almaniya Forumu AzerMDS və ASAİF təşkilatçılığı və Gənclər və İdman Nazirliyi və Alman Akademik Mübadilə Xidmətinin (DAAD) texniki dəstəyi ilə 2011-ci ildən başlayaraq keçirilir. Sözügedən forum dünyanın ən qədim universitetlərindən biri olan Heidelberg Universiteti və Azərbaycan Tibb Universitetinin elmi və metodiki dəstəyi ilə ərsəyə gəlib. Forumun məqsədi səhiyyə idarəetməsi və fərqli tibbi ixtisaslar sahəsində mövcud olan ən müasir biliklərin ölkəmizə nəql edilməsi və bu biliklərin millətimizin sağlamlığı naminə tətbiq edilməsinə töhvə verməkdir. Forum, həm də dünyanın müxtəlif ölkələrində təhsil alan və işləyən azərbaycanlı gənc həkimlər arasında, eləcə də onlarla ölkəmizin səhiyyə qurumları arasında dinamik və yaradıcı ünsiyyətin formalaşmasına töhvə verməyi qarşısına məqsəd qoyub.

Foruma ölkəmizin dövlət və özəl səhiyyə qurumlarının, Tibb Universitetinin, Təhsil Nazirliyinin nümayəndələri dəvət ediləcək. Bu, xaricdə təhsil alan gənc həkimlərimizin ölkəmizdəki potensialla yaxından tanış olmasına və fərdi əməkdaşlıq layihələrinin meydana gəlməsinə imkan verəcək. Bu məqsədlə, II Forumda unikal GKörpü seminarlarının" təşkili nəzərdə tutulur. Bu cür seminarlar Azərbaycanda və xaricdə çalışan həkimlərimizə müxtəlif ixtisaslar üzrə bilik mübadiləsi aparmaq, birgə elmi fəaliyyət imkanlarını araşdırmaq, yeni təlim üsullarının müzakirəsi üçün imkan yaradır. Hər bir seminar, tərəfdaş alman klinikası tərəfindən təşkil ediləcək və iştirakçılar klinikaların gündəlik fəaliyyəti ilə yaxından tanış olacaqlar.

Forumun ilk günü, iyulun 14-ü axşam iştirakçılar və qonaqlar üçün Mannheim şəhərində "Azərbaycan Gecəsi" adlı ziyafət təşkil ediləcək.

**S.MÜRVƏTQIZI**

# Xorvatiya prezidenti "Bakı"ya niyə gəlmişdi?

Xəbər verdiyimiz kimi, Bakıda keçirilən "Crans Montana" Forumunun 23-cü sessiyasında iştirak edən bir qrup tədbir iştirakçısı "Bakı" futbol klubunun prezidenti Hafiz Məmmədovun dəvəti ilə klubun bazasını ziyarət edib. Hafiz Məmmədov Xorvatiyanın sabiq Prezidenti Stepan Mesiçin və iş adamlarının də yer aldığı qonaqlara Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin idmana xüsusi diqqət və qayğısını xatırladaraq, dövlət başçısının imzaladığı "2005-2015-ci illərdə Azərbaycanda futbolun inkişafı barədə" dövlət proqramının iş adamları üçün böyük stimul olduğunu bildirib. O, sessiya iştirakçılarını klubun infrastrukturu və təlim-məşq bazası ilə tanış edərək, onları "Bakı"nın gələcək planları barədə məlumatlandırıb. Xorvatiyalı qonaqlar gördüklərindən xeyli məmnun qaldıqlarını, bu sürət və artımla Azərbaycanın tezliklə böyük futbol ölkələri sırasına yüksələcəyinə əmin olduqlarını bildiriblər. "Bakı"nın təlim-məşq bazasını çox bəyənən balkanlı müsafirlər komandaya qarşıdan gələn Avropa Liqası yarışlarında uğurlar arzulayıblar.

Mötəbər avropalı nümayəndə heyətinin "Bakı"ya baş çəkməsi qeyri-adi görünə bilər. Onu xatırlamaq lazımdı ki, Hafiz Məmmədovun böyük oğlu Kənan Məmmədov Xorvatiyanın Respublikamızdakı fəxri konsuludu. Bir ildən artıqdı bu vəzifəni yerinə yetirən gənc diplomat iki ölkənin münasibətlərinin yaxınlaşmasında az iş görməyib.



Xorvatiya — Azərbaycan ilişkiləri əsasən turizm və biznes strukturlarında müşahidə olunur ki, Kənan Məmmədovun bunda fəallığı diqqət çəkir.

Təbii ki, bütün bunlar dövlət başçısı İlham Əliyevin yürütdüyü xarici siyasətin nəticəsində baş verib.

Respublika rəhbəri Balkan təmsilçisi ilə əlaqələrin genişləndirilməsinin təşəbbüskarıdı və onun sayəsində Xorvatiya ilə Azərbaycan yeni-yeni əməkdaşlıq layihələri reallığa çevirməyə başlayıb. Altı ay sonra viza rejiminə keçəcək xorvatlar bu sahədə ölkəmizin vətəndaşlarına güzəştə getməyə qərarlıdı. Hər halda Stepan Mesiçlə birgə Bakıya səfər edən siyasi partiya təmsilçiləri və dövlət adamları ilə görüşlərdə tərəfdaşlığın digər sahələri gündəmə gətirilib.

Xorvatiya hökuməti Kənan Məmmədovun fəaliyyətini xüsusi qiymətləndirmək qərarına gəlib. Belə ki, rəsmi Zaqreb onu ölkəsində "ilin konsulu" adına layiq görməyə hazırlaşır. Mesiç Bakıda keçirdiyi son görüşdə bu barədə məsələ qaldıracağını bildirib və Azərbaycan tərəfinin son addımlarını təqdirəlayiq hesab edib. Respublikamız Cənubi Qafqaz regionunda Xorvatiyanın ən yaxın və etibarlı partnyoruna çevrilib ki, bunda da cənab İlham Əliyevin Stepan Mesiçlə illər öncəsinə gedib çıxan dostluğu əhəmiyyətli rol oynayır.

Klubda keçirilən görüş barədə "Sport Favorit" qəzetinə danışan Hafiz Məmmədov bildirdi ki, Mesiç Azərbaycandan gözəl təəssüratla ayrılıb: "Hörmətli Prezidentimiz İlham Əliyevin necə böyük alicənab insani keyfiyyətlər daşımasına dünya şahiddi. Mesiç artıq ölkə başçısı olmasa da, onu Azərbaycana dəvət etdi, ziyafət verdi. Qonağın özü də belə qarşılanmasına yaxşı mənada çox təəccüblənmişdi və bizim prezidentə heyran qalmışdı. Oğlum Kənan gəncdi, buna baxmayaraq, enerjili və məsuliyyətlidi. Hər gün öz işinin üzərində möhkəm dayanır, iki ölkənin diplomatik münasibətlərində əlaqələrin artmasına var gücünü səy göstərir. Cənab prezidentimiz həmişə gəncliyə dəstək verib, onların inkişafına yol açıb. Kənan da bu siyasətin köməyi ilə fəxri konsul missiyasını layiqincə yerinə yetirməyə çalışır. Hörmətli rəhbərimizin məqsədi və məramı budu ki, Azərbaycanın beynəlxalq aləmlə münasibətləri inkişaf etsin. Biz də buna uyğun olaraq, öz üzərimizə düşən öhdəmizdən maksimum gəlməliyik ki, dövlətimizin imici yüksəlsin. Respublikamızın başçısı Mesiçə elə bir yüksək dəyər verdi ki, heç şübhəsiz, bunun özü böyük insanlıq nümunəsidi. Bizim prezident dostu qiymətləndirməyi hamıdan yaxşı bacarır. Mesiçlə klubumuzdakı görüşdə də bu haqda geniş söhbət oldu, o, bildirdi ki, cənab İlham Əliyevin liderlik bacarığı ən yaxşı sözlərə layiqdi. Qonağı "Bakı"nın infrastrukturu və şəraiti ilə yaxından tanış etdik, bütün bunları dövlətimizin başçısının köməyi ilə ərsəyə gətirdiyimizi söylədik. Şərait onda müsbət fikir yaratdı, dedi ki, "Bakı"nın bazası Avropanın əksər aparıcı klubları ilə eyni səviyyədədi. O, özüylə idman, turizm və biznes xadimlərini gətirmişdi. İdman sahəsində fəaliyyət göstərən tikinti şirkətlərinin təmsilçiləri ilə bizləri tanış elədi. Xorvat şirkətlərinin bu baxımdan böyük təcrübəsi var, Avropanın bir sıra məşhur stadion və bazalarını onlar inşa ediblər. Bilirsiz ki, "Bakı" yeni idman mərkəzləri yaradır, tikintilərimiz var. Təklif verdim ki, bu mərkəzlərin inşasında sizinlə əməkdaşlığa hazırıq. Bununla bağlı müəyyən yeniliklər etməyə çalışacağıq. Stepan Mesiçə məlumat verdim ki, "Bakı"-da xorvatiyalı futbolçular legioner həyatı yaşayır. O da buna çox sevindi. Xorvatiya idman ölkəsidi, dünyanın ən güclü futbol komandalarından biri onlarındı. Avropa çempionatından söz düşdü, sabiq prezident təəssüflə qeyd etdi ki, milliləri İspaniya ilə həlledici oyunda haqsız qərara uğradı və yarışdan kənarda qaldı. Səmimi və istiqanlı insandı. Bizi yaxınlarda Zaqrebə dəvət etdi. İndi fikrim var ki, "Mura" ilə oyuna görə Sloveniyaya gedəndə, ordan da Xorvatiyaya yollanım. Hər halda "Bakı"nın simasında bu ölkə ilə Azərbaycan turizm və idman sahəsində yeni əlaqələr yaranıb, bunu mütləq inkişaf etdirəcəyik. Şərait münasib olsa, "Mura" ilə oyunu böyük məmuniyyətlə onunla birgə izləyərdik. Sloveniya klubu ilə qarşılaşmalarda komandamızdan mütləq qələbə gözləyirəm. Səviyyəli futbolçularımız çoxdu, heyət son vaxtlar bir qədər də gücləndirilib. Məncə, "Bakı" bu il Avropada öz sözünü deyəcək və qarşısına qoyulan vəzifəyə çatacaq".

# "Azərbaycan Dil Qurumu" monitorinqin nəticələrini açıqlayıb

## DİL NORMALARINA ƏN ÇOX RİAYƏT EDƏN KİV "525-ci QƏZET"DİR

"Azərbaycan Dil Qurumu" İctimai Birliyinin Monitorinq Qrupu yazılı mətbuatda ədəbi dilin qorunmasının vəziyyəti ilə bağlı 2012-ci il iyunun 19-dan 30-dək monitorinq aparıb. Qurumdan "525"ə verilən məlumata görə, monitorinqə "Yeni Müsavat", "Azadlıq", "Bizim yol", "Şərq", "525-ci qəzet", "Gündəlik Teleqraf" və "Ekspress" qəzetləri cəlb edilib. Monitorinqin nəticəsinə görə, "525-ci qəzet" dil normalarını ən az pozan, "Yeni Müsavat" və "Azadlıq" isə ən çox dil xətalarına yol verən qəzetlərdir.

Monitorinq qrupu "Yeni Müsavat" və "Azadlıq" qəzetlərinin daha çox dil xətasına yol verməsinin obyektiv və subyektiv səbəblərlə bağlı olduğu qənaətindədir: "Obyektiv səbəb hər iki qəzetin özəl mövzulara, şərhlərə, informasiyalara üstünlük verməsi, agentlik məlumatlarından bacardıqca az istifadə etməsi ilə bağlıdır. Nəticədə agentliklərin hazır materiallarından maksimum bəhrələnən qəzetlərə nisbətən daha çox yanlışlığa yol verirlər. Subyektiv səbəb isə özəl yazı, informasiya və müəllif köşələrində ədəbi dilə aşırı laqeydlik özünü göstərməsi ilə bağlıdır. Belə ki, əcnəbi sözlərin yazılışına redaksiyanın ayrı-ayrı əməkdaşlarının yanaşması fərqlidir və bəzən bir söz və ya ifadənin qəzetin eyni sayında 2 və ya daha artıq formada yazılması müşahidə olunur. Bəzən redaktorlar ədəbi dil normalarından daha çox, öz fərdi mülahizələri ilə yazıları redaktə edirlər".

Monitorinq zamanı heç bir zəruri ehtiyac olmadan mətbuatda işlədilən əcnəbi sözlərdən istifadə olunduğu da müəyyənləşib. Müəlliflər bilərəkdən istifadə etdikləri bu əcnəbi sözlər yalnız dırnaq içərisində yazılmaqla dil normalarına "uyğunlaşdırılır".

Monitorinq nəticəsində bilməyərəkdən işlənən əcnəbi sözlərə də rast gəlinib. Belə söz və ifadələr mətbuatda o qədər çox olmadığı məlum olub. Bəzən daha əhatəli qarşılığının olmasına baxmayaraq, bu yad sözlərin dilin lüğət tərkibinə zorla daxil edilməsinə cəhd göstərildiyi də ortaya çıxıb.

Diqqət çəkən digər məqam isə fərqli formada yazılan sözlərlə bağlıdır. Belə ki, bir çox hallarda dil norması ilə tənzimlənən və "Orfoqrafiya lüğəti"ndə qeydə alınan sözlərin fərqli yazılış formalarına rast gəlmək olur. Belə yanlışlıqlar texniki səhv deyil, fərqli yanaşmaların təzahürü kimi qiymətləndirilərək, bunun ciddi orfoqrafiya problemi yaratdığı qeyd edilib.

Monitorinqin nəticəsinə görə, bir qayda olaraq mətbuatda xarici mətbuat, şirkət, hətta şəxs adlarının orijinalda olduğu kimi yazılması ənənə halını alıb: "Ancaq bu qaydanın tətbiqində heç bir ümumi prinsip gözlənilmir. Yəni yalnız ingilis dilinə aid olan xüsusiləşmiş isimlərdə "orijinalı olduğu kimi saxlamaq" meyli özünü göstərir, digər beynəlxalq dillərdə olan xüsusiləşmiş isimlər isə Azərbaycan ədəbi dilinin normalarına uyğunlaşdırılır. Yeganə istisna yalnız "525-ci qəzet"dədir. "525-ci qəzet", əsasən, bütün əcnəbi xüsusiləşmiş isimlərin yazılışında eyni qaydanı tətbiq etməyə çalışmaqla ədəbi dil normalarına riayət edir".

2010-cu ilin sentyabr ayında ədəbi dil qaydalarına riayətlə bağlı mətbuatda anoloji müşahidə aparan Monitorinq Qrupu hesab edir ki, aradan keçən 2 ilə yaxın müddət ərzində əcnəbi sözlərdən istifadə əhəmiyyətli şəkildə azalıb: "Lakin yeni sözlərin alınmasında və işlədilməsində qaydasızlıq və dil prinsiplərindən uzaqlaşma daha da artıb. Bunun səbəbləri arasında texnologiyanın sürətli inkişafı, sərhədlərin şəffaflaşması və mədəni-siyasi əlaqələrin genişlənməsi dili daimi təzyiq altında saxlayır. Belə məqamda Terminologiya Komitəsinin və dilçi alimlərin çevik reaksiyası olmadıqda, dilin genişlənməsi və inkişafında xüsusi rol oynayan media mənsubları öz fərdi yanaşmalarından başqa heç bir vasitə görmürlər. Nəticədə, alınma sözlərin yazılışında ciddi fərqlər meydana çıxır. Hazırkı inkişaf müasir qrammatik prinsiplər üstündə formalaşan dillərdə orfoqrafiya lüğətinin vaxtaşırı olaraq yenilənməsini tələb edir. "Azərbaycanın Dövlət Dili haqqında" Qanuna görə də "Azərbaycan dilinin orfoqrafiya lüğəti" ən geci 5 ildən bir tərtib olunmalı və ictimaiyyətə təqdim edilməlidir. Amma 2004-cü ildən bu vaxta qədər yeni "Orfoqrafiya lüğəti" istifadəyə verilməyib. Habelə media mənsubları mövcud lüğətlərdən istifadə etmir və dil normalarına laqeyd yanaşır".

Qeyd edək ki, monitorinq zamanı qəzetlərin yol verdiyi texniki səhvlər nəzərə alınmayıb.

**Aqil LƏTİFOV**

# Fred Asif anıldı

Dünən II Fəxri Xiyabanda Azərbaycanın Milli Qəhrəmanı Fred Asifin (Asif Yusif oğlu Məhərrəmov) məzarı ziyarət edilib. Tədbirdə Fred Asifin döyüş yoldaşları, yaxınları və ailə üzvləri iştirak edibdir. "Azərbaycan Milli Qəhrəmanların Təbliğatına Dəstək" ictimai birliyinin sədri Seyidzadə Mirbəşir Mirsultan oğlu çıxış edərək qəhrəmanın keçdiyi şərəfli həyat yolundan danışıb. F.Asifin silahdaşları onun məzarı başında qəhrəmanın döyüş yolundan, onun ermənilərə qarşı apardığı mübarizədən söz açıblar. Tədbirdə Jurnalist Ekspert Mərkəzinin sədri, jurnalist Ceyhun Musaoğlu və Rey Kərimoğlu da iştirak edib.

Tədbir iştirakçıları sonra Azərbaycanın Milli Qəhrəmanları Mübariz İbrahimovun, Elmar Edilovun və digər şəhidlərin məzarlarını da ziyarət ediblər.

Xatırladaq ki, Fred Asif 1952-ci il, iyulun 26-da Ağdam şəhərində anadan olub. O, 1988-ci ildən başlayaraq Ağdamın ermənilərlə həmsərhəd kəndlərində düşmənə qarşı döyüşüb. Sonralar isə hərbi hissə yaradaraq torpaqlarımızı erməni təcavüzündən müdafiə edib. Xramort, Aranzəmin, Pircamal, Dəhraz, Naxçıvanik və digər kəndlərin müdafiəsində cəsur komandir kimi rəşadətlə vuruşub. 1992-ci ildə dekabrın 7-də Azərbaycanın Milli Qəhrəmanı adına, "Məhəmməd Əsədov Mükafatına" layiq görülüb.

Polkovnik-leytenant Asif Məhərrəmov 1994-cü il iyulun 1-də müharibədə aldığı yaraların nəticəsində dünyasını dəyişib. İyulun 3-də Bakı şəhərində II Fəxri Xiyabanda dəfn edilib. Bakının küçələrindən biri onun adını daşıyır.

# Əfsanəvi "Medo"ya – Məmməd Məmmədova Hollandiyada heykəl qoyulub

İkinci Dünya müharibəsi zamanı Niderlandda müqavimət hərəkatının rəhbərlərindən olan, bu ölkənin ən yüksək — "Kraliça cəngavəri" fəxri adına layiq görülmüş həmyerlimiz, əfsanəvi "Medo" kimi tanınan Məmməd Məmmədovun xatirəsi Hollandiyada əbədiləşdirilib. Diasporla İş üzrə Dövlət Komitəsindən qəzetimizə daxil olan məlumata görə, M. Məmmədovun müharibədən sonra ömrünün sonunadək yaşadığı və fəxri vətəndaşı olduğu Oysterveyk şəhərinin bələdiyyəsi "Medo"nun yaşadığı küçədə heykəlinin ucaldılması və şəhərin küçələrindən birinə onun adının verilməsinə dair qərarı keçən il qəbul edib. Oysterveykdə qəhrəmanın heykəlinin və onun adını daşıyan küçənin açılış mərasimində Niderland hökumətinin təmsilçiləri, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin və Zaqatala Rayon İcra Hakimiyyətinin nümayəndə heyətləri, ölkəmizin Haaqadakı səfirliyinin əməkdaşları, şəhərin rəhbərliyi və ictimaiyyətin nümayəndələri, Niderlanddakı diaspor təşkilatlarımızın fəalları və Məmməd Məmmədovun ailə üzvləri iştirak ediblər.

Tədbirə Oysterveyk şəhər bələdiyyəsi binasında "Salnamə" kinostudiyasının istehsalı, müəllifləri Elxan Ələsgərov və Tahir Əliyev olan "Holland Medo" ("Dutch Medo") filminin nümayişi ilə start verilib. Oysterveyk şəhərinin meri Hans Yansen çıxışında M. Məmmədovun həyatının hər bir Niderland vətəndaşı üçün nümunəvi olduğunu, "Medo"nun Hollandiyanı faşizmdən azad edilməsi ilə yanaşı, ölkənin müharibədən sonrakı illərdə bərpasına və inkişafına verdiyi töhfələrdən söz açıb. Mer Azərbaycan hökumətinin "Medo"nun xatirəsinin əbədiləşdirilməsi istiqamətində Niderland tərəfi ilə gördüyü işlər barədə ətraflı məlumat verərək ölkəmizin Avropa millətlər ailəsinin ayrılmaz tərkib hissəsi olduğunu qeyd edib.

Tədbirdə çıxış edən Niderlandın inteqrasiya və immiqrasiya naziri Qert Leyers ölkələrimiz arasında münasibətlərin dinamik inkişafından, bir sıra sahələr üzrə tərəfdaşlıq səviyyəsinə yüksəlməsindən, minlərlə azərbaycanlının holland cəmiyyətində fəal ictimai mövqeyindən danışıb. O, M. Məmmədovun şərəfli həyat yolunu bu ölkədə yaşayan digər xalqların təmsilçilərinin Niderland cəmiyyətinə inteqrasiya modeli kimi dəyərləndirib: "Belə bir şəxsin xatirəsinin əbədiləşdirilməsi holland və azərbaycanlıların yeni nəsilləri üçün xüsusi əhəmiyyət daşıyır, bu prosesə göstərdiyi dəstəyə görə Azərbaycan hökumətinə təşəkkür edirik".

Azərbaycanın Niderlanddakı səfiri Fuad İsgəndərov mərasimin holland və azərbaycanlı iştirakçılarını təbrik edərək Avropanın faşizmdən azad olunmasında ölkəmizin də mühüm rol oynadığını bildirərək Məmməd Məmmədovun Hollandiyada, Mehdi Hüseynzadənin İtaliya və Sloveniyada, Əhmədiyyə Cəbrayılovun Fransada qəhrəmanlıq zirvəsinə ucaldıqlarını xatırladıb: "Medo"nun müharibədən sonrakı həyatı azərbaycanlıların yeni Avropanın yaradılmasında fəal iştirakını bir daha təsdiqləyir. Ulu öndər Heydər Əliyevin xaricdə yaşayan azərbaycanlılarla görüşərkən hər zaman onların məskunlaşdığı ölkələrin fəal vətəndaşları olmalarının zəruriliyinə dair tövsiyələr verirdi. Soydaşlarımızın Avropa ölkələrinə sosial inteqrasiyası Azərbaycanın Avropanın yenilməz hissəsi olduğunu bir daha təsdiqləyir, proses dövlətimizin avropalı tərəfdaşlarımızla əlaqələrin daha da gücləndirilməsinə təkan verir".

Mərasim çərçivəsində Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə və şəhərin meri Hans Yansen Zaqatala və Oysterveykin "Dostluq Bəyannaməsini" imzalayıblar. İmzalanma mərasimində hər iki şəhər arasında əməkdaşlıq əlaqələrinin yaradılması yüksək qiymətləndirilib və bunun Azərbaycan-Niderland münasibətlərinin inkişafına xidmət edəcəyi vurğulanıb.

Mərasim Məmməd Məmmədovun yaşadığı küçədə davam etdirilib və Oysterveyk şəhər bələdiyyəsinin binasında təşkil olunmuş ziyafətlə yekunlaşıb.

**S.MÜRVƏTQIZI**

Yaddaşımın küncündən...

**Şakir YAQUBOV**



# "Məni Azərbaycan şair edib..."

İllərə hayıfım gəlir, başqa heç nəyə...

1972-ci ilin... gərək ki, oktyabr ayının... səhv eləmirəmsə... yox, səhv eləmirəm, indicə yalnız o dövrdə yazdığım gündəliyə baxdım və yüzdəyüz dəqiqləşdirdim: məhz oktyabrın 7-də bizi, təzəlikcə "İttifaq"dan — yəni SSRİ-dən hərbi xidmətə çağırılmış "dvuxqodiçnik"ləri, hərbi xidmət müddəti iki il olan ali təhsilli zabitləri əlavə ("ixtisasartırma") məşğələlərdən sonra, axşam saat 6-da Berlin şəhərinin Olimpişesdorf kəndindəki "Dairə Zabitlər Evi"nin akt salonuna yığışmağa "dəvət elədilər"...

Ümumən pis deyildi, ələlxüsus da mənim təki "humanitarlar" üçün. "Qonaqlar"ımız Sovetlər İttifaqında dillər əzbəri olan məşhur "Juravli" ("Durnalar") mahnısının müəllifləri — bəstəkar Yan Frenkel və şair Rəsul Həmzətov idilər.

Təzəcə Bakı həyatından, doğma universitetdən, sevib-seçdiyim insanlardan ayrılmış insan təki özlüyümdə bu görüşə böyük ümidlər bəsləyirdim, indi — üstündən təqribən 40 il keçəndən sonra bu ümidimdə yanılmadığımı hiss edərək, düz yeddi ildən sonra yenidən... yazmağa qərar verdim.

+++

Məclis çox ahəstə keçirdi və yəqin ki, sona çatmaq üzrə idi — "SSRİ-nin xalq şairi" (zarafatla belə deyirəm, o vaxt hələ belə titula layiq görülməmişdi) danışır, heç bir adı-titulu olmayan latış bəstəkar isə ara-sıra pianoda, şairin sözlərinə bəstələdiyi mahnıları təqdim edirdi. Birmi, ikimi, üçmü?..

Əl boyda kağıza yazdığım sualı məclisin aparıcısı olan mayor oxudu: "Yoldaş Həmzətov, Siz təzəlikcə Bakıda SSRİ ədəbiyyatı və mədəniyyəti günlərində iştirak etmisiniz. Bu barədə nə deyə bilərsiniz?".

Salondakıların — azı beş yüz adamdan yarısının nəzərləri mənə yönəldi: bu həm də onların adını çəkdiyim "günlər"dən bixəbərliyinin ifadəsi idi.

Rəsul Həmzətov başladı və... indi də Allahıma şükür edirəm ki, bu xatirəni Azərbaycana qayıtdıqdan, yəni üstündən təxminən iki il keçəndən dərhal sonra "Azərbaycan ictimaiyyəti"nə — 1974-cü il avqustun 1-dən etibarən "müqaviləli xüsusi müxbir", lap dəqiqi, maaşsız müxbir vəzifəsində işə qəbul edildiyim "Azərbaycan gəncləri" qəzetinin redaksiyasında, növbəti "çaparaq"da (yəni "letuçka"da) danışmışdım və o vaxtlar xalqımız Səməd Vurğunun anadan olmasının 70 illiyinə hazırlaşdığı üçün xatirəni ya yazılı formada məşhur vurğunşünas-xatirəşünas Şəmistan Nəzirliyə hədiyyə eləməyi, ya da "Gənclər"də dərc eləməyi məsləhət görsələr də, məhz indi qələmi bu mövzuya qatmaq mənə qismət oldu...

...Rəsul Həmzətov Bakı haqqında, SSRİ ədəbiyyatı və mədəniyyəti günləri barədə, respublikanın rəhbəri Heydər Əliyevin gözəl ədəbiyyat bilicisi olması barədə — bəlkə də ənənəvi, bəlkə də standart — sözlərdən sonra kəsəsinə dedi:

— Məni Azərbaycan şair elədi... — Bütün salon dondu və bu donuşluğu Şairin növbəti kəlmələri əritdi: — Min doqquz yüz qırx... yeddinci?.. — Hə, deyəsən, "qırx yeddinci" dedi... Yəqin ki, elə bu cürdür, çünki rəsmi bioqrafiyasında Moskvada oxuduğu illər 1945-1950-ci illər kimi göstərilib... — ...Min doqquz yüz qırx yeddinci il idi, Moskvada, Qorki adına Ədəbiyyat İnstitutunda oxuyurdum, sazaqlı payız günlərinin birində "Moskva" mehmanxanasının (lap son vaxtlara qədər Moskva şəhərinin fəxr etdiyi, "özündən deyən" bütün qonaqlarının məskən saldığı, bir üzü Qırmızı meydana, o biri üzü Puşkin meydanına baxan, indi isə izi-tozu da qalmayan xudmani hotelin — Ş.Y.) giriş qapısının önündə azərbaycanlı şair Səməd Vurğunla rastlaşdım. Dədəmin dostu idi deyə məni də yaxşı tanıyırdı. Març-murç... Dərslərimlə maraqlandı, mən də kişi kimi dedim ki, daha dərsə getmirəm. Səbəbi də odur ki, mən buranı qurtarandan sonra guya ki, şair olmalıyam, halbuki elə indi də şairəm, artıq bir kitabım da çıxıb...

Mən fikrimi tamamlamamış sol qulağım alışdı, Səməd Vurğun qulağımın dibinə necə bir şillə çəkmişdisə, partlayış səsini indi də aydınca eşidirəm. Onun gözlərində alov püskürürdü: "Küçük, necə yəni mən şairəm, daha oxumağım yetər? Həmzət Sadasanın — o, atamı nəzərdə tuturdu — bundan xəbəri varmı?". "Ehtiyac görmədim" — deyə mızıldandım... O, bu mövzuda nəsə xeyli danışdı, axırda isə cibindən yekə bir əskinas çıxarıb dedi: "İndi get yataqxanaya, sabah axşam bura, "Moskva"nın restoranına gələrsən, orada danışarıq..." ...Üstündən illər ötüb, mən indi həqiqətən şair olmuşam və buna görə Səməd Vurğuna, Azərbaycana minnətdaram...

Şəmistan Nəzirli olan-qalanını sərf edərək SSRİ-nin dörd bir yanından Səməd Vurğun haqda xatirələr toplayır və kitab şəklində çap etdirirdi.

Heç inanmıram ki, onun bu mövzulu çoxsaylı kitablarında Lenin mükafatı laureatı Rəsul Həmzətovun həmin xatirəsi əksini tapsın... Mən indi, pulsuz-pənəsiz, bu xatirəni böyük ŞAİRimizin ruhuna və qırx ildən bəri tanıdığım qələm qardaşıma bağışlayıram...

**Oktyabr 1972 — iyun 2012**

# Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik əfqan həmkarları ilə təcrübə bölüşür

İyulun 2-də Əfqanıstan Milli Fəlakətlər İdarəsinin baş direktoru Mohammad Daim Kakar, 2-ci vitse prezidentin aparat rəhbəri Abdul Hamid Nab və Əfqanıstan Minatəmizləmə Departamentinin direktoru Samandari Mohd Qasim Azərbaycana səfərə gəlib. Əfqanıstan nümayəndə heyəti ilə birgə Tacikistan Minatəmizləmə Mərkəzinin direktoru Muxabbed İbrohimov da Azərbaycanda səfərdədir. Bu barədə Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) mətbuat xidmətindən məlumat verilib. İyulun 3-də Əfqanıstan nümayəndə heyəti və Tacikistan Minatəmizləmə Mərkəzinin direktoru Füzuli regionunda aparılan əməliyyatlarla, habelə minaaxtaran itlər və mexaniki minatəmizləmə maşınlarının fəaliyyəti ilə tanışlıq məqsədilə agentliyin Füzuli Regional Bazasında olublar, iyulun 4-də isə ANAMA tərəfindən keçirilən təlimlər və təlim avadanlığı ilə tanışlıq məqsədilə Göygöl Regional Təlim Bazasında olacaqlar.

Qeyd edək ki, ANAMA tərəfindən 2009-cu ildən etibarən Azərbaycan Hökumətinin Əfqanıstan İslam Respublikasına "Qeyri-hərbi sahədə humanitar yardım proqramı" çərçivəsində Əfqanıstan Minatəmizləmə Departamentinə milli potensialın yaradılması, keyfiyyətin qiymətləndirilməsi, Mina Aksiyası İnformasiya İdarəetmə Sistemi (İMSMA), Mina Təhlükəsinə dair Maarifləndirmə (MTM) sahəsində yardım, eləcə də MTM üzrə şagirdlər üçün 24 min ədəd, müəllimlər üçün 1500 ədəd vəsaitin çap edilərək çatdırılması üzrə xeyli iş həyata keçirilib. Agentliyin mütəxəssisləri tərəfindən Kabil şəhəri və Pərvan əyaləti məktəblərinin 800 müəllimi üçün MTM üzrə təlimlər keçirilib. Qeyd olunan işlərin 2012 və 2013-cü ildə də davam etdiriləcəyi nəzərdə tutulur. Xatırladaq ki, səfər iyulun 7-dək davam edəcək.

**S. MÜRVƏTQIZI**

“Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə

# “Sübut etdik ki, nəinki yazılı mətbuatda, internet mediasında da öz sözümüzü deyə bilərik”




## MÜSAHİBİMİZ “SƏS” QƏZETİNİN BAŞ REDAKTORU BƏHRUZ QULİYEVDİR

*(Əvvəli ötən sayımızda)*

***— “Səs” İnformasiya Agentliyi də fəaliyyət göstərir. Agentlik hansı zərurətdən yarandı?***

— İnformasiya əldə etmək, istehsal etdiyimiz məlumatı sürətli olaraq oxuculara çatdırmaq üçün internet resursları hələlik alternativsizdir. Buna görə, 2008-ci ildə qərara aldıq ki, “Səs” qəzetinin nəzdində eyniadlı informasiya agentliyi yaradaq. Proqnozlar bizi aldatmadı. Qısa zaman kəsiyində “Səs” İnformasiya Agentliyi özünə geniş oxucu auditoriyası qazana bildi. Və sübut etdik ki, nəinki yazılı mətbuatda, eyni zamanda internet mediasında öz sözümüzü deyə bilərik. “Səs” qəzetinin 20 yaşı tamam olan tarixdə — 2011-ci ilin yanvar ayında Azərbaycanda az tətbiq edilən internet televiziyasının əsasını qoyduq. Dövrümüz üçün tamamilə yeni olan bu media vasitəsi xəbər ötürmə sürətinə görə hər gün menyumuza icazəsiz daxil olan telekanalları da üstələyir. Bundan başqa internet televiziyası telekanallardan fərqli olaraq tamaşaçı zövqünü idarə etmir, idarə olunur. İstədiyin verilişə istədiyin vaxt, istədiyin qədər baxa bilərsən.

Onu da qeyd edim ki, hər iki media qurumunun xarakterinə uyğun jurnalist və texniki heyəti var və həmin kollektiv növbəlilik prinsipi ilə 24 saat fəaliyyət göstərir. Daha bir yenilik, SİA-nın törəməsi olan siasport.az idman portalını yaratmaqla idman məlumatlarına ehtiyacı olan oxucularımızı təmin etməyi düşündük və ümidlərimiz özünü doğrultdu. Bu gün “Səs” qəzeti özündə 4 media qurumunu və 1 turizm agentliyini (SİATRAVEL, internet ünvanı: siatravel.az) birləşdirən iri media qrupudur. Biz əslində ulu öndərimiz Heydər Əliyevin üzərimizə qoyduğu missiyanı yerinə yetiririk. Ümummilli liderimizin Yeni Azərbaycan




Partiyasının 10 illik yubileyində söylədiyi “Ümid edirəm ki, “Səs” qəzeti bundan sonra da inkişaf edəcək, modernləşəcək” tezisini həyata keçiririk. Qətiyyətlə demək olar ki, ulu öndərimizin layiqli davamçısı Prezident İlham Əliyev hakimiyyətdə olduğu müddətdə Azərbaycan mətbuatı daim inkişaf edəcək, söz və mətbuat azadlığı qorunacaq və biz də mətbuata yaradılmış bu imkandan bəhrələnərək oxucularımızı daha operativ məlumatlarla təmin etmək üçün daha modern vasitələr tapacağıq.

***— Dövlətin mətbuata qayğısını, konkret olaraq KİVDF-nin dəstəyini necə qiymətləndirirsiniz?***

— Müstəqilliyinin ilk illərində Azərbaycanda söz, fikir və məlumat azadlığı sahəsində ciddi problemlər mövcud idi. KİV-də senzuranın tətbiq edilməsi, mət-







buat orqanlarının maddi-texniki bazasının zəifliyi, jurnalistlərin peşəkarlığının aşağı səviyyəsi olması fikir, söz və məlumat azadlığının inkişafına mane olurdu.

Çatışmazlıqları aradan qaldırmaq üçün islahatların keçirilməsinə zərurət yaranmışdı. Prezidentinin 1998-ci il 6 avqust tarixli Fərmanı da bu islahatlardan birincisi idi. Beləliklə, senzura ləğv edildi. 1999-cu ildə “Kütləvi informasiya vasitələri haqqında” yeni Qanun qəbul edildi, 2001-2002-ci illərdə beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq şəraitində bu sahədəki qanunvericilik bazası tam təkmilləşdirilərək, beynəlxalq standartlara uyğunlaşdırıldı. Sonra 2000-ci ildə Mətbuat



və İnformasiya Nazirliyi ləğv edildi, 2003-cü ildə isə Mətbuat Şurası yaradıldı. Bu statistikanı bir daha təkrarlamaqda məqsədim budur ki, görülən işlərin, yaradılan münbit şəraitin nəticəsidir ki, bu gün Azərbaycanda 3500-dən artıq kütləvi informasiya vasitəsi dövlət qeydiyyatından keçib. Onların əksəriyyəti qəzet və jurnal, 30-dan çoxu informasiya agentliyi, 44-ü elektron kütləvi informasiya vasitəsidir. Ölkədə 7 ümumrespublika, 14 regional televiziya kanalı, 12 kabel televiziyası və 11 radiostansiya fəaliyyət göstərir. Və nəhayət dövlətimizin mətbuata dəstəyinin bariz nümunəsi kimi Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradıldı. Məqsəd də bundan ibarətdir ki, mətbuat inkişaf etsin, texniki imkanlarını genişləndirsin, redaksiya kollektivinin işgüzarlığını artırmaqla yanaşı jurnalistlərin maddi durumunu da yaxşılaşdırsın. Bundan əlavə, Prezidentimizin mətbuata qayğısını bir fakla da söyləmək olar ki, bu da ehtiyacı olan jurnalistlərə mənzillərin verilməsi ilə bağlı KİVDF-yə Prezident Fondundan jurnalistlərin mənzil-məişət şəraitini yaxşılaşdırmaq üçün 5 milyon manat vəsaitin ayrılmasıdır. Xüsusi olaraq qeyd etmək istəyirəm ki, heç bir dövlətdə buna oxşar humanist addım hələ atılmayıb. İlk dəfə Prezident İlham Əliyev tərəfindən bu xeyirxah əmələ imza qoyuldu. Bunu yalnız alqışlamaq lazımdır.

***— Mətbuat Şurası “Səs” qəzetini hərdən “cəzalandırır”. Bu nədən baş verir?***

— Bilirsiniz, hər qurum öz missiyasını yerinə yetirir. Mən deməzdim ki, Mətbuat Şurası bizi cəzalandırır, əgər kimsə bizdən, bizim yazdıqlarımızdan narazılıq edib Şuraya müraciət edirsə, bunu normal qarşılamaq lazımdır. Həmin şəxsin əməlləri ictimai xarakter daşıyırsa və biz bu faktı dərc ediriksə bu da normaldır. Hər halda biz mətbuat haqqında qanunu, jurnalistlərin davranış qaydalarını qəzetimizdə haqqında yazdığımız şəxslərdən daha yaxşı bilir və tətbiq edirik. Problem bizdə deyil.

***— Gələcək fəaliyyətinizlə bağlı fikirlərinizi eşitmək istərdik.***

— Planlarımız az deyil. “Səs” qəzetinin nəzdində yaratdığımız bütün informasiya resurslarını inkişaf etdirmək, daha təkmil formada təqdim etmək əsas hədəfimizdir. Çalışırıq ki, yeni texnologiyalardan istifadə etməklə oxucuları yeni, qərəzsiz, tərəfsiz məlumatlarla təmin edək. Çevikliyi və təqdimatı ilə seçilən SəsTV internet televiziyasını isə xüsusi diqqətdə saxlayırıq. Yəqin ki, SəsTV-nin tamaşaçılarını yeniliklərimizlə yaxın vaxtlarda tanış edə biləcəyik.

**Pərviz SADIQOV**

**Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub**

# "Dilimiz, ədəbiyyatımız və kimliyimiz uğrunda" Cavad Heyət mübarizəsi

***Şəfəq NASİR***

Cavad Heyətin bütün mövzuları türkçülüyün yaranması, təşəkkülü tarixindən başlamış, görkəmli sənətkarların şəxsiyyətinə böyük sayqısından yaranıb. Mirzə Məhəmməd Saib Təbrizinin həyatı, ədəbi irsi, fars və türk dillərində yazdığı əsərlərinə ədəbiyyatşünas nəzərləri ilə diqqət yetirməsi, “fars qəzəlinin sonuncu ustadı kimi tanınması”, dövrün ictimai ağrılarını beytlərində böyük sənətkarlıqla açması da onun şəxsiyyətinə və yaradıcılığına vurğunluqdan qaynaqlanıb. Saib Təbrizi yaradıcılığından təsirlənən Nabi, Naili, Nişati, Şeyx Qabilin təkcə adlarını çəkməklə kifayətlənməyən müəllif, onların dövrünə, ədəbi mühitinə qısa, lakin dolğun şəkildə işıq çiləmiş, əsərlərindən nümunələr vermişdir. Bu şairlərin həyatının maraqlı məqamları, əsərlərinin məzmunu, ideyası, ədəbiyyat tarixindəki mövqeyi araşdırılmışdır. Başqa sözlə, müəllif mövzunun içində yeni bir mövzuya yol açaraq maraqlı faktlar aşkarlamış, oxucuda zəngin təəssürat yaratmağa nail olmuşdur.

İstər “Türkiyə ədəbiyyatı”, istərsə də “Mərsiyə ədəbiyyatı” məqalələrini oxuyanda müəllifin kitaba yazdığı “Bir neçə söz”ündəki “Bu məqalələri Arazın şimalında yaşayan bacı-qardaşlarımızın oxumaları həm lazım, həm də faydalıdır. Bu məqalələrdəki mətləbləri başqa mənbələrdə tapa bilməzlər” fikrini xatırladım. Adlarını çəkdiyim məqalələrlə tanış olduqda doktorun nə qədər haqlı olduğunu gördüm. XIII əsrdən başlayaraq XX əsrin ortalarınadək ədəbiyyatın keçdiyi yol, dil və mədəniyyətinin inkişafı (“Divan”-dan başlamış romanadək), görkəmli sənətkarlar haqqında, onların şəxsiyyəti, əsərləri, ədəbi-nəzəri düşüncələri ilə bağlı ilkin və maraqlı məlumatlar müəllifin böyük zəhməti və səyi, ciddi mütaliəsi nəticəsində meydana gəlmişdir. Bu məqalədə haqqında bəhs olunmuş şairlərin ədəbi irsinin xarakterik xüsusiyyətləri, əsərlərinin məzmun və mahiyyətindən, ideyasından doğan məntiqi təhlil və təriflər ilə zəngindir. Bunlar onu göstərir ki, C.Heyət ömrünün böyük payını dünyanın məşhur kitabxanalarında, arxivlərində keçirmiş, ədəbiyyatımızın təşəkkülü dövründən başlamış, günümüzəcən bir çox sənətkarlar haqqında, eləcə də dövrlərin xarakteri ilə bağlı çox qiymətli məlumatlar toplamışdır. C.Heyət Nizaməddin Məhəmməd Tufarqanlı, Seyyid Fəttah Mərağeyi, Hacı Xudaverdi, Dəxil Mərağeyi, Məhəmmədəmin Dilsuz, Mirzə Məhəmmədtəqi Qumri, Molla Məhəmməd Naxçıvani, Safi Təbrizi, Hacı Rza Sərraf kimi şairlərin haqqında mükəmməl bilgi verəndən sonra bu şairlərin də Kərbəla faciəsi mövzusunda yazdıqları əsərlərə ayrı-ayrılıqda diqqət yetirmiş, şeirlərinin ideya-məzmununu açıqlamış, dil xüsusiyyətləri barədə fikirlər söyləmiş və hər birinin əsərindən parçalar səsləndirmişdir. Bu əsərləri və onların müəllifləri haqqında ən qiymətli məlumatları özündə ehtiva etdiyindən doktorun haqqında bəhs açdığımız belə dəyərli yazısını gələcək tədqiqatlar üçün səhih mənbə hesab etmək olar.

C.Heyət Azərbaycan və Türkiyə ədəbiyyatının görkəmli nümayəndələrindən bir çoxu haqqında məqalələr yazarkən onların hər birinin həyat yolunu, yaradıcılığını, şəxsiyyətin xarakterini, əsərlərinin ideya-nəzəri görüşlərini, fərqli, səciyyəvi xüsusiyyətlərini yetərincə dolğun şəkildə təqdim edib. Bu mənada XX əsrin görkəmli şairlərindən olan Akif Mehmet haqqında yazı da şairin özəlliklərlə zəngin həyat yolunun inadkar bir şövqlə araşdırılıb ərsəyə gətirilməsi, onu

**(Əvvəli ötən sayımızda)**

qəlbən duyması baxımından diqqəti cəlb edir. Bu duyum və təhlilin ifadəliliyi o qədər aydın və zəngindir ki, bunlar şairi dərindən tanımağa, dərk etməyə yetir, həm də ədəbi yaddaşa öz ziyasını salır.

Məhəmməd Əmani kimdir, hansı dövrdə yaşayıb, o, əsərlərində nə kimi fikirlər ifadə edib? O, mövzuyla bağlı araşdırdığı mənbələri düşüncəsində cilalayarkən M.Əmaninin divanı haqqında ilk dəfə XIX əsrdə ingilis alimi C.Riyönün məlumat verdiyini açıqlayır. Bundan sonra böyük qədirdanlıqla bu sahədə tədqiqat aparan, əsərlərini təhlil edən və onu “orta əsr realist şeirinin nümayəndəsi kimi qiymətləndirən” görkəmli ədəbiyyatşünas-alim Həmid Araslının, şeir məcmuəsinin nəşrinə rəvac verən Əliyar Səfərlinin zəhmətini dəyərləndirir. Müəllif yazır: “Əmani mənzum hekayəni mənzumənin tərkibindən ayırıb müstəqil bir ədəbi növə çevirmişdir. Onun mənzum hekayələri satirik və güldürücü məzmunu və obraz (personaj) çeşidliyinə görə diqqəti cəlb edir. Həyat həqiqətinə sadiq qalan şair öz hekayələrini inandırıcı, təbii və sadə əhvalatlar üzərində qurur. Onun hekayə qəhrəmanları keçilməz yollardan keçmir, ideal səviyyəsinə yüksəlməyə meyl göstərmir, əksinə, həyati simaları ilə diqqəti cəlb edir”. Göründüyü kimi C.Heyət Əmaninin əsərlərini dərindən öyrənərək, onun ətrafında aparılan araşdırmalarla tanış olmuş, sənətkarın Azərbaycan ədəbiyyatındakı mövqeyini qiymətləndirmişdir.

Mahmud Kaşğarlının “Divani-lüğati-türk” əsərində diqqəti çəkən ən mühüm cəhət isə bu möhtəşəm əsərin milli təəssübkeşlik hissindən doğan böyük bir məhəbbətlə tədqiq olunmasıdır. M.Kaşğarlının özünün kitabın təqdimində yazdığı fikirlərlə tanış olanda bir türk olaraq qürur hissi keçirməyə bilmirsən. Oxuyuruq: “Xudavənd yer üzündə qüdrəti türklərə bəxş etmişdir və buna görə onların dilinin öyrənilməsi faydalıdır. Bu kitabı türk dilinin öyrənilməsi üçün ərəblərə yazdım”. C.Heyət sənətkarın doğulduğu Kaşğarın Qaraxani türklərinin mədəniyyət mərkəzi olmasını, onun bir səyyah kimi müsəlman ölkələrini gəzməsni, elə bu səyahətlərdə də türklərin yaşayış tərzini, adət-ənənələrini öyrənməsini tərcümeyi-halının araşdırılması fonunda tədqiq etmişdir. Sonda müəllif əsəri belə dəyərləndirir: “Divani-lüğati-türk” əslində qədim türk dili və mədəniyyətinin ensiklopediyasıdır və dünya türkoloqları üçün türk və türkşünaslıq haqqında ən qiymətli və mühüm mənbədir. Bu kitab türk ləhcələrinin tarixi tədqiqi baxımından bənzərsiz əsərdir. Kaşğarlı türk ləhcələrinin müqayisəli tədqiqi ilə 900 il əvvəl müqayisəli türkologiya məktəbinin bünövrəsini qoymuşdur. Bu münasibətlə “yeni türkologiyanın atası” adını almış V.Radlov “Divani-lüğati-türk” əsərinin müəllifi Mahmud Kaşğarlını “türkologiyanın atası” adlandırmışdır”.

“Yunus Əmrəyə umumi bir baxış” özünün dərinliyi, səciyyəsi ilə orijinaldır. C.Heyət onun haqqında apardığı araşdırmanı sistemli, həm də dolğun şəkildə ortaya qoyub. Bu araşdırmada Y.Əmrənin yaradıcılığına, ədəbi görüşlərinə, həyata baxışlarına yüksək əxlaqi dəyərlər, ictimai həqiqətlər prizmasından bir baxış duyulur. Müəllif şairin düşüncələrinin “üç məfhu-



mun, “Tanrı, insan, məhəbbət” üzərində qurulduğunu göstərir. Y.Əmrə yaradıcılığının güc mənbəyi də müəllifin qeyd etdiyi kim, Tanrı eşqidir. Şairin təmiz türkcə, əsasən xalqa müraciətlə yazdığı şeirlərinə münasibətini lakonik, eyni zamanda zəngin və sərrast fikirlərlə ifadə edib. Onun ictimai-ədəbi mühitinə, xalqın güzəranına, ağrı-acılarına, şeirə, sənətə baxışlarına aydınlıq gətirib. Bu yazıya güclü təhlil-təhkiyə hakim olduğu kumi, həm də Y.Əmrənin böyük obrazı özünün incə və dolğun ştrixlərilə yaradılıb. Bu düşüncələr C.Heyətin şairin yaradıcılığına ruhən bağlılığından, həm də Y.Əmrə şəxsiyyətinə böyük səcdədən, məhəbbətdən qaynaqlanıb. Və bütün bunlar şairi böyük həssaslıqla duymaqdan yaranıb. Bu da şairin bağrından qopan ağiqliyinin təcəssümü:

**Eşqin aldı bəndən bəni,**
**Bana səni gərək, səni.**
**Bən yanaram dünü günü,**
**Bana səni gərək, səni.**

C.Heyət bu və ya digər formada mütəmadi olaraq Azərbaycan ədəbiyyatını arşdırır, görkəmli şəxsiyyətlərin həyatına, böyük ideyalarla zəngin yaradıcılığına ədəbi nəzər yetirir. Bununla da ədəbiyyatşünaslığa zaman-zaman öz töhfəsini verir. “XX əsrdə güney Azərbaycan ədəbiyyatı” da dərin araşdırmaların, ciddi faktların ortaya qoyulması ilə diqqəti cəlb edir. Müəllif bu araşdırmasını dövrlər üzrə qruplaşdırır. Bu da söz-sənət adamlarının öz zamanında tanınması, mövzularının, həyata baxışlarının öyrənilməsi, ədəbi yaddaşa köçürülməsi anlamında xüsusi əhəmiyyət kəsb edir. C.Heyət istər hansısa dövrün ədəbiyyatına ümumi baxışlarında, istərsə də haqqında ayrıca bəhs açdığı şairin həyatına, nəzəri görüşlərinə diqqət edərkən, sənətkarların əsərlərində ifadə olunmuş başlıca xüsusiyyətləri göstərməklə həyata baxışlarını işıqlandırmağa çalışmışdır. Müəllif quzey Azərbaycanında baş verən siyasi hadisələrin, azadlıq dalğasının güneydə məşrutə inqilabına səbəb olduğunu qeyd edir. Eləcə də məşrutə inqilabına ədəbi baxımdan daha çox Sabirin şeirlərinin və C.Məmmədquluzadənin “Molla Nəsrəddin” jurnalının təsiri olduğunu bildirir. Bu bölmədə bir sıra şairlərin dili, əsərlərinin mövzusu, mənəvi-ictimai problemləri haqqında yığcam şəkildə təsəvvür yaratsa da, bunlar əslində XX əsr güney Azərbaycan ədəbiyyatı, onun yaradıcıları haqqında bütöv təsir bağışlayır. Yəni Şəbüstərli Möcüz, Həddad, Marağalı Kərimi, Etimad, Sahir, Şəhriyar, Məhəmməd Əli Məhzun, Səhənd, Baxçaban kimi aydınların timsalında XX əsr güney ədəbiyyatı hər cür yasaqlara baxmayaraq həmin dövr ədəbiyyatının parlaq mənzərəsini yaratmış olur. Böyük mütəfəkkir hələ də anadilli ədəbiyyatımızın inkişafındakı ləngimələrdən narahatlığını bildirir. O, məqalənin sonunda yazır: “Aydınlarımızın bir çoxu öz ana dillərindən qafil qalmış, onun zənginliyindən və ədəbiyyatımızın əzəmətindən bixəbərdirlər. Yarım əsrdən çox bir müddətdə mədəni haqlarından məhrum qalan bir xalqdan bundan artıq gözləmək doğru olmaz. Biz indi mədəni məhrumiyyətlərin buraxdığı müşküllərə qarşı durmağa çalışırıq...”

“Almaz İldırımın şeirlər məcmuəsi”ndə şairin ruhunu duyan müəllif, şeirlərindən vətən həsrəti, vətənçilik, vətən məhəbbəti süzülən duyğuları pərdə-pərdə açır. Müəllif onun vətənindən, dostlarından umacaqlarını, sızıltılarını, uzaqlarda qalan vətənin yollarına dikilən baxışlarını, azadlıq havasına çırpınan ürəyini, bu ürəyin yaratdıqlarını yalnız bir ədəbiyyatşünas kimi deyil, həm də vətənpərvər, insanpərvər bir türk olaraq tədqiq edir. Şairin hali-pərişan həyatını müəllif belə qələmə alıb: “Almaz İldırım özünü “türk oğlu türk” bildiyi halda, Türkiyədə də qürbət hissi ilə yaşayır və bütün ömrünü ana yurdu Azərbaycan və doğma elinin həsrəti ilə keçirir. Çünki şair vətənini qızıl rusların işğalında və millətini də bolşevik rusların boyunduruğu altında görür. Həm də ana yurdunun ətrafını dəmir pərdə sardığı üçün oraya əli çatmır, vətən həsrəti, el eşqi ilə yanır, alovlanır və bu yanğını, atəşli duyğularını şeirlərinə tökür”

Məlumdur ki, XVI əsrdə qələmə alınmış möhtəşəm “Dədə Qorqud” dastanı ətrafında çox maraqlı tədqiqatlar aparılmışdır. Və zamanında bunlar ictimai-ədəbi fikrin diqqətini cəlb etmiş, müzakirə və təhlil obyekti olmuşdur. C.Heyət də səksəninci illərdə “Varlıq”da “Dədə Qorqud kitabı”. Ölməz söz xəzinəmizdən incilər” adlı məqaləylə çıxış edib. Dastan haqqında müəllifin maraqlı məlumatları oxucuda yeni, həm də zəngin təəssürat oyadır. O, dastanın türkdilli xalqlar arasında məhz Azərbaycan və Şərqi Anadolu dilinə yaxınlığını, mənsubluğunu qeyd edir. Müəllif dastanda türk sözlərini arayıb-seçib, maraqlı bir qruplaşdırma aparıb. Şimali və cənubi Azərbaycanda bu gün də işlədilən, yaxud unudulan sözləri, az da olsa fars, ərəb mənşəli sözləri ayırıb təqdim edib. Müəllifin seçib-ayırdığı xeyli sözlərlə tanış olanda gözlərimin qarşısında dədəmiz Qorqudun uca, əzəmətli varlığı canlanır, qulağıma cəng səsi, igidlərimizin at çapıb, qılınc oynatması, Qaraca çobanın nərəsi gəlir. Bu sözlər bizə ulularımızın yaşam tərzindən, mərdliyindən, qəhrəmanlığından xəbər verir. Bu gün bunları bizə təzə-tər nəfəsdə xatırladan, qəlbimizi iftixar hissilə dolduran, böyük dilçi, ədəbiyyatşünas Cavad Heyətdir.

C.Heyətin bir tədqiqatçı kimi təcrübəsi və səriştəsi ondadır ki, o ilk dəfə tədqiq olunan mövzu ilə bağlı böyük kitabxanalarda, institutlarda axtarışlar aparır, sənətkarın dövrünü, müasirlərini tədqiq edir. Bu sahədə az-çox yazılmış tədqiqat əsərləri ilə ətraflı tanış olur, zəngin məlumatlar toplayır. Mövzunu dərindən-dərinə öyrənəndən sonra tədqiq edir. “Füzulinin ədəbi təsiri və təəssürü” əsəri də şair haqqında aparılmış tədqiqatlar, yazılmış saysız əsərlər içərisində mövzuya yanaşma tərzi, özgür baxışları ilə fərqlənir. Məlumdur ki, hər bir sənətkar özündən əvvəl yaşamış ədəbi şəxsiyyətlərin həyatı, yaradıcılığı ilə tanış olur və müəyyən mənada onların təsiri altında əsərlər yazır. Müəllif araşdırmalarına əsasən qeyd edir ki, Füzuliyə təsir edən Cami, Hafiz, Nizami, Hatifi, Səlman və Katibi içərisində o, daha çox Nəvaininin təsiri altında özünün ölməz əsərlərini yazmışdır.

Müəllif bu istiqamətdə tədqiqatını dərinləşdirərək ustadın özünün təsirləndiyi, eləcə də Füzulidən təsirlənib ona nəzirələr yazan şairlərin də yaradıcılığında aşkarladığı nümunələrdə müqayisəli təhlillər aparır. Burada Füzulinin zamanında əsərlərinin türkdilli xalqlar arasında sevilməsi, Azərbaycan və Anadolu şairlərinə təsiri əhatəli şəkildə öyrənilmiş, bir çox şairlərin şeirlərindən gətirilən parçalarda təqdim edilmişdir. Bu araşdırmalardan müəllif aydınlaşdırmışdır ki, Azərbaycan şairləri arasında nəzirə yazmaq Füzuli ilə başlamış və XIX əsrin ikinci yarısında dəb halına gəlmişdir.

Məlumdur ki, tədqiqat xarakterli yazılar üçün başlıca meyar hər hansı bir sənətkarı tədqiq edərkən onu öz dövrünün ictimai-sosial vəziyyəti, mənəvi-əxlaqi, ədəbi mühiti içərisində öyrənib tədqiq etməkdir. Bu mənada C.Heyətin “Nəvai” əsəri şairin həyatı, ədəbi mühiti haqqında xarakterik xüsusiyyətləri, zəngin yaradıcılıq yolunu özündə ehtiva etməsi ilə maraq doğurur. Bəlkə də Nəvainin həyatının çox maraqlı məqamları, onu yetişdirən mühiti, türk dili və mədəniyyətinin inkişafındakı rolu, bütünlükdə ədəbi-ictimai taleyinə baxışları məhz C.Heyətin təqdimatında ətraflı öyrənmək mümkündür. Müəllif bu yazıda Nəvainin böyüklüyünü, xarakterini açır. Əsərlərinin yazılma tarixini, dövrünün ədəbi mühitini işıqlandırır. C.Heyət Nəvainin iyirmi iki əsərdən ibarət külliyatını, beş kitabını (“Xəmsə”si) və dörd kitabda təşəkkül tapmış divanının adlarını açıqlamış, yaşına görə illərini sıralamış, Nəvai dilinin ifadə xüsusiyyətlərini təhlilə cəlb etmişdir. Nəvainin əsərlərinin yaxşı başa düşülməsi üçün müxtəlif zamanlarda görkəmli şəxsiyyətlər tərəfindən lüğət kitablarının yazıldığnı, “Xəmsə”dəki dastanlara, “Lisanüt-teyr-ə” Kamaləddin Behzad və şagirdləri tərəfindən tablolar çəkildiyini, haşiyələrində gözəl nəstəliq xətti ilə tablolara aid şeirlər həkk olunduğunu göstərir. Onların əslinin Oksford Universitetinin Bodlian kitabxanasında saxlanılması haqqında məlumatlar da C.Heyətin ciddi araşdırmaları sayəsində üzə çıxarılmışdır. Tədqiqatçının onun yaradıcılığı ilə bağlı söylədiyi bütün fikirləri maraqlıdır. Çünki onlar ümumilikdən kənar, məhz mütəfəkkirin öz əsərlərinin ifa etdiyi müdrikanə kəlamlarından süzülən məna-dəyərlərdir. Burada müəllifin bir yanaşmasına nəzər yetirmək də zəruridir: “Nəvai qələmini cəmiyyətin islah və tərəqqisi üçün işlətmiş, həmişə millətini düşünərək xalqı üçün yazmışdır. Gənclik illərinə aid əsərlərində onun şəxsi duyğu və yanğılarını görmək mümkünsə də, kamillik çağına gələndən sonra həmişə xalqının dərdlərini duymağa və onları yazmağa başlamışdır. Onun dərdləri cəmiyyətin dərdləri, sevinci xalqın sevinci olmuşdur”.

**(Ardı var)**

# Sərvət Kabaklıya Azərbaycanda Fəxri Doktor adı verilib

1978-ci ildə İstanbul şəhərində görkəmli ziyalılar Cəlal Bayar, Süleyman Dəmirəl, Alparslan Türkeş, Əhməd Kabaklı, Məhərrəm Ergin, Nəcməddin Hacıəminoğlu, Nevzat Atlığ, Təhsin Banguoğlu, Sabahəddin Zaim və başqaları tərəfindən əsası qoyulan Türk Ədəbiyyatı Vəqfi və bu nufuzlu qurumun başkanı Süleyman Sərvət Kabaklı uzun illərdən bəri türk ədəbiyyatına və mədəniyyətinə ləyaqətlə xidmət edir, çoxsaylı klassik abidələrin nəşrində və təbliğində mühüm və dəyərli işlər görür.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Elmi Şurasının bu yaxınlarda qəbul etdiyi qərar ilə Süleyman Sərvət Hacı Ömər oğlu Kabaklıya Azərbaycan — Türkiyə ədəbi-mədəni əlaqələrinin inkişafında xidmətlərinə görə "Fəxri Doktor" elmi adı verilmişdir.

S.Sərvət Kabaklı 13 Mart 1956-cı ildə Türkiyənin Elazığ şəhərində dünyaya gəlib. İlk, orta və lisey təhsilini Elazığda tamamlayıb. Universitet təhsilinə 1975-ci ildə Ərzurum Atatürk Universiteti Ədəbiyyat Fakültəsində başlayan S.Kabaklı 1981-ci ildə Fırat Universiteti Ədəbiyyat Fakültəsi Türk dili və ədəbiyyatı bölümündən məzun olmuşdur.

1979-cu ilin mayından etibarən "Tərcüman" qəzetinin İstanbuldakı mərkəzində müxbiri olaraq işə başlayıb. 1986-cı ildən etibarən qısa bir müddət "Yeni xəbər" qəzetində vəzifə aldıqdan sonra "Türkiyə" qəzetində fəaliyyətə başlayıb. İxlas Holding şirkəti yanında TGRT, Türkiyə qəzeti və İxlas Xəbər Agentliyinə Xəbər və proqram dəstəyi verən "Türk Dünyası Servisi"ni yaradıb və bu xidmətin "Ümumi koordinatorluğu" vəzifəsində uzun müddət çalışıb.

Sərvət Kabaklı İstanbula gəldiyi ilk gündən əmisi və böyük fikir adamı, ədəbiyyat tarixçisi Əhməd Kabaklının yanında olmuş, Türk Ədəbiyyatı Vəqfində fəaliyyət göstərmiş, 1980-ci illərdə Vəqf İdarəsində "Milli Sənətin səsi", "Türk ədəbiyyatı" jurnallarının baş redaktoru vəzifələrini həyata keçirmişdir.

Sərvət Kabaklı 41 illik peşə həyatı boyunca Müsəlman Türk Millətinin ictimai, milli və mənəvi məsələləriylə bağlı, İsmayıl Bəy Qaspıralının Türk Dünyası üçün göstərdiyi "Dildə, fikirdə, işdə birlik" hədəfinə iman və inancla sadiq qalmışdır. Başda Şərqi Türkistan Türklüğünün istiqlal iddiası olmaq üzrə; Azərbaycan, Krım, Ahıska, Kipr, Qərbi Trakya, Bolqarıstan və İraq Türklərinin çətinliklərini, dərdlərini, ağrılarını Türkiyə və dünya ictimaiyyətinə çatdırmaq üçün səy etmişdir. Bir Türk Dünyası səyyahı olaraq girişinin qadağan edildiyi Çin əsarəti altındakı Şərqi Türkistan xaricində bütün Türk ellərini ziyarətdə olub. Yazıları və televiziya verilişləri ilə Turan ellərinin ağrılarını, problemlərini dünyaya çatdırmışdır.

Azərbaycanın İstiklalında çox əhəmiyyətli bir mərhələ olan 20 yanvar 1990-cı ildə Bakıda yüzlərlə şəhid edilən Azərbaycan Türklərinin şanlı müqavimətini və 25-26 fevral 1992-ci ildə Qədim Azərbaycan torpağı olan Dağlıq Qarabağın Xocalı şəhərində erməni canilərinin reallaşdırdığı soyqırımı mətbuat yolu ilə Türkiyə və Dünya əfkarı-i ümumiyəsinə çatdıran ilk yazarlardan, ziyalılardan biri olmuşdur.



1983-cü ildə Baş nazir, daha sonra prezident seçilən Turqut Özalın yanında on il Türk Dünyası üzrə müşavir vəzifəsində çalışmışdır.

2001-ci ilin aprel ayında toplanan İdarə Heyətinin qərarı ilə Türk Ədəbiyyatı Vəqfinin Başkanı seçilmişdı. Sərvət Kabaklı eyni zamanda 1972-ci ildən "Milli sanatımızın səsi" və Türkiyənin ən nüfuzlu fikir — sənət jurnalı olaraq ayda bir dəfə nəşr olunan və 2012-ci ilin mart ayında 461 sayına çatan "Türk Ədəbiyyatı" jurnalının və 6 ayda bir nəşr olunan "Yeni Türk Ədəbiyyatı Araştırmaları" dərgisinin rəhbəri və imtiyaz sahibidir.



**Şəkildə Türk Ədəbiyyatı Vəqfi. Soldan: Aslan Cəfərov, Əjdər Ol, Əsəd Kabaklı, Hacıağa Almaszadə, Vaqif Bəhmənli, Azər Almas, Şahid Həbibulla, Asif Rüstəmli və Sərvət Kabaklı. İstanbul, 1 fevral 2012-ci il**

"Türk ədəbiyyatı" jurnalı Azərbaycanın Böyük Şairi və mütəfəkkiri Nizami Gəncəvi, Məhəmməd Füzuli, Məhəmmədhüseyn Şəhriyar, Bəxtiyar Vahabzadə, Anar Rzayev və digərləri olmaq üzrə Türkiyə və Dünya ictimaiyyətinə tanıdan jurnaldı. "Yeni türk ədəbiyyatı Araşdırmaları" jurnalı da Türkiyədən və Türk dünyasından olan, yeni türk ədəbiyyatı problemləri üzərində çalışan alimlərin elmi məqalələrini nəşr edir.

Türk Ədəbiyyatı Vəqfinin 2001-ci ildən sonra nəşrə hazırladığı və çap etdirdiyi ədəbiyyata, mədəniyyətə aid çoxsaylı kitablar, o cümlədən Əhməd Kabaklının 5 cildlik Türk Ədəbiyyatı, Divan ədəbiyyatı, Aşıq ədəbiyyatı, Şeir incələmələri, Yunis Əmrə, Çağlara hökm edənlər, Tofiq Fikrət, Mehmet Akif Ersoy, Məbəd və millət, Təməllərin duruşması (2 cilddə) və s. onlarla dəyərli əsərləri Süleyman Sərvət Kabaklının tərtibi, şərhi və ümumi rəhbərliyi ilə işıq üzü görmüşdür.

Onun rəhbərlik etdiyi Türk Ədəbiyyatı Vəqfi Ortaq türk ədəbiyyatının, mədəniyyətinin aktual problemlərinə həsr edilmiş elmi konfranslar, simpoziumlar, çərşənbə söhbətləri keçirən mötəbər elmi yaradıcılıq mərkəzi missiyasini şərəf və ləyaqətlə daşıyır.

**Əli ƏLİYEV,**
**AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi katibi**

# "Harput əfsanələri" kitabı Azərbaycan dilində

Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya elmləri doktoru Asif Rüstəmli Azərbaycan və Türkiyə ədəbi-elmi əlaqələri istiqamətində məhsuldar fəaliyyət göstərən ədəbiyyatşünaslardandır.

Çox əlamətdar haldır ki, müəllifin böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 850 illiyi münasibətilə vaxtilə Ankarada Azərbaycan Kültür Cəmiyyətinin Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə keçirdiyi Beynəlxalq Simpoziumla (1991) bağlı təəssürat və qeydləri və bu mötəbər elmi toplantının nüfuz sahibi olan nümayəndələri ilə apardığı müsahibələri respublikamızın mili müstəqilliyə qovuşduğu ilk illərdə — 1992-ci ildə "Çırpınırdı Qara dəniz...." adlı kitabça vasitəsilə geniş oxucu auditoriyasına ünvanlanmışdı. Heç təsadüfi deyil ki, iki il sonra ədəbiyyatşünas alimin Azərbaycan-Türkiyə ədəbi əlaqələri sahəsindəki xidmətləri adı çəkilən mötəbər qurumun ödülünə layiq görülməsi məhz məhsuldar tədqiqatçı əməyinə verilən yüksək dəyərin nəticəsi kimi qiymətləndirilə bilər.

Türkiyənin Elazığ şəhərində keçirilən Beynəlxalq simpoziumda (2008) məruzəsi, 2010-cu ildə Bakıda nəşr edilən elazığlı şairlərin şeirlənindən ibarət toplunun — "Elazığ çələngi" kitabının (Bakı, 2010, Şener Buludla birlikdə) tərtibi və çevirmələri Asif Rüstəmlinin çoxşaxəli fəaliyyətini dolğun əks etdirən faktlar sırasına daxildir.

Bu yaxınlarda ədəbiyyatşünas-alimin "Cəfər Cabbarlı: Həyatı, sənəti və mücadiləsi" monoqrafiyası Elazığın "Manas" nəşriyyatında doktor Süleyman Kaan Yalçının çevirməsində nəşr olunması bu qarşılıqlı əlaqə və faydalanmanın yeni bir mərhələyə qədəm qoymasını əyani olaraq təsdiqləyir. Bir neçə gündən sonra Cəfər Cabbarlının dünyaya göz açdığı Xızıda həmin kitabın beynəlxalq miqyasda təqdimat mərasimi keçiriləcəyi nəzərdə tutulmuşdur. Həmin mərasimə Türkiyədən dəvət olunmuş yazar və ədəbiyyatşnaslardan Şener Bulud, Hadi Önal, Süleyman Salmanoğlu, Sərvət Kabaklı, Əlİ Canpolad, Sərhəd Kabaklı, İsa Qocaqaplan, Çingiz Özdəmir və b. qələm əhlinin tədbirə qatılması gözlənilir və qürur doğurur.




A.Rüstəmlinin çevirməsində bu günlərdə Türk dünyasının görkəmli simalardan olan ədəbiyyat tarixçisi, publisist, qüdrətli söz ustası, Şeyxül-mühərrir Əhməd Kabaklının "Harput əfsanələri" (Bakı, "Ozan", 2012) kitabı nəfis şəkildə işıq üzü görmüşdür. Kitaba A.Rüstəmlinin "Yazarların xocası və ucası" adlı ön sözü və Türk Ədəbiyyatı Vəqfinin Başkanı Sərvət Kabaklının "Əsər haqqında bir neçə söz"ü oxucUlarda Əhməd Kabaklının həyatı, şəxsiyyəti, ədəbi-elmi və ictimai fəaliyyəti haqqında yetərincə təsəvvür yaradır. Əsərin redaktoru görkəmli folklorşünas-alim, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev, xeyriyyəçisi isə "Azərbaycan Bayrağı" ordenli, Qarabağ müharibəsinin iştirakçısı, misgərlik incilərinin kolleksiyaçısı Şahid Həbibulladır.

"Harput əfsanələri" kitabı on bir əfsanə və mifik elementlərlə zəngin olan hekayələrdən ibarətdir. Bu hekayələr, əsasən uşaqlar üçün işlənilmiş, ancaq türk etnik mədəniyyətinin dərin qatlarına gur işıq salan bu yazılar yeniyetmə və böyüklər üçün də eyni dərəcədə maraq doğuracağı şübhəsizdir.

"Harput əfsanələri"ndəki hekayələr müxtəlif tarixi dövrlərin həqiqətlərini, bütövlükdə türk düşüncə tərzini, dini-əfsanəvi və mifik dünyagörüşünü dolğun surətdə əks etdirməkdədir. Bu baxımdan kitabdakı "Əjdaha daşı", "Mərcan", "Ay tutmaca oyunu", "Munzur Baba" kimi hekayə-əfsanələr tarixin ayrı-ayrı dönəmlərində baş verən hadisələrə güzgü tutur.

Əhməd Kabaklının uşaqlıq və yeniyetməlik çağları ilə uzvü vəhdətdə baş verən hadisə və olayların təqdimi kitaba daha oxunaqlıq və hissi-emosional ovqat aşılamaqdadır.

Qədim Harput qalasının bir coğrafi məkan kimi özəlliklərinin, əsrarəngiz təbiətinin, burada yaşayan insanların adət-ənənəsinin yetərincə boy göstərdiyi bu kitabın oxucular tərəfindən maraqla qarşılanacağına dərin inamımız var.

**Qürbət MİRZƏZADƏ**
**filologiya üzrə fəlsəfə doktoru**

# "Astana-Arkau" Türk Musiqisi Festivalı "Bozqurdun 10 oğlu" ilə açılacaq

Beşinci dəfə təşkil olunan "Astana-Arkau" Türk Musiqisi Festivalının Təşkilat Komitəsi tədbir ərəfəsində Astanada mətbuat konfransı keçirib.

APA-nın məlumatına görə, konfransda məşhur qazax musiqiçisi Ramazan Stamqaziev, türkiyəli ifaçı İrfan Gürdal, Sibirdə yaşayan türk mənşəli şor xalqının musiqilərini ifa edən Çıltıs Tannaqaşeva, prodüser Askar Umarov və rejissor Nurkanat Jakıpbayev iştirak ediblər.

Qeyd edək ki, V "Astana-Arkau" Türk Musiqisi Festivalı iyulun 5-7-də Astanadakı Sülh və Həmrəylik Sarayında keçiriləcək. Artıq beşinci ildir keçirilən festivalın məqsədi türk dünyasının və türk musiqi sivilizasiyasının birliyini nümayiş etdirməkdir. Tədbirin informasiya dəstəyi "APA-Group" mediaholdinqi, "TRT-Avaz" telekanalı, Başqırdıstan sputnik televiziyası və "Qazaxıstan" Respublika Teleradiokorporasiyasına məxsusdur.

Festival qazax və türk dillərində aparılacaq. İlk dəfə olaraq aparıcı Türkiyədən olacaq. Bu, türk musiqisinin məşhur aparıcısı, Türk Musiqisi Mərkəzinin aparıcı əməkdaşı İrfan Gürdaldır.

Festivalda Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Azərbaycan, Türkiyə, Qaraqalpaq, Tatarıstan, Başqırdıstan, Qaqauz Yeri, Tıva, Yakutiya, Dağlıq Altay, noqay və uyğurların nümayəndələri iştirak edəcək. Bundan başqa, itməkdə olan azsaylı türk xalqlarından uranxaylar, şorslar və teleutlar da ilk dəfə olaraq tədbirə qatılacaq.

Tədbir mənşəyini əks etdirən "Bozqurdun 10 oğlu" adlı dini-tarixi kompozisiya ilə açılacaq.

# Şəkidə "İpək Yolu" III Beynəlxalq musiqi festivalı keçirilib

Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Bəstəkarlar İttifaqının və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən musiqi bayramında Türkiyə, Gürcüstan, İran və Koreya Respublikasının, eləcə də Azərbaycanın milli musiqi, folklor və teatr kollektivləri çıxış ediblər.

İyulun 4-dək davam edən festivalın ilk günündə Şəki xanları sarayının həyətində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı solistlərinin iştirakı ilə Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası əsasında hazırlanmış "Arşın malçı İpək Yolunda" musiqili hekayət-tamaşa nümayiş etdirilib.

Tədbirdə şəhər icra hakimiyyətinin başçısı Elxan Usubov və festivalın bədii rəhbəri, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadə çıxış edərək zəngin tarixə, qədim dövlətçilik ənənələrinə, yüksək mədəniyyətə malik olan Şəki şəhərində növbəti "İpək Yolu" Beynəlxalq musiqi festivalının keçirilməsini ölkənin mədəni həyatında mühüm hadisə kimi dəyərləndirib.

Qeyd olunub ki, artıq üçüncü dəfədir keçirilən "İpək Yolu" Beynəlxalq musiqi festivalının öz yolunu yenidən Şəki şəhərindən salmasının önəmli səbəbləri vardır. Məlum olduğu kimi, Şəki şəhəri 2012-ci ildə TÜRKSOY-un qərarı ilə "Türk xalqlarının qeyri-maddi mədəni irs paytaxtı" elan edilib. Eyni zamanda, 2012-ci ildə Azərbaycan və dünya memarlığının nadir incisi hesab olunan Şəki xanları sarayının 250 illik yubileyi də qeyd edilir:"Xan sarayı"nın yubileyinin Beynəlxalq musiqi festivalı günlərində qeyd olunması respublikamız üçün çox əlamətdar hadisədir".

Tədbirdə həmçinin festivalın əsas qayəsinə uyğun olaraq, bu dəfə konsertlər memarlıq abidələrinin fonunda, "Xan sarayı", Yuxarı və Aşağı karvansaraylar, "Cənnət bağı" kimi tarixi məkanlarda keçiriləcəkyi bildirilib. Təbii ki, burada müxtəlif ölkələrin milli musiqisi müxtəlif folklor alətlərinin, milli geyimlərin, qədim ornamentlərin nümayişi ilə, tarixi-memarlıq abidələrinin ecazkar ab-havası ilə qovuşacaq.

Festivalın açılışı günündə tamaşaçılara təqdim olunan kompozisiyada əsərin qəhrəmanları — arşın malçı cildinə girmiş tacir Əsgər və gözəl bəy qızı Gülçöhrə, hazırcavab Asya və tədbirli Süleyman bəy, ahıl yaşlarında bir-birinə bənd olan Soltan bəy və Cahan xala, məzəli və sadiq nökərlər Telli və Vəlinin məhəbbət sərgüzəştləri operettanın ölməz musiqisi ilə yanaşı, milli xalq rəqsləri və mahnıları fonunda cərəyan edir. Bütün musiqili hekayətin birləşdirici məqamı isə, Arşınmalçının məşhur mahnısı olub.

Əməkdar incəsənət xadimi Hafiz Quliyevin quruluş verdiyi tamaşanın dirijoru və xormeysteri Əməkdar incəsənət xadimi Sevil Hacıyeva, baletmeysteri Xalq artisti Mədinə Əliyevadır.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solistlərindən Gülüstan Əliyeva, Fərid Əliyev, Afaq Abbasova, Məhsəti Cabbarova və digər ifaçıların çıxışlarını tamaşaçılar alqışlarla qarşılayıblar.

**GÜNEL**

## Polyak rejissor "Azərbaycanfilm" Kinostudiyasında ustad dərsləri keçirəcək

Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının bazasında görkəmli polyak kinorejissoru Kşiştof Zanussinin kinorejissorlar üçün ustad dərsləri təşkil ediləcək. Mədəniyyət və Turizm Nazirliyindən APA-ya verilən məlumata görə, ustad dərsləri iyulun 12-dən 19-dək baş tutacaq. təcrübə mübadiləsi "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilir.

## Nizami Gəncəvinin 870 illiyi Bakıda silsilə tədbirlərlə qeyd olunacaq



Oktyabr-noyabr aylarında Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsi tərəfindən dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyi münasibəti ilə silsilə tədbirlər keçiriləcək. Bu barədə APA-ya Mədəniyyət və Turizm Nazirliyindən məlumat verilib. Qurumun tabeçiliyində olan kitabxanalar, mədəniyyət evləri və klublar, mərkəz və muzeylər, uşaq musiqi və incəsənət məktəblərində Nizami Gəncəviyə həsr edilmiş elmi konfranslar keçiriləcək, şairin əsərləri əsasında ədəbi-bədii kompozisiyalar hazırlanacaq, yaradıcılığından bəhs edən dəyirmi masalar təşkil olunacaq.

# "Azərbaycan"ın iyul sayı nəşr olunub

"Azərbaycan" ədəbi-bədii jurnalın növbəti sayı işıq üzü görüb. Jurnalın "Poeziya" guşəsinə Nisə Bəyimin, Cavanşir Əsgərin, Məmməd Tahirin, Ələmdar Quluzadənin, Balayar Sadiqin, Baloğlan Cəlilin, Fəxrəddin Əsədin, Kəmalə Ağayevanın, Mir Təqəvinin və Hüseyn Hatəminin şeirləri daxil edilib. Frans Kafkanın "Məhkəmə" romanı Vilayət Hacıyevin tərcüməsində "Yeni tərcümələr" bölümündə öz əksinin tapıb. Jurnalın "Nəsr" bölməsində Səyavuş Süleymanlının "Nuruşun xoruzu", "Hamam əhvalatı" və Şükufənin "İsmayıl kişinin kiçik oğlu" hekayələri verilib. "Dünya səndən kimlər keçdi" başlıqlı səhifədə Maarifə Hacıyevanın "Mavi gözlü dev"in sevdaları" yazısı yer alıb. "Tənqid və ədəbiyyatşünaslıq"da bu dəfə Almaz Həsənqızının "İren Melikoffun folklorşünaslıq irsi", Dilarə Məmmədovanın "Mirzə Fətəli Axundzadə ilə Qasım bəy Zakirin dostluğu" başlıqlı məqalələri dərc edilib.




Paşa Kərimovun "Sadiq bəy Əfşarın türkcə məktubları" jurnalın "Söz xəzinəmizdən" adlı bölməsində oxuculara təqdim olunub.

Nəşrin sonunda, ənənəvi olaraq, yeni işıq üzü görmüş kitabların qısa xülasəsi verilib.

**GÜNEL**

## Azərbaycanda folklor materiallarının elektronlaşdırılması gələn il başlana bilər

Azərbaycanda folklor materiallarının elektronlaşdırılmasına 2013-cü ilin payızında başlana bilər. Bu barədə APA-ya Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Folklor İnstitutunun direktoru Muxtar İmanov bildirib. Onun sözlərinə görə, hazırda ölkədə qeydiyyatda olan nə qədər folklor materialının olması dəqiq bəlli deyil: "Folklor materiallarının tapılması prosesi hər gün davam etdiyindən bu say anbaan dəyişir. Digər tərəfdən də folklor üçün çoxvariantlılıq xasdır, buna görə də bir folklor nümunəsinin bir neçə variantı ola bilər. Azərbaycanın çox zəngin folklor nümunələrini lazımi şəkildə saxlamaq və qorumaq üçün folklor materiallarının elektronlaşdırılmasına böyük ehtiyac var".

M.İmanov deyib ki, hazırda İnstitutun folklor fondunu yaratmasına və folklor nümunələrinin elektronlaşdırılmasını həyata keçirməsinə yerin azlığı mane olur: "Hazırda akademiyanın bəzi qurumları üçün yeni bina tikilir. Folklor İnstitutunun da həmin binada yerləşdirilməsi gözlənilir. Bundan sonra folklor materiallarının elektronlaşdırılması tam həyata keçiriləcək. Bu, Azərbaycanın milli folklor nümunələrinin erməni oğurluqlarından qorumağa mühüm töhfə olacaq".

## Slovakiya Milli Kitabxanasının əməkdaşları Azərbaycana gələcəklər

Slovakiya Milli Kitabxanasının kitabxana xidməti üzrə direktor müavini Darina Janovska və sistem administratoru Villiam Polonec 12-17 iyulda Azərbaycanda səfərdə olacaqlar. Milli Kitabxanadan APA-ya verilən məlumata görə, səfərdə məqsəd Slovakiya Milli Kitabxanası ilə Azərbaycan Milli Kitabxanası arasında imzalanmış ikitərəfli əməkdaşlıq haqqında Memorandumun maddələrinə uyğun təcrübə mübadiləsi həyata keçirməkdir.

## Dövlət Kino-Foto Sənədləri Arxivinə yeni sənədlər təhvil verilib

Dövlət Kino-Foto Sənədləri Arxivinə Musiqili Komediya Teatrı tərəfindən 3798 saxlama vahidi fotosənəd daxil olub. Milli Arxiv İdarəsindən APA-ya verilən məlumata görə, fotosənədlər son 20 ildə teatr kollektivinin yaradıcılıq fəaliyyətini, repertuarını,cəbhə bölgəsində, hərbi hissələrdə hospitallarda, əlil uşaqlar və qocalar evində görüşlərini əks etdirir. Hazırda fotosənədlərin Arxivin fonduna qəbulu rəsmiləşdirilir, hər bir fotosənədin qısa məzmunu hazırlanır.

# Ramin Musayev yenidən PFL-in prezidenti seçildi

*(Əvvəli 1-ci səh.)*

— Düşünürəm ki, bir çox işlər görə bildik. Ən böyük uğurumuz kimi isə əvəzedici komandalar arasında ölkə çempionatını keçirməyimizi qeyd edərdim. Bildiyiniz kimi, mənim fəaliyyətimə qədər bu yarışlar keçirilmirdi.

***— Unibankla əməkdaşlığınız nə yerdə qaldı?***

— Unibankla müqaviləmiz bitib. Ancaq yeni müqavilə üçün danışıqlar gedir. Çünki şəxsən mən PFL prezidenti olaraq, Unibankla əməkdaşlıqdan çox məmunam.

***— Əgər başqa banklar daha sərfəli müqavilə təklif etsələr necə?***

— Yenə deyirəm, mən Unibankla əməkdaşlığın davam etməsini istəyirəm və ilk növbədə də onlarla danışıqlar aparırıq. Əgər başqa bank bizə 150 min dollar daha artıq təklif etsə belə, mən yenə Unibankla əməkdaşlığa üstünlük verərdim.

***— Bu il I Divizionda çıxış edən klubların qarşısına lisenziyalaşdırma ilə bağlı konkret şərtlər qoyulacaq?***

— İddialı komandalara qarşı bu, olacaq. Soruşacam və görsəm ki, filan komandanın məqsədi Premyer Liqaya yüksəlməkdir, onunla ciddi söhbətimiz olacaq. Yoxsa, mən gedim "Göyəzən"in qabağına nə şərt qoyum, deyim lisenziya almasan səni çempionatdan çıxardacam? Deyəcək ki, lap yaxşı, Allah balanı saxlasın.

***— Növbəti mövsümün püşkatması nə zaman keçiriləcək?***

— Ayın 10-u, maksimum 15-nə kimi bu da olacaq.

***— İkinci "altılıq"la bağlı yenilik olacaq?***

— Bunun üzərində də çalışırıq və istəyirik ki, oradakı mübarizə də maraqlı olsun.

***— Bəs kubokun formatında dəyişiklik olacaq? Bir ara Türkiyədə olduğu kimi, qrup mərhələsinə keçid gündəmdə idi...***

— Xeyr, format əvvəllki qaydada saxlanılacaq və mübarizəyə 1/16 final mərhələdən start veriləcək.

***— Son açıqlamalarınızın birində çempionatın yayım hüququnu 500 min avroya satmağı düşündüyünüzü demisiniz. Bunu zarafatla demisiniz ya ciddi?***

— Tam ciddi demişəm. Məgər çoxdur?

***— Axı bizim telekanalların bu vəsaiti qarşılayacaq qədər reklam gəliri yoxdur...***

— Niyə ki, istənilən telekanal istəsə bu məbləği ödəyib yayım hüququna sahib çıxa bilər. Bəs biz nə vaxt gəlir götürəcəyik? Artıq bu sahədə də peşəkar fəaliyyətə keçmək lazımdır.

***— Dəfələrlə demisiniz ki, bir daha kluba qayıtmaram. Maraqlıdır, PFL prezidenti seçilməsəydiniz, hansı sahədə işlə məşğul olacaqdınız.***

— PFL prezidenti seçilməsəydim, gedib bizneslə məşğul olacaqdım (gülür).





# Sadıq Sadıqov: "Gürcüstan çempionunu zəif saymaq düzgün deyil"



**Supersport.Az saytı "Neftçi"nin prezidenti Sadıq Sadıqovdan müsahibə alıb.**

***— Sadıq müəllim, Çempionlar Liqasında püşkün nəticəsini komandanız üçün uğurlu saymaq olarmı?***

— Uğurlu deyəndə ki... Bilirsiniz ki, ötən il Zaqreb "Dinamo"su ilə düşdük, həddən artıq güclü klub idi. Bu komanda qrup mərhələsinə vəsiqə qazandı, ancaq bu səddi aşa bilməsə də, özünü göstərə bildi. "Zestafoni" də çox dəyərli komandadır, arxayınlaşmaq olmaz.

***— Rəqib haqda lazımi məlumat toplanılıbmı?***

— Bəli. Bu komandanın Çempionlar Liqasında oyunlarının videoyazısına baxmışıq. Gürcüstan futbolunun da çox inkişaf etməsindən xəbərdarsınız. Bu ölkənin əksər futbolçuları bir sıra dövlətlərdə legioner həyatı yaşayırlar. Biz hər zaman rəqibə hörmətlə yanaşır, dəyərləndiririk. Oyuna çox ciddi hazırlıq gedir. Allahın köməyi ilə komandamız ilk mərhələni keçmək üçün səylə çalışacaq. Yaddan çıxarmaq olmaz ki, rəqib çox güclüdür, zəif saymaq düzgün deyil.

***— "Neftçi"dən gedən futbolçular da oldu, gələnlər də var. Hazırki durumu necə dəyərləndirirsiniz?***

— Məlumatınız var ki, iki ildir "Neftçi"də heç bir dəyişiklik olmurdu. Bəzi futbolçuların müqavilələri başa çatdı. Onların maddi şərtləri oldu. "Neftçi" xalq komandasıdır, şirkət tərəfindən maliyyələşdirilir. Legionerlərlə maddi və bəzi məsələlərə görə anlaşma baş tutmadı, onlar öz istəkləri ilə ayrıldılar. İndi komandaya yeni güc qatmışıq. Əvvəlcə Rəşad Sadiqov, Julius Vobayı transfer etmişik. Həmçinin Çili yığmasının hücumçusu, Braziliyanın 21 yaşlılardan ibarət yığmasının üzvü komandamıza cəlb olunub. Bundan başqa, Paraqvay millisinin oyunçusu heyətə qatılıb. Gənc futbolçulara da üstünlük verilir ki, təcrübə qazanmaqla gələcəkdə milli komandamızın şərəfini layiqincə qorusunlar.

***— Ruslan Abışovun "Xəzər Lənkəran"a keçidinə münasibətinizi bilmək istərdik.***

— Ruslan Abışov "Neftçi"nin yetriməsidir, peşəkar futbolçudur. Onun komandamızla müqaviləsi başa çatmışdı. Ruslanla maliyyə məsələsində razılaşa bilmədik. O, istədiyi pulu vermək iqtidarında deyildik, ona görə də "yaxşı yol" deyib, "Xəzər Lənkəran"da uğurlar arzuladıq. Ruslan peşəkardır, ürəyi istədiyi komandada oynaya bilər. O, Lənkəran klubunun nə qədər pul təklif etdiyini və bu məbləği verəcəyimiz halda komandamızda qalacağını dedi. Onun istədiyi məbləği verməyə gücümüz çatmadı. "Xəzər" Ruslanın istədiyi pulu veribsə, bu bizim uğurumuzdur ki, "Neftçi"nin yetirməsi Azərbaycan ən bahalı transferi olub. Bir məqamı da deyim ki, 18 yetirməmiz ölkəmizi London Olimpiadasında təmsil edənlər sırasında olacaq. Bütün bunlar bizi sevindirir.

***— Ruslan sizdən nə qədər pul istəyirdi: 500-600 min dollar?***

— Bu haqda açıqlama vermək istəmirəm, məbləği Ruslan özü desin.

# Azad Rəhimov: "Hər olimpiada ərəfəsində medalların sayı 2 dəfə artıb"

"Azərbaycan müstəqillik dövründə artıq 5-ci dəfədir ki, dünyanın ən ali idman tədbiri olan Olimpiya Oyunlarında iştirak etməyə hazırlaşır. Artıq 2012-ci il London Olimpiadasına çox az vaxt qalır.

Sevindirici haldır ki, müstəqil respublikamızın Olimpiya yığma komandası belə möhtəşəm bir tədbirdə əvvəlki olimpiadalarla müqayisədə daha geniş tərkibdə — 53 idmançı ilə təmsil olunacaq".

Gənclər və idman naziri Azad Rəhimov Azərbaycan nümayəndə heyətinin London Yay Olimpiya və Paralimpiya Oyunlarına yolasalma mərasimindəki çıxışında belə deyib.

O bildirib ki, 4 il öncə başlamış Olimpiadaya hazırlıq prosesi Prezident İlham Əliyevin 22 iyun 2010-cu il tarixli "XXX Yay Olimpiya Oyunlarına hazırlıq haqqında" Sərəncamı ilə daha da sürətlənib. Ölkəmizdə idmanın inkişaf etdirilməsi, Olimpiya hərəkatının genişləndirilməsi, yeni idman və Olimpiya komplekslərinin tikilməsi zərurəti, eləcə də idmançılarımızın London olimpiadasında, dünya və Avropa çempionatlarında yüksək göstəricilərinin təmin edilməsi məqsədi ilə 2012-ci ilin ölkəmizdə "İdman ili" elan edilməsi də Olimpiya Oyunlarına hazırlıq prosesinə müsbət təsir göstərib: "Bu gün Azərbaycan dünyanın idman mərkəzlərindən biri kimi nüfuzlu idman tədbirlərinə ev sahibliyi edir. 2011-ci ildə respublikamızda 36 beynəlxalq yarış təşkil edilib. Cari ilin 6 ayı ərzində isə artıq 28 beynəlxalq yarışa ev sahibliyi etmişik. Bu günədək 126 respublika tədbiri keçirilib. 217 beynəlxalq tədbirdə, 79 təlim-məşq toplanışlarında yığma komandalarımızın iştirakı təmin edilib. Olimpiadaya hazırlıq dövründə keçirilmiş yarışlar Azərbaycanımızın təbliği baxımından da əhəmiyyətli olub. Xüsusilə, mayda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş, 4 kontinental, 4 milli və 12 qarışıq kollektivdə ümumilikdə 180 idmançının iştirak etdiyi 23 yaşadək velosipedçilər arasında 5 mərhələli beynəlxalq veloyürüşü qeyd etmək lazımdır. "İdman İli"nə həsr olunmuş, Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Bakıda təşkil edilmiş dünya şöhrətli "Formula-1"in hazırkı çempionu Devid Kulthardın iştirakı ilə nümunəvi çıxışlar Bakı sakinləri və şəhərimizin qonaqları tərəfindən maraq və sevinclə qarşılanıb. Sevindirici haldır ki, artıq bir sıra beynəlxalq yarışlar təkcə Bakıda deyil, ölkəmizin müxtəlif bölgələrində də keçirilir. Bu sıradan Naxçıvan Muxtar Respublikasında yunan-Roma güləşi, üzgüçülük və digər idman növləri üzrə təşkil edilmiş beynəlxalq turnirlər Naxçıvanın da region ölkələri arasında idman mərkəzlərindən birinə çevrilməsi yolunda mühüm addımdır. Bakı şəhərinin 2016-cı və 2020-ci il Yay Olimpiya Oyunlarına ev sahibliyi etmək hüququ uğrunda mübarizəyə qoşulması da ölkəmizdə idmanın inkişafının bariz sübutudur. Bakı namizəd şəhər mərhələsini keçə bilməsə də, iddiaçı mərhələsində böyük iş aparıldı. İnanırıq ki, bu sahədə qazanılan təcrübə gələcək olimpiadalar uğrunda mübarizədə öz sözünü deyəcək".



Nazir 2008-ci il Pekin Olimpiadasından ötən dövr ərzində Azərbaycan idmançılarının Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi və federasiyalar tərəfindən mütəmadi dünya və Avropa çempionatlarına ezam edildiyini, bu yarışlardan vətənə uğurlu nəticələrlə döndüklərini söyləyib. Onun sözlərinə görə, bu göstəricilər həm medalların nisbətində, həm də ötən Olimpiya Oyunları ilə müqayisədə əldə olunmuş lisenziyaların fərqində öz əksini tapıb: "Müqayisə üçün deyə bilərik ki, Olimpiya idman növləri üzrə qazanılmış medalların sayında da dinamik inkişaf müşahidə olunur. Bu rəqəmlər Atlanta Olimpiadası ərəfəsində (1993-1996-cı illər) 71, Sidney Olimpiadası ərəfəsində (1997-2000-ci illər) 146, Afina Olimpiadası ərəfəsində (2001-2004-cü illər) 262, Pekin Olimpiadası ərəfəsində (2005-2008-ci ilin 7 ayı) 467, London Olimpiadası ərəfəsində isə (2009-2012-ci ilin 6 ayı) 835 olub. Göründüyü kimi, hər dəfə Olimpiada ərəfəsində Olimpiya idman növlərində qazanılan medalların sayı əvvəlki Olimpiada ilə müqayisədə təxminən 2 dəfə artıb.

Xüsusi ilə qeyd etmək istərdim ki, əgər Pekin Olimpiya Oyunlarında Azərbaycan 44 lisenziya qazanaraq 11 idman növündə təmsil olunurdusa, Londonda 53 lisenziya ilə 16 idman növündə iştirak edəcək.

Ümumiyyətlə isə London Olimpiadasında Azərbaycan müstəqillik tarixində ilk dəfə olaraq 5 yeni — kanoe, akademik qayıqlarda avarçəkmə, velosiped idmanı, idman gimnastikası və qılıncoynatma idman növlərində də təmsil olunacaq.

Pekində Azərbaycanı 1 hakim (güləş) təmsil edirdisə, Londona 5 hakimimiz (2 güləş, gimnastika, boks və ağırlıqqaldırma) yollanacaq.

Bundan başqa idmançılarımızla yanaşı 6 hakim, 29 məşqçi də komandamızın heyətində Londona gedəcəklər.

Londonda ölkəmizi təmsil edəcək 53 idmançıdan 41-i ilk dəfə Olimpiya Oyunlarının iştirakçıları olacaq. A.Rəhimov bildirib ki, komandamız daha geniş beynəlmiləl tərkibə malikdir və əsasən titullu idmançılardan ibarətdir. Onların əksəriyyəti qatıldıqları beynəlxalq nüfuzlu idman yarışlarında lisenziya qazanmaqla yanaşı, eyni zamanda həmin yarışların qalibi olaraq dünya və Avropa çempionları adına layiq görülüblər: "Sevindirici haldır ki, komandamızın tərkibində müstəqillik dövründə dünyaya gəlmiş və ilk dəfə ölkəmizi olimpiadada təmsil edəcək gənc idmançılarımız da var. Bu fakt da bir daha sübut edir ki, həqiqətən Azərbaycan idmanı müstəqillik illərində böyük bir inkişaf yolu keçib, perspektivli yeniyetmə və gənc idmançıların aşkar edilməsi üçün ölkəmizdə əlverişli şərait yaradılıb".

Nazir artıq ölkəmizdə 34 olimpiya idman kompleksinin fəaliyyət göstərdiyini xatırladaraq, qeyd edib ki, indi Olimpiya yığma komandamızın tərkibində təkcə Bakı şəhərinin deyil, həm də Sumqayıt, Gəncə, Naxçıvan, Mingəçevir, Lənkəran, Astara və s. rayon və şəhərlərimizin də idmançılarının ölkəmizi təmsil etmələri bölgələrdə yaradılan infrastrukturdan xəbər verir.

Gənclər və İdman Nazirliyinə olimpiadaya hazırlıq prosesinin yüksək səviyyədə aparılması üçün dövlət büdcəsindən 14 milyon 785 min manat məqsədli vəsait ayrılıb. Bundan başqa, Milli Olimpiya Komitəsi, müvafiq federasiyalar və idman cəmiyyətləri tərəfindən hazırlıq prosesinin mütəşəkkil aparılması üçün lazımi köməkliklər göstərilib. Digər təşkilati məsələlər — akkreditasiya, nəqliyyat, tibbi ləvazimat, idman geyimləri və xüsusi geyimlər kimi məsələlər də həll olunub. Olimpiya komandamızın geyimləri İtaliyanın məşhur "Ermanno Scervino" şirkəti tərəfindən hazırlanıb.

Azərbaycan nümayəndə heyəti 2012-ci il London Yay Olimpiya Oyunlarına 2 qrupda yola düşəcək. Nazir qeyd edib ki, birinci qrup iyulun 24-də, ikinci qrup isə avqustun 4-də Londonda olacaq. İdmançılarımızın yerləşəcəyi Olimpiya kəndində iyulun 25-də Azərbaycan komandasının salamlanması — Azərbaycan bayrağının qaldırılması mərasimi keçiriləcək. İyulun 28-də isə "Azərbaycan günü" olacaq. Bu tədbirdə Beynəlxalq Olimpiya Komitəsinin, bir çox milli olimpiya komitələrinin və beynəlxalq federasiyaların nümayəndələrinin iştirakı gözlənilir.

Ardından nümayəndə heyəti üzvlərindən sərbəst güləş üzrə Azərbaycan milli komandasının böyük məşqçisi Firdovsi Umudov, paralimpiyaçı atlet Hüseyn Həsənov və boksçu Vətən Hüseynli çıxış ediblər. Hüseynli olimpiya andını səsləndirib.

# "Qarabağ" 100 pillə gerilədi

Ağdamın "Qarabağ" komandası Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının (İFFHS) yeni reytinqində 100 pillə geriləyib. 416 komandanın yer aldığı siyahıda "Qarabağ" 299-cu yerdən 399-cu pilləyə düşüb.

Reytinqə əvvəlkitək İspaniyanın "Barselona" klubu başçılıq edir. Çili təmsilçisi "Universidad" ikinci, Madrid "Real"ı isə üçüncüdür.

Qeyd edək ki, Azərbaycandan bu reytinqdə yenə əvvəlkitək "Qarabağ" yer alıb.

Bu il ölkəmizi Çempionlar Liqasında təmsil edəcək "Neftçi"nin rəqibi Gürcüstan "Zestafoni"si siyahıda 152-ci, "Xəzər Lənkəran"ın rəqibi Estoniya "Nomme Kalyu"su 383-cü yeri tutur. "Bakı"nın rəqibi "Mura" (Sloveniya) və "İnter"in rəqibi "Trans"ın (Estoniya) adı isə reytinqdə yoxdur.

AGBankın keçirdiyi "Təcili pul köçürmələri sistemləri" kampaniyasının iyun ayı üzrə qalibləri müəyyən olundu.

Bunlar Xəzri Z. Haciyev, Hacı Y. Hacıyev — AGBank Baş ofis və Rasim H. Vəliyev — Xətai fillialının müştəriləridir.

Xatırladaq ki, AGBankda Western Union, Interexpress, Contact, Bistraya pocta, Blizko, Faster, Lider, Miqom və Coinstar təcili pul köçürmələri sistemləri mövcudur!

Hər ayın üç qalibi AGClub Standart paketi və 20 manat məbləğində nağd pulla mükafatlandırılacaq.

Kampaniya cari ilin sonuna qədər qüvvədədir!

Quliyev Akif Süleyman oğluna Rəvan Sığorta tərəfindən verilmiş 05.01.2012 tarixli PMI 002326 saylı sığorta şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən Kərimova İradə Rəhman qızının adına verilən VÖEN 1801653442 itdiyi üçün etibarsız sayılır.

3 saylı XT MKTB-nın KGN seriyalı 697850 nömrəli mənzil kommunal xidməti üçün mədaxil qəbzi və qəbzin kötüyü itdiyi üçün etibarsız sayılır.

Xankəndi Pedaqoji İnstitutunun Riyaziyyat fakültəsinin 1975-ci il məzunları qrup yoldaşları

**Abbasov Vaqif İslam oğlunun**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Mustafa Çəmənli mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyevə atası

**Məqsəd Vəliyevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

# "Zestafoni"nin baş məşqçisi: "Neftçi" səddini keçəcəyik"

**Çempionlar Liqasının II təsnifat mərhələsində "Neftçi"nin rəqibi olan Gürcüstanın "Zestafoni" komandasının baş məşqçisi Georgi Çiaberaşvili klubun rəsmi saytına müsahibə verib.**

***— Artıq 5 gündür ki, Avstriyada təlim-məşq toplanışındasınız. "Neftçi" ilə oyuna hazırlıq necə gedir?***

— Hazırlığımız çox yaxşı gedir. Komandada bir qədər yüklənmə var. Lakin günü-gündən hər şey daha da yaxşılığa doğru gedir və yoxlama görüşləri keçirməklə problemləri aradan qaldırıq. İnanıram ki, "Neftçi" ilə oyuna tam hazır olacağıq.

***— Bir neçə gün öncə Rumıniyanın "Astra" klubu ilə keçirdiyiniz yoxlama görüşündən (0:1) sonra komandanın fiziki durumunun qaydasında olmadığı müəyyənləşdi. Bu barədə nə deyərdiniz?***

— Təbii ki, Rumıniya təmsilçisi güclü rəqib idi. Onlar bizə nisbətən daha çox yoxlama oyunları keçirmişdilər. Ona görə də rəqib bizimlə oyuna daha hazırlıqlı çıxmışdı. Bununla belə, həmin oyunda komandamda bir neçə gənc futbolçu özünü göstərmək imkanı qazandı. Düşünürəm ki, "Astra"ya məğlubiyyətdə təəccüblü heç nə yoxdur.

***— Gürcüstanda çoxları hesab edir ki, komandanı daha da təkmilləşdirmək lazımdır. Hazırda "Zestafoni" veteran və gənc futbolçulardan simvolizə edilib. Sizcə, yeni futbolçulara ehtiyac varmı?***

— Mən bu fikirlə razı deyiləm. Bizim çox yaxşı komandamız var. Hansı ki, məhz bu futbolçularla titul qazanmışıq. Bizim də məqsədimiz böyük komanda yaratmaqdır. Düşünürəm ki, bu heyət "Neftçi" səddini keçməyə kifayət edəcək. Yeni futbolçulara isə ehtiyac yoxdur.



***— "Neftçi" ilə oyun "Qafqaz derbisi" də adlandırılır. Bakıda keçiriləcək ilk görüşdə nəyə ümid edirsiniz?***

— İlk öncə onu deyim ki, "Neftçi" özü də güclü rəqiblə qarşılaşacaq. Düzdür, onların səviyyəli legionerləri var. Ancaq futbolda pul vacib deyil. Hazırda heç kəs məğlubiyyət haqda düşünmür. Səfərdə yalnız bir qola ümid etməməliyik. Biz sonadək döyüşəcəyik və mübarizədən çəkinməyəcəyik. Mən şansları bərabər dəyərləndirirəm.

# "Nomme Kalyu"nun futbolçusu: "Xəzər Lənkəran" favoritdir"



"Yenidən Azərbaycana qayıtdığım və sabiq komandam "Xəzər Lənkəran"a qarşı oynayacağım üçün xoşbəxtəm. Rəqibimiz çox güclü komandadır və onlar topu özlərində saxlamağı yaxşı bacarırlar. Düzdür, onlar topu uzun müddət özlərində saxlamağı bacarmırlar. Ancaq onu bilirəm ki, "Xəzər Lənkəran" fiziki cəhətdən çox güclüdür və sürətli oyuna üstünlük verir". Bu sözləri "Xəzər Lənkəran"ın Avroliqadakı rəqibi "Nomme Kalyu"nun müdafiəçisi Tixon Şişov klubun rəsmi saytına müsahibəsində deyib.

Lənkəranda keçirəcəkləri ilk oyunu dəyərləndirən estoniyalı futbolçunu "Xəzər Lənkəran"ı cütün favoriti adlandırıb: "Mənim "Xəzər Lənkəran"dan ayrılmağım rəhbərliyin qərarı idi. Düzünü desəm, mən bu məsələni kimin başladığını bilmirəm. Məşqçilər yoxsa, menecerlər işi idi. Təbii ki, bir qədər incikliyim var. Ancaq bu məsələdə komanda günahkar deyildi. Oyuna gəldikdə isə biz "Xəzər Lənkəran"ı məğlub edə bilərik. Ancaq burada əsas məsələ bizim öz potensialımızı nə dərəcədə ortaya qoya biləcəyimizdi. "Xəzər Lənkəran"ın reytinqi daha yüksəkdir və buna görə də onlar cütün favoriti sayılırlar. Lakin biz də həm Lənkəranda, həm də evdə qələbə qazanmağa çalışacağıq. Bu, bizim üçün çətin olacaq. Ancaq bütün bacarığımızı ortaya qoyacağıq".

Qeyd edək ki, Lənkəran şəhər stadionun keçiriləcək "Xəzər Lənkəran" — "Nomme Kalyu" matçı iyulun 5-də saat 20:00-da başlayacaq.

**Materialları Anar Cəfərsoy hazırladı**

**Qəzet 1992-ci il noyabrın 17-dən çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar Əliyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet "Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: "525" şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2280
"TURAN", "TREND", AzərTAc, "AssA-İradə", APA və "OLAYLAR"ın informasiyalarından istifadə olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.